www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  30 avqust 2019-cu il  Cümə  № 179  (7349)  Qiyməti  60 qəpik

**Xəbər**

## Toylar zəhərlənmə mərasiminə çevrilir - səbəblər

yazısı səh.14-də

**Gündəm**

### İslamabaddan Elmar Məmmədyarova təcili zəng



Pakistan Cəmmu və Kəşmir ətrafındakı vəziyyətə dair Bakıdan qəti mövqe istəyir

yazısı səh.8-də

# AVROPA İTTİFAQI İLƏ SAZİŞ YENƏ DALANDA: BAKI Aİ-Nİ NƏLƏRDƏ GÜNAHLANDIRIR?

Brüssel Bakı ilə danışıqlardakı problemləri açıqladı; **diplomatik mənbələr:** "Azərbaycan Avropa İttifaqını Ermənistanla imzalanmış "uzaqgörənlik nümayiş etdirməyən" sənəddə günahlandırır"; Avropa Komissiyası isə yaxın iki ayda yeni sazişə ümid edir, amma...



yazısı səh.7-də

### Xaricdən gətirilən mallar ölkədə bahalıq yaradır-ekspert

yazısı səh.12-də

### Etibar Məmmədovun siyasətə qayıdacağı barədə yeni iddialar

yazısı səh.3-də

### Putinin kanalı Paşinyanı sərt "vurdu"

yazısı səh.4-də

### Bakı dünyanın 50 ən təhlükəsiz şəhəri sırasındadır

yazısı səh.7-də

### Seçki yoxdur, amma müxalifətdə "mandat alveri" ittihamları başlayıb

yazısı səh.4-də

### Qərbin "xoxan" obrazının sonu kimlərə mesajdır?

yazısı səh.10-da

### Hacı Qalibdən torpaq zəbt etməsi iddialarına reaksiya

yazısı səh.4-də

### İlin 8 ayının iqtisadi və siyasi yekunu

yazısı səh.12-də

### Bayıl yamacı xarabalığa çevrilib: ərazidə siçovullar, küçə itləri dolaşır

yazısı səh.14-də

### Milyonluq xəzinə və dəfinələr tapan alimdən şok açıqlamalar

yazısı səh.13-də

## Yeni qəbul ediləcək dini qanuna ilk etiraz YAP-çı baş redaktordan gəldi

"Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov: "Başsağlığını qadağan etsələr, jurnalistlərə necə əmək haqqı ödəyəcəyik?"

yazısı səh.6-də



### Aqil Abbas bəyənilməyən aprel döyüşləri ssenarisindən danışdı

yazısı səh.3-də



### İŞİD-in yeni lideri türkmən Abdullah Qardaş kimdir?

yazısı səh.11-də



*Siyavuş Novruzov:*

### "Arxiv açılsa, çox adamın başına çox iş gələcək"

yazısı səh.5-də



## Xəzəri ən çox çirkləndirən obyektlərin adları açıqlandı

**"Sumqayıt, Novxanı, Buzovna, Şüvəlan, Türkan, Hövsan, Sahil, Lənkəran və Astara ərazilərində fəaliyyət göstərən bütün ictimai-iaşə obyektləri də tullantı sularını birbaşa olmasa da, dolayı yolla Xəzərə axıtmaqda davam edir".**

Modern.az-ın məlumatına görə, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin rəisi Ərəstun Həsənov deyib.

Onun sözlərinə görə, Xəzər dənizinin Azərbaycan sektorunda şimaldan cənubadək olan sahil zolağı boyunca apardığımız son monitorinqlərin nəticəsinə görə, dənizin şimal sahilində fəaliyyət göstərən "Təhsil", "Elfaro", "Oberluks", "Palma", "Atlant" və "Liverin", Şıx çimərliyi ərazisində isə "Dostluq", "Ramada" istirahət mərkəzləri təmizləyici qurğular istismar ediblər. Digər obyektlərin hamısının bu gün də Xəzəri çirkləndirməkdə davam etdiyi müəyyən edilib:

"Tullantı sularının təmizlənməsi günün əsas tələblərindən biridir. Bir daha dənizi çirkləndirənlərə bildiririk ki, dənizə bu cür etinasız münasibət davam edərsə, hamımızın sağlamlığımız təhlükə altında qala bilər. Onları primitiv, köhnə üsullardan uzaqlaşıb müasir texnologiyalardan istifadə etməklə fəaliyyət göstərməyə səsləyirik. Biz həm də bələdiyyələrə, yerli icra orqanlarına çağırış edirik ki, onlar da bu işdə fəal olsunlar, ətraf mühitə münasibətdə sağlam mövqe tutmağa yönələn fəaliyyətə dəstək versinlər".

## Bitkoinin qiyməti 10 min dollardan aşağı düşüb

**Dünyanın aparıcı kriptovalyutası olan bitkoinin qiyməti 10 min dollardan aşağı enib.**

"Report" "Bloomberg"ə istinadən xəbər verir ki, bu gün də bitkoinin birja əməliyyatlarında dəyəri azalaraq iki gün ərzində 7,64% dəyər itirərək 9 372 dollara satılıb.

Bitkoinlə yanaşı digər kriptovalyutaların da dəyəri azalıb. "Bitcoin Cash" gündəlik 3%, "Dash" 6,3%, "Ethereum" 2,25%, "Litecoin" 1,87%, "XRP (Ripple)" 1,14% dəyəri itirib.

## Türkiyə Hərbi Hava Qüvvələrinin heyəti Azərbaycana gəldi

**"TurAz Qartalı - 2019" birgə taktiki-uçuş təlimlərində iştirak etmək üçün Türkiyə Hərbi Hava Qüvvələrinin (HHQ) geniş tərkibdə uçuş və mühəndis-texniki heyəti ölkəmizə gəlib.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, təlimlərə hazırlıq məqsədilə hazırda heyətlərin yerləşdirilməsi, təlimin planlaşdırılması və digər təşkilati məsələlərlə əlaqədar müvafiq tədbirlər həyata keçirilir.

Təlimlər sentyabrın 2-dən 16-dək keçiriləcək.

## 33 dərəcə isti olacaq

**Bakıda bu günə gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, avqustun 30-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var.**

Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə Abşeron yarımadasında 19-22, gündüz 23-26, Bakıda gecə 19-21, gündüz 24-26 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi 764 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 50-60 faiz olacaq.

Abşeron çimərliklərində mülayim şimal-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 23-24, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 24-25 dərəcə isti təşkil edəcək.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Seymur Həzi 5 illik həbsdən sonra azadlığa çıxdı

## Nigar Həzi: "Bundan sonra ailə olacağıq"

**AXCP funksioneri, jurnalist Seymur Həzi beş illik həbsdən sonra avqustun 29-da səhər saatlarında azadlığa buraxılıb. Bu barədə onun qayınatası, Müsavatın Divan üzvü Tofiq Yaqublu öz feysbuq profilində məlumat paylaşıb. S.Həzi Ədliyyə Nazirliyi Penitensiar Xidmətin 17 saylı cəzaçəkmə müəssisəsindən məhbus həyatı ilə vidalaşıb.**



Həbsdən azad olunandan sonra S.Həzi həmkarlarına açıqlama verib: "Məni bağışlayın, siyasətdən danışmayacam. Özümü çox yaxşı hiss edirəm. Hər şey qaydasındadır, hər şey əladır".

Seymur Həzi həbsdə olarkən üç il öncə onunla ailə həyatı quran, müsavatçı fəal Nigar Həzi modern.az-a açıqlamasında çox sevincli olduqlarını deyib: "O dərəcədə sevincliyik ki, bu sevincimizi sözlə ifadə edə bilmirəm. Hazırda yaxın qohumlar, dostlar Seymurun başına toplaşıb. Sevincli anları yaşlaşırıq. Təbrikə gələnlər də çoxdur".

**N.Həzi gələcək barədə mütləq düşünəcəklərini də bildirib:**

"İndi başımız qarışıqdır. Dediyim kimi, gələn-gedən də çoxdur. Hələ özümüz barədə söhbət etməmişik. Güman ki, bir müddətdən sonra gələcək planlarımız, işlərimiz barədə danışacağıq. Özümüzə gələk, mütləq gələcək planlarımıza qərar verəcəyik. Bundan sonra ailə olacağıq".

S.Həzi 2014-cü il avqustun 30-da həbs edilib. O, Cinayət Məcəlləsinin 221.3-cü (xuliqanlıq, silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə) maddəsi ilə ittiham olunaraq 5 il həbs cəzası alıb. Jurnalist bu ittihamı qəbul etmir. "Amnesty International" təşkilatı S.Həzini vicdan məhbusu kimi tanıyıb.

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**



## Bakıda jurnalisti döyən şəxs həbs olundu

**Bakıda jurnalistə qarşı xuliqanlıq edən şəxs məhkəmə qərarı ilə həbs edilib. Bu barədə modern.az-a Baş Prokurorluqdan məlumat verilib.**

Rəsmi məlumata görə, ictimai qaydanı kobud surətdə pozmaqla şəxslər üzərində zor tətbiq olunması ilə müşayiət olunan xuliqanlıq hərəkətlərinə yol verərək, Bakı şəhər sakini Zülfüqar Xeyirxəbərova bədən xəsarətləri yetirməsinə əsaslı şübhələr müəyyən edilmiş Seymur Mustafazadəyə Cinayət Məcəlləsinin 221.1-ci (xuliqanlıq) maddəsi ilə ittiham elan olunub.

Məhkəmənin qərarı ilə onun barəsində həbs-qətimkan tədbiri seçilib.

Avqustun 25-də saat 10 radələrində Bakı şəhər sakini Zülfüqar Xeyirxəbərov idarə etdiyi "Mercedes" markalı 99-BC-360 dövlət qeydiyyat nişanlı avtomobillə Mərdəkan-Bakı avtomobil yolu ilə hərəkətdə olarkən Binə qəsəbəsi ərazisində "Daewoo" markalı 99-AD-149 dövlət qeydiyyat nişanlı avtomobilin sürücüsü tərəfindən heç bir əsaslı səbəb olmadan saxladılaraq mübahisə etməklə ona bədən xəsarətləri yetirilib.



## Lənkəranda qəzaya düşən avtobus qanunsuz fəaliyyət göstərirmiş

**Lənkəranda qəzaya düşən avtobus Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən (DANX) fərqlənmə nişanı almayan, qeyri-qanuni fəaliyyət göstərən daşıyıcı olub.**

Bunu Dövlət Avtomobil Nəqliyyatı Xidməti mətbuat xidmətinin rəhbəri Nuridə Allahyarova deyib.

Onun sözlərinə görə, avtobus Lənkəran daxilində fəaliyyət göstərib: "Qəzaya düşən avtobus müntəzəm sərnişin daşımırdı, sadəcə, ayda bir, iki dəfə xəttə çıxırdı. Avtobus fəhlələri, ya da ona sifariş əsasında müraciət edən insanları daşıyırdı. Bizdən xəbərsiz və fərqlənmə nişanı olmadan işləyən sürücü hadisə səbəbindən dünyasını dəyişib".

Xatırladaq ki, qəza nəticəsində daha 23 nəfər müxtəlif xəsarətlərlə Lənkəran Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb.

## Qubada məscidin xalçalarını oğurlayan qadın saxlanıldı



**Quba Rayon Polis Şöbəsinə (RPŞ) rayon ərazisində yerləşən məscidlərin birindən xalçaların oğurlanması barədə məlumat daxil olub. Daxili İşlər Nazirliyi mətbuat xidmətindən verilən məlumata görə, RPŞ-də dərhal əməliyyat qrupu yaradılıb və hadisə yerinə baxış keçirilib.**

Aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində məscidə məxsus xalçaların Şabran rayonu, Günəşli kənd sakini Lalə Babayeva tərəfindən oğurlandığı müəyyən edilib.

İlkin dindirilmə zamanı L.Babayeva tutduğu əməli etiraf edərək, gecə saatlarında məsciddə heç kimin olmadığı vaxtda xalçaları oğurladığını bildirib.

Faktla bağlı Quba RPŞ-də araşdırmalar aparılır.

## Vəhşi heyvan və balıqların ovuna icazə "ASAN xidmət"də veriləcək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi müvafiq sahələr üzrə icazələrin verilməsini asanlaşdırmaq məqsədilə gələn aydan "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərəcək. Bunu nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova deyib.**

O bildirib ki, dövlət ekoloji ekspertizası üzrə müvafiq icazələrin, eyni zamanda vəhşi heyvan və balıqların ovuna icazələrin verilməsi "ASAN xidmət" mərkəzində həyata keçiriləcək.

İ.İbrahimova qeyd edib ki, bununla vətəndaş müraciətlərinin daha operativ və asan şəkildə həll edilməsinə, şəffaflığın artırılmasına, göstərilən xidmətlərin təkmilləşdirilməsinə və vətəndaş məmnunluğunun təmin edilməsinə nail olunacaq.

## Azərbaycanlı müğənni Türkiyədə 1 milyona villa alır

**Azərbaycanda "Gedək üzü küləyə" mahnısı ilə sosial şəbəkədə böyük məşhurluq qazanan müğənni Çinarə Məlikzadə Türkiyədə özünə villa alır. Virtualaz.org xəbər verir ki, bu barədə Türkiyə KİV-i məlumat yayıb.**

Haluk Leventin dəstəyi ilə Türkiyə musiqi sektoruna qatılan gənc müğənni burada 40 konsertlik anlaşma imzalayıb. Mətbuatın yazdığına görə, hazırda qonşu ölkədə dincələn Ç. Məlikzadə Bodrumu çox bəyəndiyindən özünə 1 milyon lirə dəyərində villa almaq qərarına gəlib. Bir çox daşınmaz əmlak mütəxəssisi ilə görüşsə də, hələ ki istədiyini tapa bilməyib. Ona görə də müğənni bir həftəlik tətilini bir qədər də uzatmalı olub.

## Putinin işindən 67% rusiyalı razıdır

**Rusiya prezidenti Vladimir Putinin işindən 67% rusiyalı razılıq edib. Modern.az Rusiya KİV-nə istinadən xəbər verir ki, bu barədə Levada Mərkəzinin keçirdiyi sorğunun nəticəsindən aydın olub. İyun və iyul aylarında Putinin işindən 66% vətəndaş, aprel və may aylarında isə 64% ölkə vətəndaşı razılıq edib.**

Rusiya sakinlərinin 49%-i ölkənin düzgün inkişaf yolu ilə getdiyini, 42%-nin isə səhv yolla getdiyini düşünür. Levada Mərkəzi tərəfindən keçirilən sorğu 2019-cu il avqustun 22-dən 29-na qədər keçirilib. Sorğuda yaşı 18-dən yuxarı olan və 137 yaşayış məntəqəsindən olan 1608 sakin cavablandırıb.

YENİ MÜSAVAT
N 179 (7349) 30 avqust 2019

**Yazıçı-deputat Aqil Abbasın aprel döyüşləri barədə ssenarisinə film çəkilməsi Mədəniyyət Nazirliyi tərəfindən qəbul olunmayıb.**

**Bu barədə danışan "Azərbaycanfilm" kinostudiyasının direktoru Müşfiq Hətəmovun sözlərinə görə, aprel savaşı haqda filmlər çəkilməsi üçün bir sıra layihələrlə maraqlanırlar.**

# Aqil Abbas bəyənilməyən aprel döyüşləri ssenarisindən danışdı

## "Guya təkrarçılıq olub, "Dolu"nu yazan aprel döyüşləri haqda zəif ssenari yazmaz!"



**Aqil Abbas:** "Hansı türk aktyor aprel müharibəsi haqda filmdə pulsuz oynayar?"

Ermənistanda isə aprel müharibəsinə həsr olunmuş film artıq çəkilib və oktyabrın 17-də İrəvanda "Cənnətə açılan qapılar" kinosunun təqdimatı keçiriləcək.

Rejissor Civan Avetisyanın çəkdiyi filmdə almaniyalı aktyor Rixard Zammel, Nina Krongyaer, Rusiya Milli Filarmonik Orkestrinin baş dirijoru, SSRİ və Rusiya Xalq artisti Vladimir Spivakovun qızı Tatyana Spivakova və erməni aktyorlar çəkilib.

Təəssüf doğuran məqam ondan ibarətdir ki, çəkilişləri Qarabağda və Avropada aparılan filmin maliyyələşməsi Ermənistanla yanaşı, Litva, Almaniya, Bolqarıstan, Çexiya, İtaliya və Avstriya tərəfindən aparılıb.

Filmin nümayişi 2020-ci ilin martında Los-Ancelesdə, Parisdə, Moskvada və s. şəhərlərdə də keçiriləcək.

Bəs niyə bizimkilər indiyə qədər aprel döyüşləri barədə araya-ərsəyə sanballı bir film çıxarmayıblar? Nə üçün belə filmlərə tanınmış əcnəbi aktyorları dəvət etmirik? Bu məsələdə də ermənilərdən geri qalmamışıqmı?

Aqil Abbasın ssenarisi nə səbəbdən qəbul edilməyib? Doğrudur, aprel şəhidləri haqda sənədli filmlər çəkilib. Amma yetərli deyil, təbliğat xarakterli, müharibənin mahiyyətini izah edən, Qarabağ münaqişəsinin gerçək səbəbini, ermənilərin işğalçı siyasətini, azərbaycanlıların torpaq uğrunda fədakarlığını göstərən film çəkməli, peşəkarlar çağırılmalı, dünyaya nümayiş olunmalıdır. Bu və digər məsələlərlə bağlı suallarımızı yazıçı-deputat cavablandırıb. Onun "Yeni Müsavat"a müsahibəsini təqdim edirik:

***- Aqil müəllim, nazirlik sizin ssenarini qəbul etməyib. Necə deyərlər, görəsən, "Rüstəm bəy Məşədi İbadın nəyini bəyənməyib"?***

- Vallah, məni çağırdılar, dedilər ki, aprel döyüşləri barəsində ssenari yaz. Mən də canla-başla qəbul elədim, bir ssenari yazdım. İndi deyirlər ki, ssenari qəbul edilməyib. Səbəbi də belə olub ki, "Dolu" romanı ilə üst-üstə düşüb, guya ona oxşayıb. Ona görə də bəyənməyiblər. Düzü, mən Mədəniyyət Nazirliyinə yox, Müşviq Hətəmova ssenarini vermişəm. O da ssenari ilə tanış olanda bəyənmişdi. Ola bilər ki, zəif alınıb, xoşlarına gəlməyib, fərqli bir ssenari gözləyiblər. Mən indi özümü tərifləyə bilmərəm ki, Aqil Abbasın ssenarisi əvəzolunmaz idi, bundan yaxşısını yazan olmaz və s. ilaxır. Hər kəsin baxışı, fikri ola bilər. Ona görə də canları sağ olsun, mən bir söz deyə bilmərəm. Təki film çəkilsin, bəyənilsin, səs-küy salsın.

***- Sizin bu ssenari doğrudan da "Dolu"nu təkrarlayırdı?***

- Qətiyyən təkrarçılıq olmayıb. Nazirlikdə münsiflər heyəti var, onlar ssenarilərlə tanış olurlar, seçim edirlər. Əsas da Cəmil Quliyevdir. Mən kimdənsə küsmürəm, heç buna haqqım da yoxdur. Elə bir şərt yoxdur ki, mütləq mənim ssenarim qəbul olunmalıydı, heç kəsi qınaya bilmərəm ssenarim niyə qəbul olunmayıb. Sadəcə, "Dolu"nu yazan aprel döyüşləri haqda zəif ssenari yazmaz! Mən əsərin üzərində əziyyət çəkmişəm, böyük bir ürək qoymuşam, heç bir oxşarlıq olmayıb. İndi mətnlərlə tanışlıq davam edir, bir seçim edəcəklər. İndi mənim ssenarim olmadı, başqasının mətni qəbul edildi, fərq eləməz, əsas budur ki, aprel döyüşləri ilə bağlı film ya çəkiləcək, ya da çəkiləcək.

İntəhası, bizdə problem başqadır. Rusiyada filmləri iş adamlarına çəkdirirlər. Biznes adamları kino sənayesinə yaxşı maliyyə qoyurlar. Bu, Türkiyədə də, başqa ölkələrdə də var. Azərbaycanda kifayət qədər iş adamı var, kinoya vəsait ayırmaq imkanları mövcuddur. Vətənpərvərlik, müharibə haqda, tarixi şəxsiyyətlər barəsində filmlər çəkmirlər. Amma gedirlər ucuz, bayağı, şou xarakterli filmlərə maya qoyurlar, çəkilişinə dəstək verirlər. Bizdə gərək iş adamları müharibə, tarix haqqında filmləri çəkməyə kömək eləsinlər. Eyni zamanda Müdafiə Nazirliyi hərbi filmlər çəkə bilər. Kifayət qədər yaxşı mətnlər, ssenarilər var, nazirliyin də maliyyə imkanları daxilindədir. Yəni həmin filmləri araya-ərsəyə gətirməyə elə böyük bir pul tələb olunmur.

***- Aqil müəllim, amma deyirlər ki, "Dolu" uğurlu alınıb...***

- Azərbaycanda döyüş filmləri çoxdur. Amma "Dolu" onlar hamısından fərqləndi. Bu filmi Aqil Abbas yox, rejissor Elxan Cəfərov çəkib. Elə bilirəm ki, aprel müharibəsi barədə kinonu da Elxan yaxşı çəkə bilər. "Dolu"nun əvəzi olmayıb, olmayacaq.

Çünki döyüşlərin içində olmuşam, o ağrı-acıları keçirmişəm, mənim Qarabağda nəslim qırılıb. Düşmənin xislətinə də bələdəm, o dövrün hadisələrinin şahidiyəm. Sizcə, bu müsibətləri yaşayan bir yazıçı necə bir roman yazmalıydı?! Müharibəni görmüş, əzizlərini döyüşlərdə itirmiş, şəhid vermiş yazıçının qələmindən çıxan mətn fərqlənməlidir.

***- Sizcə, biz aprel savaşı haqda kino çəkməkdə gecikməmişik?***

- Mən ssenarini indi yazmamışam axı... Müharibədən sonra məndən ssenari istədilər, mən də yazdım verdim. Amma ermənilər bizdən qabağa düşüblər, artıq çəkiblər, dünyaya göstərməyə hazırlaşırlar. Çünki onlar "kasıb" adamlardır. Yaxşı, Aqil Abbasın ssenarisi pis idi, zəif alınmışdı, olsun, gedərdilər Ramiz Fətəliyevə deyərdilər, o yazardı. Həmçinin başqa gözəl ssenaristlər var, onlara tapşırardılar. Bu hadisələrdən üç il keçib. İndi soruşursan ki, biz niyə ermənilərdən gec qalmışıq. Həmişə belə olub da, biz həmişə ermənilərdən gec qalmışıq. Xoşumuza gəlməsə də, gərək bunu deyəsən.

***- Niyə onlar alman aktyor Rixard Zammeli, Nina Krongyaeri, Rusiya Milli Filarmonik Orkestrinin baş dirijoru Vladimir Spivakovun qızı Tatyana Spivakovanı aprel filminə çəkirlər, biz xaricdən dəvət etmirik?***

- Əvvəla, "Dolu" filmindəki aktyorlar xarici aktyorlardan da güclüdür. Rəhmətlik Fuad Poladov, Məmməd Səfa, Şamil Süleymanov kimi aktyorlar rol alıblar. İkincisi, biz də dünyanın hər yerindən aktyor gətirə bilərik. Pulun varsa, get, gətir. Məsələn, qazaxlar 17 seriyalı bir film çəkdilər, xaricdən aktyorlar gətirdilər. Bizdə də "Xoca"ya türk aktyor dəvət eləmişdilər.

***- Ermənilərin aprel döyüşü haqda filmi Los-Ancelesdə, Parisdə, Moskva nümayiş olunacaq. Biz nə vaxt Avropaya film çıxaracağıq?***

- Bizim "Dolu" filmi heç yerə aparılmadı. Dedilər ki, xarici festivallar müharibə istəmir. Amma Türkiyənin şəhərlərində filmin nümayişləri keçirilib. Moskvada, Sankt-Peterburqda səfir Polad Bülbüloğlunun təqdimatı ilə "Dolu" nümayiş olunub. Macarıstanda səfir Vilayət Quliyevin təqdimatı ilə göstərilib, Gürcüstanda SOCAR tərəfindən film göstərilib. Amma film festivallarına getmədi, döyüş səhnələri olan kino istəmədilər. Gəl gör ki, ermənilər böyük şəhərlərdə öz kinosunu nümayiş etdirəcəklər. Çünki xristiandırlar, ruslar, çexlər, almanlar filmin çəkilişinə maliyyə dəstəyi veriblər. Bizdə hansı türk aktyor gəlib aprel müharibəsi haqda filmdə pulsuz, qonorarsız oynayar? Sözümü qəribçiliyə salmasınlar, amma reallıqdır...

**❑ Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Etibar Məmmədovun siyasətə qayıdacağı barədə yeni iddialar

## Əli Orucov: "AMİP liderinin siyasətə fəal qayıtmasını səbirsizliklə gözləyirlər"



**Uzun zamandır "qeybə çəkilən" Azərbaycan Milli İstiqlal Partiyasının lideri Etibar Məmmədov siyasət dəhlizlərində görünməyə başlayıb. Bunu onun haqqında son günlərdə ardıcıl şəkildə mətbuatda gedən yazılarla izah etmək olar. Bu yazılar haqlı olaraq, "Etibar Məmmədov aktiv siyasətə qayıdır" başlığı ilə oxuculara təqdim olunmaqdadır.**

İlk olaraq, AMİP lideri barəsində o, 1990-cı ildə Bakıda məhkəmə zalından azadlığa buraxılarkən çəkilən yarım saatlıq video cəmiyyətə təqdim olundu. Ardınca isə müəllif yazıları E.Məmmədov haqqında yazılmağa başladı. Onun keçmişdəki fəaliyyəti demək olar nöqtədən vergülə qədər yazılmaqdadır. Hətta "ardı var"la təqdim olunur. Bu isə o anlama gəlir ki, AMİP lideri barəsində qarşıdakı zamanda yeni-yeni məqalələrə rast gələcəyik.

Onu da qeyd edək ki, AMİP-in özü də ciddi şəkildə fəallaşıb. Bir-birinin ardınca rayonlarda partiyanın yerli şöbələrinin iclasları keçirilir. Artıq indiyə qədər 40-a yaxın şöbədə iclaslar keçirilib və partiya funksionerləri sentyabr ayı ərzində 20-dən çox rayonda bu tipli iclaslar keçirməyi planlaşdırdıqlarını söyləyirlər. Bir sözlə, AMİP bu yay istirahət etməyib. Bu da haqlı olaraq bəzi iddialar meydana çıxarıb.

E.Məmmədovun geri dönüşünün təsadüf olmadığı vurğulanır. Onun Azərbaycan siyasətindəki boşluğu görüb, susqun dənizdə fırtına yaratmaq, ortamı ələ almaq üçün özü üzdə görünməsə də, altdan-altdan şuralara qayıtmaq niyyətinin olduğu qeyd edilir.

**AMİP katibi Əli Orucov "Yeni Müsavat"da iddialara bu cür cavab verdi:** "Etibar Məmmədovun mətbuatda səsləndirdiyi fikirlər həmişə gündəm olub. Onun kiçik bir açıqlaması ciddi müzakirələrə yol açır. Bu da təsadüfi deyil. Çünki Etibar bəy hərəkatdan gələn böyük siyasi təcrübəyə malik dünya miqyasında tanınmış siyasətçidir. Onunla bağlı mətbuatda son günlər dərc olunan materiallara gəlincə isə göründüyü kimi, bütün bunların hamısı müəllif yazılarıdır. Hər bir yazar, hər bir jurnalist də mövzu seçimində sərbəstdir. Təcrübəli yazarlar da həmişə gündəm yaradan mövzulara diqqət yetirirlər. Etibar Məmmədovun keçdiyi ömür və siyasi mübarizə yolu, göstərdiyi fəaliyyət və gördüyü işlər həmişə aktuallığını saxlamaqdadır. Onun siyasətə qayıtması cəmiyyətin böyük kəsiminin istək və arzusudur. Və getdikcə də onun yenidən aktiv siyasətə qayıtmasını istəyən insanların sayı günü-gündən artmaqdadır. İstər ziyalılar olsun, istər sıravi Azərbaycan vətəndaşları Etibar Məmmədovun siyasətə fəal qayıtmasını səbirsizliklə gözləyirlər. Lakin onun hansı addımı atacağı barədə nəsə demək çətindir. Çünki bu, birbaşa Etibar bəyin şəxsi iradəsinə bağlı olan haldır. Müşahidələrim ondan ibarətdir ki, bu cür çağırış, istək və tələblər daha tez-tez və ucadan eşidilməkdədir. Mən iddia etmirəm ki, Etibar Məmmədov bütünlükdə siyasətdən çəkilib. Sizin də izlədiyiniz kimi, ölkədə gedən prosesləri diqqətlə izləyir və lazımi məqamlarda hadisələrə öz münasibətini bildirir. "Millət" qəzetindəki məqalələrə gəlincə, bu materiallar başqa informasiya resurslarında, saytlarda getmiş materiallardır və qəzetdə də mənbəyə istinad edilməklə dərc olunub. Onu da qeyd edim ki, Etibar Məmmədov AMİP-in fəxri lideri kimi partiyanın fəaliyyətinə heç bir müdaxilə etmir və partiya qərarlarını sərbəst verir. Partiyada təməlindən qoyulmuş demokratik mühit var və bu da davam edəcək. Mən Etibar bəyin yaxın vaxtlarda aktiv siyasətə qayıdacağı ilə bağlı fikirlərinə rast gəlməmişəm".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 179 (7349) 30 avqust 2019

# Seçki yoxdur, amma müxalifətdə "mandat alveri" ittihamları başlayıb

## Tural Abbaslı: "Kimin doğru, kimin yanlış yolda olmasına qiymәti zaman verәcәk"

**Hazırda ölkədə parlament seçkiləri gündəmdə deyil. Amma bəzi müxalifət partiyalarının üzvləri sosial şəbəkədə bir-birinə qarşı mandat ittihamı irəli sürürlər, bir-birilərini seçkidə mandat payı almağa hazırlaşmaqda suçlayırlar. AXCP fəalları REAL Partiyasını, AĞ Partiyanı və digərlərini seçkiyə gedib hakimiyyətlə mandat sövdələşməsi aparmağa hazırlaşmaqda ittiham edirlər.**

Azərbaycan siyasətində bu vəziyyət yeni deyil. Mandat ittihamları hələ 1995-ci ildən mövcud olub. Həmin ilin 12 noyabrında keçirilən parlament seçkilərində Əli Kərimlinin və bir neçə AXCP funksionerinin deputat mandatı əldə etməsi hələ də "Mandat alverinin nəticəsi" olaraq təqdim edilir.

Bəziləri isə iddia edir ki, 1995-ci il parlament seçkilərində Əli Kərimli və 4-5 nəfər tərəfdarının parlamentdə yer alması bu prosesin əsasını qoyub.

**AĞ Partiyanın sədri Tural Abbaslı** "Yeni Müsavat"a bildirdi ki, müxalifət daxilində belə sərt mübarizənin və bəlkə də savaşın getməsi çox təəssüfləndirici haldır: "Mən sağlam, məntiqli və arqumentləşdirilmiş tənqidlərin qəti əleyhinə deyiləm. Əksinə, belə tənqidlərin müsbət təsirlərinə inanan biriyəm. Həmçinin onu da qəbul edir və anlayıram ki, iqtidarda, ya müxalifətdə təmsil olunmasından asılı olmayaraq, istənilən siyasi partiya digər bir siyasi partiyanın potensial rəqibidir. Bəzən bu rəqabətdən də irəli gələn tənqid və mübarizə anlaşılandır. Ancaq təəssüflə qeyd etməliyəm ki, hazırda müxalifətin özü arasında aparılan mübarizə və siyasi savaş heç hakimiyyətlə aparılmır. Təbiidir ki, belə bir vəziyyət ilk növbədə hazırkı iqtidara sərf edir. Onlar da öz növbələrində mütəmadi olaraq müxalifətdaxili belə savaşların qızışmasına və kəskinləşməsinə bu və ya digər formada dəstək verirlər. "Mandat alveri" mövzusu da bu qəbildəndir. Çünki hələ ortalıqda real heç bir parlament seçkilərindən söhbət getmədiyi bir halda bəzi partiyalar bir-birilərini mandata satılmaqda, deputatı mandatı sövdələşməsində iştirakda, separat danışıqlarda ittiham edir".



**T.Abbaslının sözlərinə görə, əslində çox da uzaq olmayan siyasi tarixə baxsaq görərik ki, bu gün kimlərisə ehtimal xəyanətdə, sövdələşmədə ittiham edənlər zamanında bu hərəkətləri özləri daha biabırçı tərzdə edib:** "Odur ki, mən siyasətin kimlərinsə mövqelərinə görə qurulmasının əleyhinəyəm. Kimlərsə öz trol dəstələri ilə saxta ictimai rəy yaratmağa çalışacaq və bizi də buna boyun əyməyə məcbur edəcəklərini düşünürlərsə, yanılırlar. AĞ Partiya olaraq biz digər heç bir partiyanın atdığı addımları, verdiyi qərarları təftiş etmirik və buna vaxt ayırmırıq. Hər bir partiya qərarını özünün rəhbərliyindəki şəxslərin qərarı ilə verir və onun nəticələrinə hazır olur. Biz kimsəni təftiş etmirik və kimsənin də bizi təftiş etməsinə imkan vermirik. Hər kəs doğru bildiyi yolla getməlidir. Kimin doğru, kimin yanlış yolda olmasına qiymət zaman və Azərbaycan xalqı verəcək. Biz Azərbaycanda yalnız və yalnız bir qüvvə ilə hesablaşmışıq, bundan sonra da o qüvvə ilə hesablaşacağıq. Bu, Azərbaycan xalqıdır. Digər partiya və siyasi qurulușlara da tövsiyyəm odur ki, "mandat alveri" kimi köhnə, dedi-qodu səviyyəli polemikalara qoşulmasınlar və vaxtlarını israf etməsinlər. Hər kəs ortaya güc və siyasi iradə qoymalı, nəticəsini də xalqdan gözləməlidir".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Putinin kanalı Paşinyanı sərt "vurdu"

**Rusiyanın dövlət kanalı "Rossiya 24"də Ermənistanın baş naziri Nikol Paşinyanın ünvanına sərt ifadələrlə dolu süjet yayımlanıb.**

Həmin süjetdə Ermənistanın sabiq prezidenti Robert Köçəryanın həbsi pislənilib. Eyni zamanda erməni baş nazir Paşinyann məhkəmələrdəki islahatları da hədəfə alınıb.

Hər zaman Rusiyaya yaxınlığı ilə seçilən "Qarabağ klanı"nın lideri Köçəryanla bağlı Kremlin mövqeyini haradasa başa düşmək olar. Lakin Ermənistandakı məhkəmə islahatlarının pislənilməsi heç şübhəsiz ki, Paşinyanın islahatlarına kölgə salmağa daha çox hesablanıb.





## Elxan Şahinoğlu: "Rusiya indidən xəbərdarlıq edir ki, cızığından çıxmasın"
## Əhəd Məmmədli: "Kreml Paşinyanın devrilməsi düyməsini basıb"

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Paşinyanın "vurulması"nı təsadüf saymır:** "Rusiya hakimiyyəti Paşinyanı nəzarətdə saxlamaq istəyir. Ermənistanda baş nazirin müstəqil olmasını Rusiya qəbul etmir. Bunu anlamaq olar. Çünki Ermənistan tamamən Rusiyadan asılıdır, sərhədlərini şimal qonşumuz qoruyur, bazaları oradadır, qazını Kreml verir. Bu baxımdan Rusiya Ermənistanda hansısa bir şəxsin müstəqil baş nazir olmasına niyə dözməlidir? Ona görə çalışır ki, təsir vasitəsilə Paşinyanı Rusiyanın tam nəzarəti altına alsın. Açığı, Paşinyanın özü də hələ ki Rusiya əleyhinə elə bir ciddi addım da atmayıb. Amma bəzən oyun da oynayır. Qərbə doğru müəyyən mesajlar verir. Sentyabr ayında da Amerikaya gedəcək. Çalışacaq ki, ABŞ prezidenti ilə görüşsün. Ola bilər ki, Rusiya indidən xəbərdarlıq edir ki, cızığından çıxma. Bu səbəbdən rus kanalında bu cür fikirlər səslənə bilər. Məsələnin digər tərəfi odur ki, gələn il qondarma rejimdə prezident seçkiləri keçiriləcək. Paşinyan çalışır ki, orada öz adamını otuzdursun. Rusiya isə bu məsələdə "Qarabağ klanı"na dəstək verir. Bu klan əgər Paşinyanın mövqelərinin zəiflməsindən istifadə edərək ona qarşı təzyiqləri artırsa, düşünürəm ki, Rusiya bu məsələdə "Qarabağ klanı"na dəstək verir. Rusiyadakı qüvvələr də istəyir ki, Qarabağdakı "hakimiyyət" Paşinyanın deyil, "Qarabağ klanı"nın nəzarətində olsun".

**Politoloq Əhəd Məmmədli Paşinyanın çıxılmaz durumda olduğunu söylədi:** "Rusiyanın federal kanallarında bu cür açıqlamaların getməsində təəccüblü heç nə yoxdur. Köçəryan Putinin şəxsi dostudur və onu Paşinyan iki dəfə həbs etdirib. Putinin xahişinə rəğmən Paşinyan Köçəryanı azadlığa buraxmadı. Təbii ki, bu cür gedişatlar rusları qəzəbləndirməyə bilməzdi. Ümumiyyətlə, son dövrlər söz-söhbət gedir ki, Kreml Paşinyanın devrilməsi düyməsini basıb. "Rossiya 24" kanalındakı həmin veriliş də Paşinyanın vurulmasının tərkib hissəsi ola bilər. Paşinyanın heç bir devrilmə planı olmasa da, ən azı bu cür proqramlar Moskvanın İrəvana xəbərdarlığıdır. Bununla Kreml kiçik dağ ölkəsinə söyləmək istəyir ki, hövsələmizi daraltmayın, dediyimizi edin. Paşinyan iki stulda oturmaq istəyir. Rus ayısını qəzəbləndirmədən onun dostlarını yolundan təmizləmək istəyir. Bunun sona qədər Paşinyanda alınacağına inanmıram. Çünki belə olan halda Rusiya yerlərdə etibarını itirəcək. Ona görə Rusiya çalışacaq ki, sona qədər adamlarını qorusun. Bu onlarda alınmasa, Moskva daha sərt hərəkətlərə keçəcək. Bax belə olan halda Paşinyanın devrilmə planı işə keçə bilər. Azərbaycan da artıq başlayan bu proseslərdən maksimum uduşlu çıxıb, Qarabağı qaytarmağa müvəffəq olmalıdır. Paşinyanı hələ vurmurlar, ona xəbərdarlıq mesajları göndərirlər. Xəbərdarlıq edirlər ki, Rusiyaya sadiq adamların ovundan əl çək, əks halda, səninlə başqa dildə danışmağa məcbur olacağıq. Bu xəbərdarlıqlara Paşinyan uyacaqsa, xalq arasında etibarını itirəcək. Axı o, xalqına söz vermişdi ki, ölkəsini rus əsarətindən tam qurtarıb, köhnə korrupsiyalaşmış Moskvadan idarə olunan klanı da qanun qarşısında cəzalandıracaq. Ermənilər Paşinyandan bunları gözləyirlər. Bunları da etmək Paşinyan üçün özünə və ölkəsinə ölüm hökmünü oxumaq kimi bir şeydir. Moskvadan tam qurtulmaq üçün gərək rus əsgərini son adamına qədər Ermənistandan çıxarasan. Buna da nə Paşinyan, nə də başqa erməni rəhbəri getməz. Bu addımı ermənilərin cəsarət edib atması üçün minimum Putin rejimi Rusiyada devrilməlidir. Ən azından bu olmayana qədər Ermənistanın rus əsarətindən qurtulmasından söz gedə bilməz. Bunun əvəzində verdiyi vədlərə xilaf çıxmamaq üçün Paşinyan rusyönümlü Qarabağ klanını zəifləməklə məşğuldur. Bu da ən azı Qarabağda ciddi müqavimətlə rastlaşılır və İrəvan-Xankəndi qarşıdurmasına gətirib çıxarır. İrəvan-Xankəndi qarşıdurması dərinləşib, geridönməzə gəlib çıxarsa, Qarabağ "könüllü" olaraq Rusiyaya ilhaq oluna bilər. Rusiya tərəfindən bu cür prosedurlar postsovet məkanında uğurla həyata keçirilib. Bu isə nəinki Ermənistan, Azərbaycan üçün də birdəfəlik Qarabağın itirilməsi deməkdir. Baxın, Paşinyan belə bir çıxılmaz vəziyyətdədir. Əslində Ermənistan özünü belə çıxılmaz vəziyyətə salıb. Ermənistanın Rusiyadan bir qurtulmaq yolu var, o da Qarabağdan imtina etməsidir. Buna da ermənilər könüllü yolla getməyəcəklər. Ermənilər xalq olaraq kiminsə himayəsi altında yaşamağa öyrəniblər. Osmanlıda olduğu kimi gərək əvvəlki himayədar zəifləsin ki, ermənilər yeni himayədar axtarsınlar. Rusiya zəifləməyənə qədər hər erməni iqtidarı bu ölkənin ətəyindən bərk-bərk yapışmağa məhkumdur".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# Hacı Qalibdən torpaq zəbt etməsi iddialarına reaksiya

## "Mәnә qarşı vicdansızlıq edirlәr..."

**Sabiq deputat Qalib Salahzadə Bilgəhdə çoxsaylı vətəndaşların torpaqlarını zəbt etməsi barədə iddialara reaksiya verib. "Kimsə deyir ki, Bilgəhdə Aslan Salahzadə küçəsi, döngə 21, ev 1-də yerləşən torpağı və mülkü Qalib Salahzadə tərəfindən zəbt olunub. Bir müraciət edin, görün, ümumiyyətlə, belə bir ünvan varmı? Mənə qarşı vicdansızlıq edirlər. Mən hər il Həcc ziyarətində olan adamam. Hər il də Həcc ziyarətinə nə qədər adam yollayıram. Bu zamana qədər 500 adama yardım etmişəm, onlar da Həccə gedib. Görün, indi mənim barəmdə nələr yazırlar?!" Sabiq deputat Oxu.az-a açıqlamasında belə deyib.**

Hətta Qalib Salahzadə həmin şəxslərin mətbuata müraciət etməsinə təəccübləndiyini dilə gətirib: "Kiminsə şikayəti varsa, polisə, prokurorluğa müraciət etməlidir. Vallah, mən bilmirəm ki, niyə mətbuata müraciət edirlər. Ölkədə qanun var, məhkəmələr var. Məgər mətbuat polisdir, məhkəmədir?!"

Yada salaq ki, avqustun 27-də bir qrup şikayətçi Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyətində mətbuat konfransı keçirib. Həmin konfransda cəmiyyətin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu deyib ki, Qalib Salahzadənin Bilgəhdəki qanunsuzluqlarına son qoyulmalıdır: "10-larla vətəndaş cəmiyyətə müraciətlər edərək bildirir ki, Qalib Salahzadə Bilgəhdə onların torpağını zəbt edib. Axı bu adam kimdir? Niyə onun barəsində qanuni tədbir görülmür? Adının qarşısında hacı titulu olan bu şəxs böyük haqsızlıqlar edir, qanunlara məhəl qoymur. Vətəndaşlar məhkəmələrdə qalıb. İş burasındadır ki, məhkəmə qərarları da icra olunmur. Hacı Qaliblə bağlı vətəndaşların əllərində onlarla məhkəmə qərarları var, amma baxan yoxdur".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı da bildirib ki, hüquq-mühafizə orqanlarına baş verən qanunsuzluqla bağlı müraciət olunacaq:** "Hacı Qalib vətəndaş Seymur Quliyevin, Nurid Əliyevin, 28 nəfər "Posat" kooperativi üzvlərinin və onlarla digər şəxsin torpaqlarını zəbt edib, evlərini darmadağın edib. Məhkəmələr bu haqda qərarlar veriblər. Hacı Qalib isə torpaqları zəbt altında saxlamaqdadır. Vətəndaşlar dövlətdən kömək istəyir".

Tədbirdə iştirak edən zərərçəkənlərdən biri Seymur Quliyev Bilgəh qəsəbəsində, Bilgəh sanatoriyası və məşhur "Amburan" istirahət mərkəzinin yaxınlığında yerləşən özəl əmlakının Hacı Qalib Salahzadə tərəfindən darmadağın olunduğunu bildirib. Ümumiyyətlə isə Qalib Salahzadənin Bilgəhdə torpaqları zəbt etməsi ilə bağlı bu gün də məhkəmələrdə müxtəlif vətəndaşların iddiaları var.

❑ **E.HÜSEYNOV, "Yeni Müsavat"**

Yeni Müsavat
N 179 (7349) 30 avqust 2019

# “Arxiv açılsa, çox adamın başına çox iş gələcək”

## Siyavuş Novruzov: “Mən qorxaq adam deyiləm, qorxsaydım, çoxdan kənara çəkilərdim”

**“Baxış bucağı”**

**Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov “Yeni Müsavat”a geniş müsahibə verib. Hakim partiyanın funksioneri gündəmdəki bir sıra aktual məsələlərdən, o cümlədən facebook sosial şəbəkəsinə gəlişindən danışdı, ilginc fikirlər söylədi.**

***- Siyavuş bəy, Məhərrəmlik ərəfəsində danışırıq. Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri olaraq Məhərrəmliklə bağlı nə kimi tövsiyələriniz var?***

- Biz Dini Komitə və Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə yerlərdə görüşlər keçiririk. Görüşlər əsasən ona həsr olunub ki, Məhərrəmlik ayı qan tökülən ay deyil. Ümumiyyətlə, bu ayda qan tökmək olmaz! Vaxtilə səhv ediblər, Məhərrəm ayında İmamızı qətlə yetiriblər. Ona görə də İslam tarixində bu ay ən müqəddəs aylardan biri hesab olunur. Biz insanlara düzgün istiqamətdə hərəkət etməyi tövsiyə edirik. Məsələn, qanvermə aksiyası keçirmək olar. YAP özü də sentyabrın 6-da qanvermə aksiyası keçirəcək. Bundan əlavə, aztəminatlı ailələrə, ehtiyacı olan insanlara ehsanlar verilə bilər. Özünü döymək, zəncir vurmaq, baş yarmaq İslama zidd hərəkətlərdir.

***- Matəm ayının iki ay davam etməsi ilə bağlı bəzən fərqli fikirlər səslənir. Müasir dövrdə ayrı-ayrı mərasimlərin keçirilməsi ilə əlaqədar olaraq dini komitənin təklifləri ola bilərmi?***

- Yox, indi bu, bir ənənədir də. 40 gün yasdır, 10 gün əvvəl, 10 gün də Səfər ayı olduğu üçün matəm saxlanılır. Azərbaycanda qədimdən indiyədək bu ənənə formalaşıb ki, bu vaxtda toy, nişan, digər mərasimlər həyata keçirmək olmaz. Bu ənənə artıq insanların düşüncəsində formalaşıb. Sonra pis bir hadisə baş verər, kimsə düşünər ki, mən Məhərrəmlikdə toy elədim, ona görə oldu. Ancaq ümumilikdə Peyğəmbərimizə cəmi 3 gün yas saxlanılıb. Heç kəs Peyğəmbərdən artıq deyil.

***-Uşaq pulunun bərpası ilə bağlı qərar veriləcəyi barədə mətbuatda açıqlamanızı oxudum. Deməli, bununla bağlı payız sessiyasında qərar veriləcək?***

- Hazırda müzakirə aparırıq, xarici ölkələrin təcrübəsini öyrənirik. Bu, dünyada, həmçinin postsovet məkanında necədir və sair...Tutaq ki, hər uşağa 30 manat pul verirsən, əslində bunu verməsən, daha yaxşı olar. Elə bir variant seçməliyik ki, valideynin üstündən yük götürülsün. Məsələn, uşağın məktəb ləvazimatı, digər məsələləri, qidalanması var, gərək pul ona çatsın. Həm də elə olmalıdır ki, dövlətin bu vəsaiti ayırmağa gücü çatsın. Hər şey qaydalar çərçivəsində olmalıdır.

***- Uşaq pulu hansı yaşda uşaqları əhatə edəcək, bununla bağlı ortaq məxrəcə gəlinibmi?***

- Hələlik müzakirələr gedir. Özü də çox ciddi şəkildə...

***- Son zamanlardan iş adamı olan deputatlardan çox yazılır, sərvətləri açıqlanır. Hesab olunur ki, növbəti çağırışda artıq onları parlamentdə görməyəcəyik. Hakim partiyanın rəhbər şəxsi olaraq bu barədə nə deyə bilərsiniz?***

- Bilirsiniz, burada fərdi yanaşma olmalıdır. Məsələn, insan var ki, vaxtilə biznes sahəsində işləyib, iş qurub, sonra gəlib seçilib, indi bunun günahı nədir? O şəxs parlament səlahiyyətlərindən istifadə edib biznesini qurmayıb ki... Bizdə məsələyə ümumi yanaşma tərzi düz deyil. Əgər bu adam deputat səlahiyyətlərindən istifadə edib belə bir iş görürsə, təbii ki, qanunsuzdur. Amma deputat olana qədər bu adamları atıbsa, bu, başqa məsələdir. Götürək elə Amerika nümunəsini, öz biznesini yaradanlar sonradan hər bir yerə seçilirdilər. Kimsə onlara bir söz deyirdi? Yox.

***- Maraqlıdır, imkanlı deputatların hakim partiyaya maliyyə dəstəyi olurmu?***

- Xeyr. Hakim partiya ancaq üzvlük haqları ilə, bir də dövlət büdcəsindən ayrılan vəsait hesabına öz işini qurur. Biz heç vaxt ianə toplamırıq.

***- Bu günə qədər olan məlumata görə, növbəti parlament seçkiləri 2020-ci ildə keçiriləcək. Yeni tərkib barədə partiyada fikirlər varmı?***

- Təhlillər aparılır. Bu məsələlər hamısı bir-bir araşdırılır. Özü də bir günü yox, beş illik müddəti araşdırırıq. Parlamentdəki fəaliyyət, beynəlxalq təşkilatlardakı fəaliyyət, seçicilərlə gördüyü iş, çıxışlar, davranış və sairin təhlili gedir.

***- Hakim partiyanın üzvü olan 68 deputatın neçəsi növbəti tərkibdə yer ala biləcək, bu, təxmini də olsa, məlumdurmu?***

- Yenə deyirəm, təhlillər gedir. Həm də qərarı mən vermirəm, partiyanın sədri verir.

***- Siyavuş bəy, facebook sosial şəbəkəsinə gəlişiniz maraqla qarşılandı, müzakirələrə səbəb oldu. Bu gəliş hansı zərurətdən irəli gəldi?***

- Zərurət ondan ibarətdir ki... Məsələn, bir neçə qəzeti çıxmaq şərtilə... İndi siz peşəkarsınız, neçə illərdir biz danışırıq, yazırıq, olan şeylər düzgün çatdırılır. Amma elə jurnalist var ki, sən dediyin fikir qalır kənarda, özünə sərf eləyəni götürüb çapa verir. Yaxud müəyyən bir fikri ortadan çıxarır, dərc edir. Yəni əvvəl axırla üst-üstə düşmür. Bu mənada insanlara özün öz fikrini çatdıranda daha yaxşı olur.

***- Deməli, siz vətəndaşlarla birbaşa ünsiyyətdə olmaq istədiniz, eləmi?***

- Bəli.

***- Dostluğunuzda neçə nəfər var?***

- İndi gəlirlər də yavaş-yavaş.

***- Maraqlıdır, sizin dostluğunuzda müxalifət liderləri, məsələn, İsa Qəmbər, Əli Kərimli, digərləri ola bilərmi?***

- Bilmirəm. Hələ təzə başlamışıq. Qoy siftə eləyək, görək necə olur. (Gülür)

***- Bəs siz onlarla dostluğu mümkün sayırsınızmı?***

- O baxır vəziyyətə.

***- Sosial şəbəkələrdə bir sıra hallarda sərt polemikalar, həmçinin əndazəni keçən şərhlər olur. Belələri ilə rastlaşırsınız?***

- Söyüş yazan, başqasının adı altında təhqir edən var. Mən elə şeylərə əhəmiyyət vermirəm. Düz adam yazar, adın, familiyasını qeyd edər, telefon nömrəsini qoyar. Filmdə deyildiyi kimi, yazırsansa, yaz, altından da imzanı qoy! (Gülür) Yoxsa başqa məsələlər əhəmiyyətsiz şeylərdir. Mənim gizlində oyun oynamaqla heç vaxt aram olmayıb, bundan sonra da olmayacaq.

***- Bəs sizə qarşı həqarət edənləri dostluğunuzda saxlayacaqsınız?***

- Yox! Elə adamla dost olmaq olar?

***- Son günlər Sorosla bağlı yeni məlumatlar yayılmaqdadır. Dünya ölkələrini vaxtaşırı çalxalayan bu təşkilatla bağlı Azərbaycanda narahatlıq varmı?***

- Yox. Azərbaycanda belə bir şey yoxdur. Azərbaycanda xalqla iqtidar bir yerdədir. Cənab prezidentin apardığı siyasət əhali tərəfindən dəstəklənir. Sosial sahə, digər sahələrlə bağlı, pensiyaların, əmək haqlarının artırılması, insanların güzəranının yaxşılaşdırılması ilə əlaqədar olaraq vaxtaşırı sərəncamlar verilir. Azərbaycan artıq postsovet məkanında pensiya, orta aylıq əmək haqqına və minimum əmək haqqına görə birinci yerdə gedir. Ona görə də Azərbaycan bütün sahələrdə, istər sənaye, istər kənd təsərrüfatı sahəsində inkişaf etməkdədir. Təbii ki, bizi gözü götürməyən qüvvələr nəsə etməyə çalışırlar. Amma Azərbaycanda güclü, oturuşmuş dövlət var, tam şəkildə bütün məsələlərə nəzarət edilir.

***- Siyavuş bəy, bugünlərdə Türkiyədə YAP - Yaşam və Ədalət Partiyası yaradıldı. Bu xəbəri necə qarşıladınız?***

- Onlar yaradıb. Amma bizimki başqa YAP-dır, onlarınkı başqa.

***- Son zamanlar “KQB” arxivlərinin açılması ilə bağlı təkliflər yenidən eşidilir. Hakim partiyanın bununla bağlı mövqeyi necədir?***

- Mən hesab edirəm ki, o məsələlər yersizdir. Vaxtilə olub da. İndi də bu proses gedir. Hər bir adam dövlətinə xidmət etməlidir də. Dövlətə xidmət edən adamlardan ola bilər ki, kiminsə adı oradadır. Bu şeylər mənasızdır, arxivlər açılsın, nə bilim nə... Arxiv açılsa, çox adamın başına çox iş gələcək.

***- Belə iddialar da var ki, Azərbaycanın yüzlərlə vətəndaşı Rusiyadan maaş alır...***

- Təbii ki, bu, indi də var, gələcəkdə də olacaq. Sonrakı dövrlərdə də baş verəcək. Təkcə Rusiyadan yox, digər ətraf ölkələrdə var. Bunlar hamısı olan işdir. Onlar nələrsə etməyə çalışırlar. Bizimkilər də çalışır ki, bunun qarşısını alsın.

***-Siyavuş bəy, facebook statusunuzdan oxudum ki, sizin ünvanınıza həqarətli fikirlər yazanlara da xitab etmisiniz...***

- Yenə də söyüşü davam etdidirlər. Bu, bisavad adamların işidir də. Söyüm, qurtarsın getsin. Məni söyməklə sakitləşəcəksənsə, onda söy! Amma beləsinə demək istəyirəm ki, bu yollarla məni qıcıqlandıra bilməzsən, yolumdan döndərə bilməzsən!

***- Təhqirlər sizi facebooka uzaqlaşdıra bilərmi?***

- Qəti şəkildə! Mən qorxaq adam deyiləm. Mən iki müharibə veteranıyam. Qorxsaydım, çoxdan kənara çəkilərdim. Mən Heydər Əliyevin yanında böyümüşəm, onun tərbiyəsini almışam, yanında inkişaf eləmişəm. Yəni elə şeylər məni qorxuda bilməz. Özü də bir olan Allaha and içirəm, bunları kimin yazdığını da bilirəm.

***- Yəni başqa adlar altında yazırlar?***

- Bəli.

***- Sizin facebook gəlişinizdən sonra müxalif fikirli bəzi şəxslər yazdılar ki, vaxtilə Siyavuş Novruzov sosial şəbəkədə avaraların yığışdığını deyirdi, indi özü bura gəldi...***

- Mən elə söz ömründə deməmişəm. Mən yuxarıda da gəlişimin məqsədini söylədim. Müəyyən məsələlərlə bağlı mənə müraciət olunur və mən də birbaşa cavablandırdım. Virtual ünsiyyətdən söhbət gedir. Birinə müsahibə verirsən, götürür yarısını kəsib tullayır, yarısını təhrif edir. Mən parlamentdə çıxış edirəm, sonra bəzi mətbuat orqanlarını oxuyanda deyirəm ki, axı mən belə çıxış eləməmişəm, bu, nə yazıb? (Gülür) Hər şey düz olmalıdır. Düz bütün əyriləri kəsir.

***- Bəzi deputat həmkarlarınız hələ də facebook qəbul etmək istəmir. Siz sosial şəbəkələrdən uzaq dayanan deputatların da burada olmasını istərdinizmi?***

- Kimin batıq yeri yoxdursa, üzr istəyirəm, çıxsın xalqın qarşısına cavab versin. Əsas məsələ budur. Batıq yerin yoxdursa, çıx camaatın qabağına!

- Bəziləri nədənsə görünməməyə üstünlük verir. Çalışır ki, nə kiməsə danışsın, nə də kimsə ondan bəhs eləsin. Mən iki məsələyə heç vaxt qarışmamışam: ailə-uşaq məsələlərinə, bir də başqasının seçiminə.

***- Gələcəkdə Youtube kanalı açmaq, canlı yayıma çıxmaq planınız yoxdur ki?***

- Youtube-də YAP-ın kanalı var da. Yutub-a mən nəyə çıxım, artist deyiləm ki. (Gülür) Fikirlərimi camaatla bölüşürəm də.

***- Siyavuş bəy, dini komitənin sədri olaraq QMİ-nin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadəni təbrik etdinizmi?***

- Bəli, Şeyxlə danışdım, özü də ilk təbrik edənlərdən biri mən oldum. Doğrudan Şeyx böyük insandır, çox böyük işlər görür. Mən dəfələrlə onunla xarici səfərlərdə olmuşam. Sizə bir şeyi deyim, onun xristian dünyasında hörməti müsəlman dünyasından daha artıqdır.

***- Şeyxə yubiley hədiyyəniz nə oldu?***

- Təbrik elədim. Şeyxə nə hədiyyə etmək olar ki? O, Şeyxdir... (Gülür)

❑ **Elşad PAŞASOY, “Yeni Müsavat”**



**“Uşaq pulunun bərpası ilə bağlı hələlik müzakirələr gedir, özü də çox ciddi şəkildə”**

YENİ MÜSAVAT
N 179(7349) 30 avqust 2019



# Uy(u)muş problem

**Xalid KAZIMLI**

**Elə bir gün olmaz ki, narkotik maddələrlə bağlı ən azı üç (bəzən altı-yeddi) xəbər gəlməsin. Bu xəbərlər müxtəlif strukturlardan gəlir - gömrükdən, DİN-dən, Penitensiar Xidmətdən.**

Həmin məlumatlar əsasən rayon yerlərində əkin sahələrində, həyətlərdə, evdəki dibçəkdə narkotik bitkilər becərənlərə, qurudub satanlara, narkotik maddəni "tanımadığı adamdan şəxsi istehlak üçün" alanlara, sərhəddən düz bağırsağında heorin, kokain keçirənlərə, külli miqdarda narkotik maddəni başqasına satarkən "ilişənlər"ə, cəza müəssisində olan əzizinə çörəyin içində narkotik vasitə keçirməyə çalışanlara dairdir.

Sonuncu əməl daha rüsvayçı və faciəvidir. Onsuz da bir üzvü türmədə yatan ailənin digər üzvü (bu, əksər halda, adamın anası, bacısı və ya həyat yoldaşı olur) də narkotik maddə qurbanına çevrilir. Onları bu əmələ həbsdəki yaxınları vadar edir, özlərinin həyatlarını korladıqları bəs etmirmiş ki, ailəni tamamən məhv edirlər.

Elə bir rayon yoxdur ki, orada narkotik maddələr becərilməsin. Narkotik maddələrin alınıb-satılmadığı rayon da yoxdur. Müxtəlif narkotik maddələrin istifadə olunmadığı yaşayış məntəqəsi də tapmaq mümkün deyil.

Həbsxanalarada cəza çəkən məhkumların bir xeylisi məhz narkotik maddələrin saxlanması, becərilməsi, alqı-satqısı üstündə mühakimə olunanlardır.

Yəqin ki, ya tədbirli davrandığı, ya da himayəsi güclü olduğundan hüquq-mühafizə orqanlarına yaxalanmayan narkotik maddə alverçiləri də çoxdur.

Bir ara baş nazirin müavini Əli Həsənov media qarşısında verdiyi açıqlamada bəzi yüksək vəzifəli şəxslərin övladlarının bir xeylisinin narkoman olduğundan danışırdı. Onun əlində real faktlar vardı. Çünki narkotik maddələrə qarşı komissiyanın sədri idi.

Ancaq bu söhbət çox da yoğunlamadı, dərinləşdirilmədi. Əgər "övladlar" kütləvi şəkildə narkotik istifadə edirlərsə, bu o demək idi, onlar o "zəhəri" bir yerdən alırlar. Təəssüf ki, nə həmin "narkoman övlad"ların adı açıqlandı, nə də kimsə cəzalandırıldı. Hər halda hər gün üstündə, evində narkotik maddə tapılan şəxslərin içində tanınmış ad-soyad yoxdur. "İlişənlər" kasıb-kusubun uşağıdır.

Bu mövzu hazırda ölkəmizdə o qədər də aktual deyil, gündəmə oturmayıb, müzakirə olunmur. Amma bu, ciddi bir sosial bəladır, eyni zamanda kriminal problemdir. Ölkəmiz get-gedə narkotik maddələr yuvasına çevrilir.

Məlum olduğu kimi, narkotik maddə istehsalı üçün lazımlı olan bitkilərin əkilib-becərilməsi ilə dolanan Əfqanıstan, Kolumbiya, Boliviya kimi ölkələrlə yanaşı, narkotik maddələrin tranzitindən milyardalar qazanan Venesuela, Meksika kimi ölkələr də var. Bir də narkotik maddələrin geniş miqyasda realizə olunduğu ölkələr mövcuddur - ABŞ, Rusiya, Kanada, Almaniya, Hollandiya, İtaliya, İspaniya və s.

Azərbaycan narkotik maddələrin həm istehsal, həm tranzit, həm də realizə olunduğu ölkədir, sadəcə, miqyas kiçikdir.

Təhlükə isə böyükdür. Nə qədər özümüzü aldatsaq da, ciddi bir şey yoxmuş kimi göstərsək də, fakt faktlığında qalır - narkotik maddə qəbulu zamanı dozanı aşıb ölənlərin və narkotik maddələrlə tutulanların statistikası göstərir ki, bu uyumuş problemdir.

Bütün ölkələrdə narkomaniyaya və narkotik qaçaqmalçılığına qarşı ciddi mübarizə aparılır. Bəzi ölkələr narkomaniyaya qarşı mübarizədə başqa yol seçir, marixuana kimi narkotik tərkibli bitkilərin (Hollandiya, Boliviya, Kanada və s.) becərilməsini leqallaşdırırlar. Bəzi dövlətlər isə narkotik maddə alverinə görə ölüm cəzası (İran) tətbiq edirlər, ancaq bunların heç biri effektiv nəticə vermir.

Bu, elə bir industriyadır ki, onun dövriyyəsində milyardlar dollar həcmində vəsait dolanır. Külli miqdarda qazanc olan sahələr isə bir qayda olaraq, inhisara götürülür. Ayrı-ayrı ölkələrdə (Kolumbiya, Əfqanıstan, Meksika) narkomafiyalar o qədər güclüdür ki, dövlətə belə meydan oxuyurlar.

Demək, narkomafiyaları beşiyindəcə boğmaq lazımdır - çünki həm cəmiyyəti təhdid edirlər, həm də dövləti, hətta bəşəriyyətin gələcəyini.

---

**Milli Məclisin payız sessiyasında "Dini etiqad azadlığı və dini qurumlar haqqında" qanun layihəsinin müzakirəyə təqdim edilməsi nəzərdə tutulur. Layihədə nələrin nəzərdə tutulduğu, qanuna hansı dəyişikliklərin ediləcəyi ciddi maraq doğurur.**

# Yeni qəbul ediləcək dini qanuna ilk etiraz YAP-çı baş redaktordan gəldi

## "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov: "Başsağlığını qadağan etsələr, jurnalistlərə necə əmək haqqı ödəyəcəyik?"



Bununla bağlı Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov "Yeni Müsavat"a eksklüziv açıqlamasında diqqətçəkən fikirlər səsləndirib. O, rəsmi dövlət qəzetlərində rəsmi şəxslərdən, ölkə prezidentinin verdiyi başsağlığından başqa, digər şəxslərin başsağlığı verməsinin qadağan olunacağını bildirib. Yas mərasimlərindən danışan S.Novruzov mərasimdə iştirakın maksimum 10 dəqiqə olmasının vacibliyini önə çəkib. Fikirlərini isə bununla əsaslandırıb ki, mərasimə gələn dövlət işçilərinin zamanları az ola bilər. YAP funksioneri "ehsan qadağası"ndan da söz açıb və bununla bağlı bütün ölkə boyu sərt tədbirlərin görüləcəyini bildirərək, yalnız üç mərasimində ehsan verilməsinin qanuna ediləcək dəyişikliklər sırasında olacağını söyləyib. O, qəbir daşlarının eyni ölçüdə olmasına da toxunaraq bildirib ki, imkansız vətəndaşların dəfnini, qəbrinin üstünün götürülməsini bələdiyyələr həyata keçirəcək.

**S.Novruzovun həmkarı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa qanun layihəsinin lehinədir:** "Belə bir dəyişiklik olarsa, bunun lehinə olacağıq. İllərlə biz bunu müdafiə etmişik. Ümumiyyətlə, mərasimlərin yüngülləşdirilməsi, sadələşdirilməsi hər kəsin marağına uyğundur. Hətta bunun daha sərt formada tətbiq olunmasının tərəfdarıyam. Azərbaycan insanı şöhrətpərəstdir. Başqası razı qalsın deyə tədbirlərini keçirir. Yası da bu cür edir. Bu xarakteri nəzərə alaraq məcburetməni artırmaq lazımdır. Bu olmasa, bunu başqa formada etməyəcəklər. Bütün bunlara görə məsələnin lehinəyəm. Amma yas mərasimlərinin vaxtı barədə deyilənlərin əleyhinəyəm. Bunu qanuna salmaq olmaz. Çox gülünc səslənir. Ümumi şəkildə deyilir ki, get 10 dəqiqə otur gəl. Qanuna belə sadə şeyləri salmaq ciddi səslənməyəcək. Amma bütövlükdə dəyişikliklər müsbətdir. 3 mərasimində ehsanın verilməsi ilə bağlı deyilənlər də tamamilə doğrudur. Əslində heç 3 mərasimində də verilməsinin bir məntiqi izahı yoxdur. Mərasimlərlə bağlı hamı bir-birinə baxıb dəyişiklik etmək istəmir və nəticədə dəyişikliklər həyata keçmir. İmkansız vətəndaşların dəfnini, qəbrinin üstünün götürülməsini bələdiyyələrin həyata keçirməsi barədə deyilənlər mümkün deyil. Qəbir daşlarının ölçüləri haqqında Nazirlər Kabinetinin qərarı olub. İndi bu məsələnin gündəmə bir daha gətirilməsi müsbətdir. Şöhrətpərəstlik bir xəstəlikdir. Bu xəstəliyə müalicə kimi baxmaq lazımdır. İnsan haqları kontekstindən məsələyə yanaşılanda, əlbəttə, həyata keçməyəcək. İnsanlar özləri islah olunmurlarsa, biz nə edə bilərik?"

**Komitə sədrinin həm partiya, həm də deputat həmkarı olan, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov onun dediklərinə qarşı çıxdı:** "Bizim İctimai birliklər və dini qurumlar komitəsinin sədrinin fikirləri ilə tanış oldum. Burada bəzi məqamlar var ki, onu düzgün yanaşma hesab etmirəm. Bunun da səbəbləri var. Xalqımızın milli-mənəvi dəyərləri mövcuddur. Bu dəyərlərdən biri də ondan ibarətdir ki, insanların birinə itki üz verəndə onlara başsağlığı verirlər. Bunu ya hüzr yerinə getməklə, ya da qəzet vasitəsilə edirsən. Dünya praktikasında da belədir. Bizim əksəriyyətimiz rayonda doğulmuşuq, sonradan köçmüşük. Rayonda hüzr yeri olanda insanlar gedə bilmirlər, ona görə də qəzet vasitəsilə başsağlığı verirlər. Bunun digər müsbət cəhəti də odur ki, qəzet vasitəsilə insanlar kimə kədərin baş verdiyini öyrənə bilərlər. Bu başsağlıqları o qədər böyük material deyil ki, narahatlıq doğursun. Söhbət əgər rəsmi qəzetlərdən gedirsə, biz dövlət büdcəsində deyilik, təsərrüfat hesablıyıq. Nə qazansaq, biz onu yeyirik, yaxud da xərcləyirik. Sizin qəzet də yaxşı bilir ki, reklam bazarı yoxdur, buna görə də qəzet üçün reklam bazarı formalaşmayıb. Televiziyaların kifayət qədər reklam bazarı var. Hətta sutka ərzində televiziyalarda verilişlərdən daha çox reklamlar gedir. Gizli və açıq, eləcə də sponsor dəstəyi ilə olan reklamları hər kəs yaxşı bilir. Amma qəzet reklamı yoxdur. Belə olan halda biz qəzeti yaşatmaq üçün reklam və elan verməliyik. Elanların içərisində başsağlıqları müəyyən məbləğdə gəlir gətirir. Haradasa bizim qəzetin 20-25% gəliri başsağlığından gəlir. Bunu bizə qadağan etsələr, bu vəsaiti bizə kim ödəyəcək? O zaman jurnalistlərə necə əmək haqqı ödəyəcəyik? Cənab prezident sosial paketi oldu. Bütün insan qruplarının hamısı o sosial paketdən bəhrələndi. Dövlət büdcəsindən maliyyələşən təşkilatlar da bundan bəhrələndi. Cənab prezident KİV-in İnkişafına Dəstək Fondunun dəstəyi ilə müstəqil mətbuatın maliyyələşməsinə çox böyük şərait yaradır. Sistemli şəkildə onlar maliyyələşirlər. Amma bizim qəzet bundan da kənardadır. Çünki bizim təsisçimiz dövlət qurumu, yəni Milli Məclisdir. Parlament isə bizə nə bir manat pul verir, nə də ayrıca bir maliyyə dəstəyi etmir. Ümumiyyətlə, heç bir şey etmədiyini açıq şəkildə söyləyirəm. Baxmayaraq ki, qəzetimizin nizamnaməsində bütün maddi, maliyyə və texniki dəstəyin hamısını Milli Məclisin etməli olduğu yazılıb. Məsələnin çox mühüm olan bir tərəfi də var. Bilirsiniz ki, Azərbaycanda mətbuat azadlığı var. Bu azadlığın müstəqil, rəsmi və dövlət qəzetlərinin hər birinə aidiyyəti var. İnanmıram ki, qanunla mətbuata qadağan oluna kı, sən elan götürmə, elan vermə. Azərbaycanda heç vaxt inanmıram ki, mətbuat və söz azadlığı ilə bağlı məhdudlaşdırıcı qanun qəbul olunsun, yaxud da məhdudlaşdırıcı maddə olsun. Ona görə də millət vəkili, həm də yeganə rəsmi qəzetin redaktoru kimi, bu mövqeyi qəbul etmirəm. Burada qəzetin fəaliyyətinə qanuni şəkildə mane olma var. Azərbaycanda isə heç vaxt mətbuat azadlığı məhdudlaşdırılmayıb. Bizdə çox ciddi maliyyə sıxıntısı da yaranacaq. Bütün bu məsələləri həll yoluna qoymadan belə bir qanunun qəbulunu tez sayıram. Bunun mənəvi tərəfləri də var. İnsanlara şərait yaratmaq lazımdır ki, bir-birilərinin dərdlərinə şərik olsunlar, insanlar hüzr yerinə getməyə yüz kilometrlərlə yol sərf etməsinlər. Dünyanın bir çox ölkələrində başsağlıqları yarım səhifə verilir. Bir insanın imkanı var ki, başsağlıqlarını qəzetdə verdirir. Bu məcburiyyət deyil, könüllü bir şeydir. İnsanların bu istəklərinin qarşısına sədd çəkmək olmaz".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 179 (7349) 30 avqust 2019



# Avropa İttifaqı ilə saziş yenə dalanda: Bakı Aİ-ni nələrdə günahlandırır?

## Brüssel Bakı ilə danışıqlardakı problemləri açıqladı; **Diplomatik mənbələr:** "Azərbaycan Avropa ittifaqını Ermənistanla imzalanmış "uzaqgörənlik nümayiş etdirməyən" sənəddə günahlandırır"; Avropa Komissiyası isə yaxın iki ayda yeni sazişə ümid edir, amma...

**Avropa Komissiyası yaxın iki ayda Azərbaycanla yeni tərəfdaşlıq sazişi bağlamağa ümid edir. Bu barədə "Trend" Avropa Komissiyasındakı mənbələrə istinadən məlumat yayıb. Məlumatda qeyd edilir: "Mənbə noyabrın 1-dək Avropa Komissiyasının səlahiyyət müddətində razılaşmanın mümkün olduğuna dair açıq nikbinlik ifadə edib". Bildirilir ki, yeni sazişlə bağlı danışıqların növbəti mərhələsi sentyabrda keçiriləcək.**

Azərbaycanla Avropa İttifaqı arasında əhatəli əməkdaşlıq barədə yeni saziş layihəsi üzərində danışıqlarda yaranmış əsas əngəllər məlum olub. Virtualaz.org xəbər verir ki, bu haqda Brüsseldəki diplomatik mənbələr EURACTİV.com portalına məlumatları sızdırıblar.

Sayt yazır ki, Yunkerin komissiyası (Avropa Komissiyasının rəhbəri Jan-Klod Yunker) Azərbaycanla yeni ticarət-siyasi razılaşmaya dair danışıqların qarşıdakı iki ay ərzində yekunlaşacağına ümid edir, bir şərtlə ki, Bakı layihənin ticarət hissəsində irəliləsin.

Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər 1999-cu ildən qüvvədə olan tərəfdaşlıq və əməkdaşlıq razılaşmasına əsaslanır. 2017-ci ilin fevralından tərəflər yeni çərçivə razılaşmasına dair danışıqlara başlayıblar. Bu danışıqlar sona yaxınlaşır, amma bəzi həll edilməmiş məsələlər var.

Ötən ilin oktyabrında Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov EURACTİV.com-a açıqlamasında demişdi ki, onun ölkəsi razılaşmanın indiki komissiyanın səlahiyyət müddətinin başa çatmasına qədər imzalanacağına ümid edir. Yunkerin komissiyasının səlahiyyətləri 2019-cu il noyabrın 1-də başa çatır.

2019-cu ilin aprelində isə Brüsseldə E.Məmmədyarovla danışıqlardan sonra Aİ-nin xarici siyasət komissarı Federiko Mogerini tərəflərin danışıqların "yekun, həlledici fazasına" daxil olduqlarını açıqlamışdı.

Lakin sayta danışan mənbələr deyiblər ki, bu hədəfə nail olmağın qeyri-mümkünlüyü getdikcə daha çox aydın olur. Belə ki, Bakı Avropa ittifaqının regionda mühüm stabilləşdirici rolunu qeyd etməklə yanaşı, onu uzaqgörənlik nümayiş etdirməməkdə günahlandırır. Habelə Azərbaycanın Avropa İttifaqının energetika təhlükəsizliyinin təmin edilməsinə töhfəsi vurğulanır.

"Azərbaycan habelə özünü buna görə təhqir olunmuş sayır ki, Aİ Bakının mövqeyinə görə daha az geostrateji əhəmiyyət kəsb edən və Rusiya ilə daha sıx münasibətlərə malik olan Ermənistan kimi ölkə ilə yeni nəsil ticari-siyasi razılaşma imzalayıb. Və əksinə, Aİ təəssüflənir ki, Azərbaycan yeni razılaşmaya iqtisadiyyatla bağlı güclü, mühüm əhəmiyyət kəsb edən hissənin daxil edilməli olduğunu anlamır. Azərbaycan Ümumdünya Ticarət Təşkilatının üzvü deyil və Brüsselin qeyd etdiyi kimi, bu təşkilata qoşulmaq üçün ciddi ambisiyaları da yoxdur. Bildirilir ki, bu məqam saziş layihəsinin ticarətlə bağlı hissəsini razılaşdırmağa ciddi əngəl yaradır", - məqalədə deyilir.

**Avropa Komissiyasındakı mənbə deyib:** "Azərbaycan yeni siyasi-ticarət razlaşmasının imzalanmasında maraqlıdır, amma buna görə qiymət ödəmək istəmir".

Mənbə əlavə edib ki, top Bakının meydançasındadır və komissiya üzərinə düşən işi yerinə yetirməyə hazırdır. Bir şərtlə ki, Bakı mövqeyinə yenidən baxsın.

**Avropa Komissiyasındakı mənbə onu da bildirib ki, Avropa İttifaqının rəhbərliyi azad bazar iqtisadiyyatı qaydalarını xatırladanda Bakı danışıqlarda çətinliklərlə qarşılaşır.**

"Azərbaycanın iqtisadiyyatı əsasən neftə və qaza əsaslanır. Mineral ehtiyatları ilə bağlı olmayan sahələr çox zəif inkişaf edib", - mənbə deyib. Və əlavə edib ki, Aİ ilə razılaşmaya nail olunmasında "bəzi nazirlər digərlərinə nisbətən daha çox maraqlıdır".

Amma mənbə, hər halda, ümid edir ki, razılaşma indiki komissiyanın səlahiyyətləri başa çatana qədər imzalanacaq.

"Bu mümkün ola bilər: bir neçə yuxusuz gecə keçirsək, biz məqsədə nail ola bilərik", - mənbə deyib. Və əlavə edib ki, top Bakının tərəfindədir.

Qeyd edək ki, Brüsselə müzakirələri aparan azərbaycanlı rəsmilərin dəfələrlə bildirdiyi kimi, Azərbaycanın Aİ ilə danışıqlarda öz strategiyası var. Azərbaycanın Aİ ilə əməkdaşlıq gündəminə iqtisadiyyat, mədəniyyət və digər sahələrdə münasibətlərin dərinləşməsi daxildir. Lakin Bakı regiondakı və dünyadakı bütün amilləri, güc mərkəzlərini nəzərə almaqla bundan sonra da praqmatik siyasət aparacaq. Yəni müstəqil, özünün milli, iqtisadi, siyasi və geosiyasi maraqlarına əsaslanan siyasətini davam etdirəcək. Görünür bu səbəbdən Aİ üçün Bakı ilə danışıqlar aparmaq çətindir.

Politoloq Natiq Miri "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanla Aİ arasında imzalanacaq tərəfdaşlıq sazişinin hazırlanması ilə bağlı aparılan danışıqların başa çatmaq üzrə olduğu haqda indiyə qədər dəfələrlə rəsmi açıqlamalar olsa da, məsələ həllini tapmayıb. Hətta iyulun 8-də Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Azərbaycana səfəri zamanı Azərbaycan prezidenti və bir sıra rəsmilərlə görüşdən sonra demişdi ki, Azərbaycanla Aİ arasında imzalanacaq tərəfdaşlıq sazişinin hazırlanması ilə bağlı aparılan danışıqlar başa çatmaq üzrədir. Lakin göründüyü kimi, iki aya yaxın vaxt keçsə də məsələ hələ açıq qalır: "Azərbaycan bu günə kimi Avropa İttifaqı ilə sazişi imzalamasa da bu istiqamətdə danışıqlar prosesi və müxtəlif sahələr üzrə əməkdaşlıqlar davam edir. Sözsüz ki, Avropa İttifaqı ilə sazişin imzalanmasına əngəl olan müəyyən daxili və xarici faktorlar var. Mən burada demokratiya, insan haqları məsələsi ilə bağlı Avropa İttifaqının şərtlər irəli sürməsini və Rusiyanın Azərbaycan-Avropa İttifaqı sazişinin reallaşmasına qarşı olmasını sazişin imzalanmasının yubanmasına səbəblər kimi görürəm. Sazişin imzalanması üçün ən azından tərəflərin razılaşdıra bilmədikləri bir sıra məsələlər öz həllini tapmalıdır ki, proses yekunlaşmağa doğru getsin. Diqqət etdinizsə, hətta iyulun 8-də Bakıya səfəri zamanı Donald Tuskun özü belə sazişin nə zaman imzalanacağı barədə dəqiq tarix söyləyə bilməyəcəyini demişdi. Odur ki, bu gün də sazişin hansı ayda imzalanacağı barədə dəqiq vaxt söyləmək çətindir".

**Ekspertin sözlərinə görə, ümumiyyətlə, haqqında söhbət gedən saziş layihəsinin müddəaları barədə ictimaiyyətə hələ məlumat verilməyib. Hər iki tərəf hər dəfə ümumi məlumatlar verməklə kifayətlənib:** "Ola bilsin, yekun razılaşmadan sonra sazişin tam mətnini görə bilərik. Hələ may ayında xarici işlər naziri Elmar Məmmədyarov danışıqlarda müddəaların 90 faizinin razılaşdırıldığını, yerdə qalanlar üzərində isə işlər getdiyini bildirmişdi. Təxminən eyni fikri Avropa İttifaqı Genişləndirmə Komissarı Yohannes Han da söyləyərək bir sıra məqamlarla bağlı danışıqların davam etdiyini və payıza qədər razılaşdırıla biləcəyinə ümid etdiyini bildirmişdi. Bir sıra Avropa İttifaqı nümayəndələrinin zaman-zaman verdiyi açıqlamalardan, yayılan son məlumatdan belə qənaətə gəlmək olur ki, razılaşdırılmayan məqamlar hələ də qalır. Məncə, onların içində vətəndaş cəmiyyəti, insan haqları ilə bağlı məsələlər də var".

**Politoloq onu da qeyd etdi ki, bu sazişin lazım olan tələblərə cavab vermədən imzalanması əslində işin xeyrinə olmaz. Bu halda həm Azərbaycan, həm də Avropa İttifaqı üçün bu sazişin heç bir əhəmiyyəti olmaz:** "Sənəd imzalanandan sonra Avropa İttifaqına daxil olan bütün dövlətlərin parlamentləri ayrı-ayrılıqda ratifikasiya etməlidirlər ki, həmin zaman ciddi problemlər yaşana bilər. Ona görə də hesab edirəm ki, Azərbaycan indiyədək razılaşdıra bilmədiyi müddəaları maksimum şəkildə Avropa İttifaqı standartlarına uyğun razılaşdırarsa, həmin andan qısa müddət sonra bu sənəd imzalanacaq. Bu hadisə noyabrda da, dekabrda da və hətta gələn il də baş verə bilər. Dediyimiz kimi, dəqiq tarix proqnoz vermək mümkün deyil".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

## Bakı dünyanın 50 ən təhlükəsiz şəhəri sırasındadır

**Bakı dünyanın 2019-cu ildə ən təhlükəsiz şəhərləri reytinqinin top 50-də yer alıb.**

"Report" xəbər verir ki, "The Economist İntelligence Unit" (EİU) analitik mərkəzi ilə "The Economist" dərgisi tərəfindən tərtib edilən illik hesabatdakı reytinqə görə paytaxt maksimum 100 xaldan 56,4 xal toplayaraq 49-cu yeri tutub.

Reytinqdə qeydə alınan 60 şəhər rəqəmli təhlükəsizlik, səhiyyə xidmətləri, infrastruktur, fərdi təhlükəsizlik daxil olmaqla, 57 müxtəlif göstərici əsasında dəyərləndirilib.

Belə ki, Kopenhagen, Dubay, Laqos şəhərləri ilə yanaşı, reytinqə ilk dəfədir qiymətləndirilən Bakı rəqəmli təhlükəsizliklə bağlı siyahıda 51,7 xalla 46-cı yerdə, səhiyyə təhlükəsizliyi ilə bağlı siyahıda 64 xalla 41-ci yerdə, fərdi təhlükəsizlik baxımından 63,7 xalla 49-cu yerdə, infrastruktur təhlükəsizliyi üzrə isə 46,3 xalla 54-cü yerdə qərarlaşıb.

Reytinqdə birinci yeri Tokio tutub. Sonrakı yerlərdə ardıcıllıqla Sinqapur, Osaka, Amsterdam, Sidney, Toronto, Vaşinqton, Kopenhagen, Seul, Melburn qərarlaşıb.

Araşdırma müəlliflərinə görə, hazırda bəşəriyyətin 56 faizi şəhərlərdə yaşayırsa, 2050-ci ildə bu rəqəm 68 faizə çatacaq.

## "Ölkə əhalisinin 8 faizi dindardır"-komitə rəsmisi

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi hər il Qurban və Ramazan ayında məscidlərə gələnlərin statistikasını müəyyən etmək istiqamətində iş aparır.

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirib.

Onun sözlərinə görə, son statistikaya görə, sonuncu Qurban bayramının namazında iştirak edən dindarların sayı təxminən 145-170 min nəfər olub: "Respublikada dindarlıq faizini hesablamaq üçün bir neçə üsuldan istifadə edilir. "Din sosiologiyası" adlı elm var. Həmin elmin bu statistikanın aparılması yanaşmasından istifadə edərək respublikadakı dindarların faiz dərəcəsini müəyyən edirik. Bu zaman həmin bayram namazına gələnlərin sayını 5-ə vururuq. Aldığımız rəqəmə görə, ölkə əhalisinin 8 faizi dindardır. Bu isə təbii ki, təxmini rəqəmdir".

❑ **"TREND"**



# Çürümüş avtobus

Zamin HACI
zaminhaci@gmail.com

"Hələ mən Teziki demirəm, yoldaş Zeynalov, Tezik!"
*("Yol əhvalatı" filmindən)*

**Lənkəranda avtobus qəzaya uğrayıb, ölən və yaralılar var. Hadisə yerindən foto və videolara baxdım, bu, istehsalı 1989-cu ildə dayandırılmış "PAZ" avtobusu idi. Daha doğrusu, Pavlovo şəhərinin avtobus zavodu sonralar da maşın buraxıb, yanılmıramsa, indi də buraxır, ancaq həmin qəzaya uğrayan avtobus PAZ-672 modelinə bənzəyirdi, həmin model də 1967-ci ildən 1989-cu ilə qədər istehsal edilib. O üzdən bütün korpusu darmadağın, çürük, pas içində idi. Çox təəccüblüdür ki, azı 30-40 yaşlı bu avtobus indiyəcən lənkəranlıları necə daşıyırmış.**

Ancaq bizdə çox şey elə o avtobus kimidir. SSRİ dağılandan bəri qüvvədə saxlayırıq, "harada qırılar-qırılar" prinsipiylə idarə eləyirik. Kadrlardan təhsilə, mənəviyyatdan istehsala qədər. Bütövlükdə ölkəmiz həmin PAZ avtobusuna oxşayır. Əyləci tutmur, yoxuşdan geri dığırlanmaqdadır, içəridə arvad-uşaqlar qışqırışır, kişilər pəncərədən düşüb başqa avtobuslara qaçırlar. Hələ buna şükür eləmək lazımdır, çünki daha köhnə model də ola bilərdi - "Alabaş". Yəqin o avtobuslar uca millətimizin yadındadır. Bəlkə bəzi yerlərdə yenə istifadə edilir.

Sözgəlişi, həmin "PAZ"lardan birini Bakıətrafı qəsəbədə görmüşdüm, Şuşa nömrəsi ilə. Adam Şuşadan avtobusu Bakıya qədər sürüb gətirmişdi, burada binanın həyətində atmışdı. Avtobus orada illərlə çürüməkdə idi. Nadinc uşaqlar qabaqca şüşələrini qırdılar, nömrələrini, işıqlarını söküb apardılar. Bir müddət qırıq pəncərələrdən pərdələri külək bayıra yelləyirdi, sanki o qara bayraqlar bizim Şuşanı ermənilərə təhvil verməyimizi yad edirdilər. Sonra pərdələr də yox oldu, yazıq maşın qaldı çılpaq. Müasir inkişafımızın ortasında. Deyəsən, hələ də oradadır, utandığından yavaş-yavaş torpağa girir. Dəcəl qızlar onun fonunda dodaqlarını büzüb şəkil çəkdirir, instaqrama-zada qoyurlar. Əlbəttə, o gənclər bu avtobusun salonunda hansı xatirələrin uyuduğunu, çürüməkdə olduğunu bilmirlər, bilmək belə istəmirlər.

Yaxşı, sentimental düşüncələri burada dərəyə yuvarladıb daha optimist şeylər fikirləşək. Axı bizim köhnə PAZ-larımız varsa, kosmosda şırım açan "Azərsat" peyklərimiz də var! Bambılı yazarların sözü olmasın, həyat yalnız ağ və qara rənglərdən ibarət deyildir. Boz rəng də var. Rəng teması açılmışkən... Bu yaxında şair Vaqif Bayatlının qardaşı ilə rastlaşdım. Şairin əməkdar incəsənət xadimi adına layiq görülməsindən narazı qalmışdı. Doğrudan da, bir zamanlar "yaşıl köynəkli oğlan" fəxri adına layiq görülən şairin indi dövlətdən bu mükafatı alması oxucuların təəssüfünə səbəb olmuşdur. Üstəlik, "Qardaşımın üzü köməyim olsun" misralarının ünvanlandığı bir qardaşın qəlbinin səsinə qulaq asmaq yaxşı olardı.

Dövlətin zəhmətkeşlərə qayğısı isə bütün marşrutlar üzrə özünü göstərməkdədir. Örnək üçün, başqa ölkələrdə tələbələrdən təhsil haqqını onlar universitetə girməmiş, zorla, polis gücünə, döyərək alırlar, bizdə isə Təhsil Nazirliyi rektorlara tapşırıq verdi: pulu iki dəfə, hissə-hissə alın. Yarısını dərs ilinin əvvəlində, yarısını axırında. Ya da ortasında - detallar tam yadımda qalmayıbdır. Tələbələr özlərini yaxşı aparsalar qarşıdan gələn illərdə təhsil haqqı gündəlik ödəmə sisteminə keçiriləcəkdir. İllik haqq dərs günlərinin sayına bölünəcəkdir. Hər gün, misal üçün, beş manatını ver, gir dərsə. Nəticədə universitet və tələbə arasında doğmalıq, səmimilik, intim hisslər artacaqdır. Məncə, bu, ədalətli olardı. Gənc almadığı dərsin pulunu ödəməz, müəllim hamının dərsə gəlməyində maraqlı olar. Hətta dərsə hər gün gələn tələbələrə rübdə bir dəfə pulsuz dönər və ayran hədiyyə eləmək tədrisə müsbət stimul verərdi. Bu üsul bəzi orta məktəblərdə yaxşı göstəricilərə gətirmişdir. "Şagirdlərə dönər 1 manat" yazılan obyektlər ətrafındakı məktəblərdə davamiyyət 150 faizə qalxmışdır. Başqa məktəblərin uşaqları da ora oxumağa gəlirlər. PAZ avtobusları ilə.

Yazını elə bu nikbin notlarla bitirirəm.

# İslamabaddan Elmar Məmmədyarova təcili zəng

## Pakistan Cəmmu və Kəşmir bölgəsinin ətrafındakı vəziyyətə dair Bakıdan qəti mövqe istəyir

**Azərbaycan və Pakistan xarici işlər nazirləri Elmar Məmmədyarovla Şah Məhmud Küreşi arasında telefon söhbəti zamanı Cəmmu və Kəşmir bölgəsinin ətrafındakı vəziyyətə dair müzakirə aparılıb. "Report" Pakistan KİV-ə istinadən xəbər verir ki, Hindistanın Cəmmu və Kəşmir ştatının xüsusi statusunu ləğv etməklə birtərəfli hərəkət edərək BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini pozduğunu vurğulayan pakistanlı nazir bölgəyə 70 minədək hərbçidən əlavə, daha 180 min hərbçinin yeridilməsini Kəşmir əhalisi üçün təhlükə olaraq dəyərləndirib. Şah Məhmud Küreşi Hindistanın birtərəfli və qanunsuz addımlarla regionun demoqrafik mənzərəsini dəyişdirməyə çalışdığını deyib.**

Kəşmir bölgəsindəki vəziyyətdən ciddi narahatlığını ifadə edən E.Məmmədyarov da regiondakı həll olunmamış münaqişələrin dinc yolla aradan qaldırılmasının vacibliyini bildirib.

Bir neçə gün əvvəl Hindistan Cammu və Kəşmir bölgələrinin muxtariyyətini ləğv etdikdən sonra İslam Əməkdaşlıq Təşkilatının Səudiyyə Ərəbistanının Cidde şəhərində olan baş ofisində təcili kontakt qrupunun iclası keçirilib.

İslam Əməkdaşlıq Təşkilatının kontakt qrupunun iclasında Azərbaycanı Səudiyyə Ərəbistanındakı səfir Şahin Abdullayev təmsil edib. Təşkilatın saytının yaydığı məlumata əsasən, kontakt qrupunun üzvləri "Kəşmir xalqına dəstək olduqlarını ifadə ediblər və onların öz müqəddəratlarını təyin etmə hüquqlarına dəstək bəyanatı veriblər".

**Azərbaycan Xarici İşlər Nazirliyindən isə bildiriblər ki, "Azərbaycan Cammu və Kəşmir məsələsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq sülh yolu ilə həllini dəstəkləyir və bu, Azərbaycanın prinsipial mövqeyidir.** "Biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinin tərəfdarıyıq, eynilə Cammu Kəşmir məsələsinin də həmin qurumun qətnamələrinə uyğun həllini, ümumiyyətlə isə bölgədə sülh, təhlükəsizlik və rifahın təmin olunmasına yönəlmiş bütün səyləri dəstəkləyirik" deyə, Xarici İşlər Nazirliyinin sözçüsü Leyla Abdullayeva bildirib.

Ekspertlər hesab edir ki, Pakistan Qarabağ məsələsində Azərbaycana birmənalı dəstək verən azsaylı ölkələrdən biridir. Bu baxımdan Pakistan Azərbaycanın dostudur və Bakı bunu itirmək istəmir. Digər tərəfdən isə Hindistan dünyanın ən nəhəng ölkələrindəndir və belə ölkə ilə də münasibətləri pozmamaq lazımdır.

**Bir neçə gün əvvəl Pakistanın Azərbaycandakı səfiri Səid Xan Mohmand bildirib ki, bu məsələdə Bakının dəstəyini gözləyirlər:**



"Mən Xarici İşlər Nazirliyində oldum, cənab Araz Əzimovla görüşdüm. Təbii ki, biz Azərbaycandan da bu barədə rəsmi qətnamə qəbul etməyini istədik. Pakistan Qarabağ münaqişəsində hər zaman Azərbaycanın yanındadır və indiyədək Ermənistanı dövlət olaraq tanımırıq. Bizim parlamentimizdə də Xocalı soyqırımı və Ermənistanın işğalçılığı ilə bağlı qətnamə qəbul edilib".

Qeyd edək ki, Kəşmir 1586-cı ildə Böyük Moğallar imperiyasının tərkibində olub. 1756-cı ildə əfqanlar, 1819-cu ildə siqhlər işğal ediblər. 1846-cı ildə ingilis müstəmləkəçiləri Kəşmiri işğal edib və 7,5 mln. rupi ödənclə Cammu knyazlığına veriblər. 1947-ci ilin avqustunda yaradılan müstəqil Hindistan və Pakistan dövlətləri Kəşmiri öz ərazilərinə birləşdirməyə cəhd göstəriblər.

Pakistanın Kəşmirə 22 oktyabr 1947-ci il silahlı müdaxiləsi BMT Təhlükəsizlik Şurasının vasitəçilik komissiyası tərəfindən 1 yanvar 1949-cu il tarixdə dayandırılıb. Kəşmirin şimal-qərbi Pakistanın, qalan (əksər) hissəsi isə Hindistanın nəzarəti altına keçib. 1952-ci ilin iyulunda Kəşmirlə Hindistanın imzaladığı Dehli sazişinə əsasən, Kəşmir ştat (Cammu və Kəşmir) hüququnda Hindistanın tərkibinə daxil olub.

1956-cı il noyabrın 17-də Kəşmir Müəssisələr Məclisinin qəbul etdiyi konstitusiyaya görə, Kəşmir "Hindistan İttifaqının tərkib hissəsi" elan edilib. 1955, 1960, 1962, 1963-cü illərdə Kəşmir məsələsi üzrə BMT-dəki müzakirələr, Hindistan-Pakistan danışıqları nəticə verməyib. 1965-ci ilin sentyabrında baş vermiş Hindistan-Pakistan hərbi münaqişəsi digər dövlətlərin fəal səyi nəticəsində dayandırılıb. 1971-ci ilin dekabrında yeni Hindistan-Pakistan hərbi münaqişəsindən sonra hər iki dövlət münaqişəli məsələləri dinc yolla nizama salmaq barədə razılıq əldə edilib. 1972-ci ilin avqustunda Dehlidə baş tutmuş Hindistan-Pakistan danışıqlarına əsasən, Kəşmirdə yeni nəzarət xətti müəyyən edilib.

Pakistanın Kəşmirə olan iddiaları Hindistana nisbətən daha çox sübutlara əsaslanır.

**❑ ORXAN,**
**"Yeni Müsavat"**



## Tramp Ukraynaya hərbi yardım məsələsinə yenidən baxılmasını istəyir

**ABŞ prezidenti Donald Tramp Ukraynaya ayrılan hərbi yardıma yenidən baxılması haqqında göstəriş verib. Bu barədə "Politico" qəzeti Ağ Evdəki yüksək vəzifəli mənbəyə istinadən bildirib.**

ABŞ lideri rəsmi Kiyevin ayrılan pulları Vaşinqtonun maraqları nöqteyi-nəzərindən xərcləməsini istəyir.

Vəsaitlər onların taleyi müəyyən edilməyincə dondurulacaq. Məsələni ABŞ-ın müdafiə naziri Mark Esper və Prezidentin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton araşdıracaqlar.

Xatırladaq ki, bu maliyyə ilində Vaşinqtonun Ukraynaya hərbi yardımı 250 milyon dollar civarında müəyyənləşdirilib.

## Pentaqon rəhbəri Avropaya gedir

**ABŞ müdafiə naziri Mark Esper gələn həftə Avropada NATO-dan olan bir sıra həmkarları ilə görüşəcək. Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bunu jurnalistlərə açıqlamasında Esper özü deyib.**

Esper görüşləri zamanı Rusiyanın qarşısının alınması məsələsinin müzakirə olunacağını bildirib. O, həmçinin, müttəfiqləri ilə görüşü zamanı ABŞ-ın Avropadakı mövqeləri barədə də müzakirələr aparacağını bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 179 (7349) 30 avqust 2019

**Ermənistanın baş naziri Nikol Paşinyanın 2050-ci ilə qədərki (!) prioritetlərini ironiya ilə qarşılayan erməni ekspertlər mövcud hakimiyyətin acınacaqlı vəziyyətlə üz-üzə qaldığını açıq şəkildə ifadə edirlər. Belə görünür ki, Paşinyan hakimiyyətinin ömrü ilə bağlı bədbin proqnozlar səsləndirənlər kifayət qədər ciddi arqumentlərə sahibdirlər.**

# Dağılan Ermənistan, baş nazirin 2050-ci il "arzusu"

## Ermənistanın baş naziri ölkəsini ağır durumdan çıxarmaq, kreslosunu qorumaq üçün Qarabağ bəyanatlarının "doza"sını artırır; işğalçı ölkə rəhbərliyi ABŞ-dakı erməni diasporundan nicat diləməyə gedəcək; **politoloq:** "Paşinyan Xankəndində dediyi təxribatçı "Qarabağ Ermənistandır" fikrini Los-Ancelesdə də təkrarlasa..."; **XİN:** "Prosesləri qabaqlamayaq"

Məsələ burasındadır ki, N.Paşinyan hakimiyyətdə olduğu 16 ay müddətində ölkədə sosial tələblərlə keçirilən etiraz aksiyalarının ardı-arası kəsilmir. Mövcud durumda əhalisinin normal yaşayışını təmin edə bilməyən hökumət başçısı isə xalqının qarnını 2050-ci ildən bəhs edən populist bəyanatlarla, həmçinin sərsəm Qarabağ şüarları ilə "doyurmağa" çalışır. Əks təqdirdə, Paşinyanın "Qarabağ-Ermənistandır", "Qarabağ Azərbaycandan ayrılıb" kimi mənasız fikirlərinə ehtiyac qalmazdı.

Bu arada Ermənistanın iqtisadiyyat naziri Tiqran Xaçaturyan erməni diplomatlarla görüşü zamanı ölkə iqtisadiyyatının bərbad vəziyyətdə olduğunu deyib və onlardan ölkələri üçün investisiya axtarmasını istəyib. Axar.az xəbər verir ki, bu barədə məlumatı "Qraparak" qəzeti yayıb.

"Adambaşına düşən gəlirə görə bu gün biz lider mövqe tutan ölkələrdən 15 dəfə geri qalırıq. Bizim istehsal qabiliyyətimiz Avropanın istənilən ölkəsindən 8 dəfə, Avrasiya İttifaqı ölkələrindən 2 dəfə geri qalıb", - o bildirib.

"Yeni Müsavat" erməni mənbələrinə istinadən bildirir ki, elə N.Paşinyan özü də diplomatlarla görüşündə ölkəsinin düşdüyü ağır durumla bağlı bəzi etiraflarını edib. Ermənistanın baş naziri yaxşı anlayır ki, mövcud vəziyyət qonşu ölkənin torpağını artıq üçüncü onilliyə yaxındır işğal altında saxlamaqdan qaynaqlanır. Lakin Ermənistan rəhbərliyi hələ də dərk etmək istəmir ki, qonşularla normal münasibətlər yaratmadan, xüsusilə də Azərbaycan torpaqlarının işğalına son vermədən Ermənistanın ayaqda qalması, təcrid prosesinə son qoyulması mümkün olmayacaq.

İllərdir ianələrlə yaşayan Ermənistanda Qarabağ klanı ilə problemlərin yaranması, həmçinin Paşinyan hakimiyyətinə erməni diasporunun, kilsənin, eyni zamanda daşnakların münasibətinin birmənalı olmaması vəziyyəti kritikləşdirib. Odur ki, Paşinyan çox çalışır ki, diaspora ilə əlaqələri normallaşdırsın. Elə onun ABŞ-ın Los-Anceles şəhərinə səfər etmək niyyəti də buradan qaynaqlanır.

Çox güman ki, bu səfər BMT Baş Assambleyasının illik toplantısı ilə eyni vaxta təsadüf edəcək. Paşinyan "yolüstü" erməni diasporu ilə də görüşmək istəyir. O, özü də demişdi ki, Los-Ancelesdə ermənilərlə görüşlər keçirməyi planlaşdırır. Görüşün sentyabrın 22-si, saat 16:00-da baş tutacağını da elan edib. Baş nazir ABŞ-da Xankəndində müzakirə etdiyi məsələləri, o cümlədən "miatsum" və sairi gündəmə gətirəcəyini deyib. Şübhəsiz ki, görüşə Kaliforniya ştatının digər şəhərlərində yaşayan ermənilər də qatılacaq. Bunun üçün artıq hazırlıq işlərinə başlanılıb.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Paşinyanın sentyabrın ortalarında ABŞ-a səfərinin əsas hədəfi BMT-nin Baş Assambleyasına qatılmaqdır:** "Paşinyan bu fürsətdən istifadə etmək istəyir. O, Trampla da görüşmək arzusundadır. Keçən il də ABŞ prezidenti ilə görüşmək istəyirdi. Hətta ermənipərəst konqresmenləri prosesə qoşmuşdular. Ancaq alınmadı, Tramp bu görüşə maraq göstərmədi. Belə olan halda səfərdən nəticəsiz qayıtdı. İndi isə bir güllə ilə iki dovşan vurmaq istəyir. Həm Trampla görüşmək istəyir. Sonra da Nyu-Yorkdan Los-Ancelesə keçmək, erməni diasporunun nümayəndələri qarşısında çıxış etmək və yenidən pul toplamaq niyyətindədir. Amma Paşinyan Robert Köçəryan və Serj Sərkisyandan fərqli olaraq, o pulu Qarabağa xərcləmək istəmir, Ermənistanın problemlərinə yönəltməyi düşünür. Yəni Paşinyan bu dəfə Ermənistanın problemlərinin həlli üçün diləyəcək". **E.Şahinoğlu əlavə etdi ki, N.Paşinyan erməni lobbisi ilə əlaqələri sıxlaşdırmağa da çalışır:** "Burada bir məsələyə də diqqət yetirməliyik. Paşinyan Xankəndində dediyi təxribatçı - yəni "Qarabağ Ermənistandır" fikrini Los-Ancelesdə də təkrarlasa, təkrarlaması ehtimalı da böyükdür, artıq bu, o deməkdir ki, Ermənistan hakimiyyətinin siyasəti dəyişib. O halda biz də artıq buna uyğun olaraq qərarımızı verməliyik. Yəni Paşinyan iki dəfə deyirsə ki, "Qarabağ Ermənistandır", bu, o deməkdir ki, biz danışıqlardan çıxıb, artıq başqa vasitələrlə Ermənistanı masa arxasında otuzdurmalıyıq".

Ekspert hesab edir ki, Azərbaycan Xarici İşlər Nazirliyi və onun Los-Ancelesdəki konsulluğu da Paşinyanın səfəri ilə bağlı hazırlıqlı olmalıdır, qabaqlayıcı addımlar haqqında düşünməlidir.

**XİN-in mətbuat katibi Leyla Abdullayeva isə "Yeni Müsavat"ın sorğusuna cavabında bildirdi ki, prosesləri qabaqlamağa ehtiyac yoxdur:** "Gözləyək, görək Ermənistanın baş naziri Los-Ancelesdə necə çıxış edəcək. Ona uyğun da cavabımız olacaq. Odur ki, gəlin prosesləri qabaqlamayaq".

Qeyd edək ki, son günlər Bakı ilə İrəvan arasında "bəyanat savaşı" gedir. Ermənistan rəhbərliyinin danışıqlara nöqtə qoymağa hesablanmış bəyanatlarına Bakıdan olduqca kəskin reaksiyalar verilir. Bu cür münasibətlər isə danışıqların perspektivini şübhə altında qoyur.




***

Ermənistanın sabiq Milli Təhlükəsizlik Xidmətinin rəisi David Şahnazaryan iddia edib ki, erməni xalqının oyanışı Nikol Paşinyanın hökuməti üçün təhlükəli həddə çatıb. O qeyd edib ki, milyarder Corc Sorosun qrantından istifadə edən beynəlxalq təşkilatlar Ermənistanda baş vermiş "məxməri inqilabı" Dağlıq Qarabağda da (Azərbaycanın işğal edilmiş ərazisində - AZƏRTAC) həyata keçirməyə çalışırlar. Siyasətçinin sözlərinə görə, bu proseslərə orada keçiriləcək seçkilərin müşahidə missiyası tərəfindən rəvac veriləcək. D.Şahnazaryan bildirib ki, Dağlıq Qarabağda "məxməri inqilab" bu yaxınlarda hökumətdən 33,6 milyon dollar qrant almış erməni təşkilatı və məşhur "Transparency International" tərəfindən həyata keçiriləcək. O, diqqətə çatdırıb ki, korrupsiya ilə mübarizə apardığını qeyd edən bu beynəlxalq təşkilatın seçkilərin müşahidəsi ilə məşğul olması ən azından heyrət doğurur. Siyasətçi xatırladıb ki, sabiq prezident Sərkisyanın da istefasında İrəvan-Qarabağ kartları oynanılıb. "Qarabağda hakimiyyətin İrəvana müqavimət göstərdiyini görən Paşinyan orada özünün mənafeyinə uyğun rejim yaratmaq üçün yuxarıda göstərdiyim təşkilatların köməyinə hətta onları daha da təkmilləşdiriblər. Yeni hökumət ən azı daha üç yeni mexanizm yaradıb". Şahnazaryanın sözlərinə görə, indi Paşinyanın həyat yoldaşı tamamilə qeyri-şəffaf fondlar yaradır, onun adamları iri və orta biznes nümayəndələrinə qarşı reketçilikdən istifadə edirlər. O, istehza ilə xatırladıb ki, beynəlxalq təşkilatın adında olan "transparency" kəlməsi məhz "şəffaflıq" deməkdir. Milli Təhlükəsizlik Xidmətinin sabiq başçısı onu da bildirib ki, Ermənistan hökuməti "inqilab" adı altında ölkədə vətəndaş cəmiyyətini məhv edib. Məsələn, mətbuat azadlığının qorunması ilə məşğul olan təşkilatlar müstəqil mediani boğmağa başlayıblar. Erməni siyasətçi ölkə vətəndaşlarını beynəlxalq təşkilatların fəaliyyətini nəzarətdə saxlamağa çağırıb və onları maliyyələşdirən Corc Soros fondunun rəhbərinin bu ölkədə "məxməri inqilab"a kömək etdikləri barədə bəyanatını xatırladıb. O, hüquq-mühafizə orqanlarını da beynəlxalq təşkilatların ölkənin daxili işlərinə müdaxiləsi ilə bağlı tədbirlər görməyə, onların fəaliyyətini qadağan etməyə səsləyib, Paşinyan hökumətini isə vətəndaşların vergiləri hesabına qondarma Qarabağ respublikasında özünə sərf edən rejim qurmüraciət edib", - deyə siyasətçi vurğulayıb. Erməni siyasətçi əlavə edib ki, guya məramı korrupsiya ilə mübarizə olan "Transparency International" Paşinyan hökumətində baş verən bu cür hallar barədə bir kəlmə belə deməyib. O deyib: "Açıq-aşkardır ki, əvvəl mövcud olan korrupsiya mexanizmləri nəinki aradan qaldırılmayıb, maqda təqsirləndirib. Siyasətçi əlavə edib ki, bu cür oyunların Ermənistan hökuməti üçün ağır nəticələri olacaq.

**Ermənistanın baş naziri Nikol Paşinyan bir-birindən məntiqsiz və ziddiyyətli açıqlamaları ilə öz savadsızlığını nümayiş etdirir. Bu sözləri Axar.az-a açıqlamasında politoloq Fikrət Sadıqov Paşinyanın son dövrlər Dağlıq Qarabağla bağlı səsləndirdiyi fikirlərə münasibət bildirərkən deyib. O, erməni baş nazirin bu açıqlamalarla ölkəsinin işğalçı siyasətini açıq şəkildə üzə çıxardığını söyləyib:**

"Biz hakimiyyətinin ilk günündən Paşinyanın ziddiyyətli bəyanatlar verdiyini müşahidə edirik. Paşinyan savadsız adamdır, o, təsadüfi şəkildə hakimiyyətə gəlib. Məsələn, son günlər belə bir açıqlama verib ki, guya Dağlıq Qarabağ Azərbaycandan ayrılıb. Dağlıq Qarabağ vilayətinin Azərbaycandan ayrılmasına heç bir hüquqi əsas yox idi. Deməli, Paşinyan nə beynəlxalq hüquq normalarından, nə də konstitusiyadan xəbərdardır. O, sadəcə olaraq, belə bəyanatlarla özünü ifşa edir. Amma vaxtilə deyirdi ki, Dağlıq Qarabağ separatçıları stol arxasında əyləşərək, danışıqlarda iştirak etməlidir. Deməli, o hesab edirdi ki, Qarabağ müstəqil bir qurumdur. Amma avqustun 5-də Xankəndidə açıqlamasında "Qarabağ Ermənistandır, vəssalam" kimi fikirlər səsləndirdi və "miatsum" ideyasını gündəmə gətirdi. Bu da onu sübut edir ki, Paşinyan rəsmi sənədlərdən xəbərdar deyil". **Politoloqun sözlərinə görə, erməni baş nazirin verdiyi bəyanatlar onun reytinqinin kəskin aşağı düşməsi ilə bağlıdır:** "Vaxtilə o deyirdi ki, 2019-cu ildə Ermənistanda iqtisadi inqilab edəcək. Sonra bəyanat verdi ki, əhalinin sayını 3 milyona qədər qaldıracaq. Onun sərsəm bəyanatlarına qarşı ölkəsində həm siyasi ekspertlər, həm də ictimai və siyasi xadimlər də çıxışlar edir".



**Qarabağ Azadlıq Təşkilatı (QAT) Ermənistan rəhbərliyinin son həyasız açıqlamaları ilə bağlı bəyanat verib. "Yeni Müsavat"a verilən məlumata görə, təşkilat torpaqların azadlığı uğrunda mübarizəyə çağırır:** "İşğalçı Ermənistanın baş nazirinin, xarici işlər nazirinin və digər qurumsaqlarının Azərbaycanın ərazi bütövlüyünə qarşı son həyasız bəyanatları, Birləşmiş Millətlər Təşkilatı çərçivəsində Dağlıq Qarabağdakı qondarma rejimin adına "sənəd"in paylanması, bəzi dövlətlərin Ermənistanın ölçü bilməyən hərəkətlərinə dəstək verməsi və bütün bunların müqabilində Azərbaycan hakimiyyətinin susqunluq nümayiş etdirməsi artıq xalqımızın səbrini tükəndirib. Bu rəzalətə artıq dözmək mümkün deyil". QAT erməni həyasızlığına qətiyyətli cavabın verilməsini, işğalçı Ermənistana qarşı müharibənin başlanmasını tələb edib.

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 179 (7349) 30 avqust 2019

# Qərbin "xoxan" obrazının sonu kimlərə mesajdır?

## Politoloq: "Bu, həm reallığın etirafı, həm də o dövlətə mesajdır ki..."

**"Geopolitik dəyişikliklər ondan xəbər verir ki, Qərbin hegemonluğu dövranının sonu çatır".**

Bu barədə Fransanın prezidenti Emmanuel Makron səfirlərin iclasındakı çıxışında bəyan edib.

O deyib ki, biz, dünyada Qərb hegemonluğunun sonunu görürük: "Vəziyyət dəyişir. Bu vəziyyətə gətirən amillər arasında yeni güclərin möhkəmlənməsi, Çinin getdikcə daha çox gözə çarpan liderliyi və Rusiyanın öz strategiyasında böyük uğurları aparıcı rol oynayır".

Bəs bu, Fransanın ABŞ-a mesajıdır? Yoxsa reallığın etirafıdır? Qərbin hegemonluğunun başa çatması yeni dünya düzəni üçün nələr vəd edə bilər?

**Politoloq Nəzakət Məmmədova** "Yeni Müsavat"a bildirdi ki, bu, həm reallığın etirafı, həm də ABŞ-a mesajdır: "Makron bu fikirləri bəyan etməklə, bir daha avrosentrist mövqeyini ortaya qoydu. Makron Şarl De Qoldan sonra Avropanın ABŞ-dan asılılığının azaldılmasına çalışan, onun Avropa işlərinə müdaxiləsinə qarşı çıxan Beşinci Respublikanın ən qətiyyətli dövlət başçısıdır desək, yanılmarıq. Prezidentlik dönəminin lap başlanğıcında o, qlobalist maliyyə-biznes dairələrinin adamı kimi qəbul olunurdu. Lakin son dövrlərdə Fransa ilə ABŞ arasında bir çox beynəlxalq məsələlərə yanaşmada ziddiyyətlər var: Yaxın Şərq, Şimali Afrika, Cənubi Qafqaz ABŞ və Fransa arasında geosiyasi qarşıdurma meydanına çevrilib. Fransa və Rusiyanı nəhəng enerji və biznes maraqları birləşdirir, "Şimal axını-2" layihəsinin ən mühüm tərəfdaşı Almaniya ilə bərabər Fransadır, İrana münasibətdə Paris və Moskva Vaşinqtona qarşı oxşar mövqedədir və Fransa ABŞ-ın liderlik etdiyi birqütblü dünya nizamını qəbul etmək istəmir. Sosializm ideyalarının Avropada ən güclü siyasi-ideoloji dayaqlarının olduğu, demokratiyanın beşiyi hesab olunan, "Azadlıq, bərabərlik, qardaşlıq" ideyasının vüsət aldığı bir dövlət anqlo-sakson mədəni hegemonluğuna qarşı frankofon ekspansiyasını alternativ kimi dünyaya təqdim etməklə, həm də çoxqütblü dünya qaydasının tərəfdarı olduğunu göstərir və burada tərəfdaşlardan biri olaraq Rusiyanı görür. Xüsusilə, Trampın hakimiyyətə gəlməsindən sonra ABŞ və NATO müttəfiqləri, xüsusilə Fransa arasında ziddiyyətlər gərginləşib. Avropalı müttəfiqlərin ümumdaxili məhsulun 2 faizini Alyansın büdcəsinə üzvlük haqqı olaraq keçirməyəcəkləri təqdirdə Vaşinqtonun Soyuq müharibə dövründə olduğu kimi onları Rusiya təhdidindən öz çətiri altına almayacağı ilə hədələməsi Fransanı və bəzi digər NATO üzvlərini Şərqə doğru çevirməyə vadar edib. ABŞ-ın SSRİ ilə olan müqavilələri denonsasiya etməsi Avropanı ABŞ-ın himayəsindən məhrum edərək, onu Rusiya ilə təkbətək qoyub. Belə olan təqdirdə, ABŞ ilə anlaşa bilməyən Avropa təhdidin mənbəyi ilə yaxınlaşmağı üstün tuturlar. Makronun da qeyd etdiyi kimi, Qərbin hegemonluğu başa çatıb, ən azından ona görə ki, Qərb özü hazırda parçalanıb, vahid düşərgədə təmsil olunmayıb və beynəlxalq sistemdə Rusiya, Çin kimi güc mərkəzləri çoxqütblü dünya nizamının təfəfdarı kimi çıxış edirlər".




**Politoloq qeyd etdi ki, Qərbin hegemonluğunun başa çatması və bunun Fransa kimi böyük dövlətin, BMT Təhlükəsizlik Şurasının daimi üzvü, nüvə dövləti olan ölkənin prezidenti tərəfindən etiraf olunması dünyada çoxqütblü dünya nizamının yenidən formalaşmasına səbəb ola bilər:** "Rusiya və Çin Soyuq müharibə dövrünün reallıqlarının saxlanılmasında və çoxqütblü dünya nizamının olmasında maraqlıdır. BMT Təhlükəsizlik Şurasının daimi üzvü olaraq qəbul olunan qərarlarda veto hüququ onların əlində nüvə silahı qədər kəsərli vasitədir və bu dövlətlər də, Fransa kimi həmin hüququ yalnız ABŞ-a təhvil vermək fikrində deyillər. ABŞ-ın Yeni dünya qaydası planları Yaxın Şərqdə iflasa uğrayıb və bunda Rusiya və Fransanın "əməyi" danılmazdır. Prezident Putinin Münhen Təhlükəsizlik konfransında məşhur nitqi, Ərdoğanın Davosdakı demarşı, indi isə Makronun məlum tezisləri regional və beynəlxalq münasibətlər sistemində bir çox əsaslı dəyişikliklərə səbəb olmaqdadır. Əksər dünya ölkələri, güc mərkəzləri birmənalı surətdə çoxqütblü dünya sisteminin bərqərar olmasında israr edir, bu, bir fövqəldövlətin planetar miqyasda hegemonluğuna qarşı ən real çıxış yolu kimi göstərilir. Mövcud şərait onu göstərir ki, Yeni dünya nizamının formalaşması zərurəti yaranmışdır və burada Rusiya, Çin kimi qlobal gücə çevrilmək iddialı iddiasında olan dövlətlərin maraqları da nəzərə alınmalıdır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Trampa Türkiyə məsələsində kimlər təzyiq edir?

## ABŞ prezidenti Ankara ilə münasibətləri gərginləşdirmək istəmir, siyasətçilər isə Kremllə yaxınlaşmanı bağışlaya bilmir

**Bu həftənin əvvəlində S-400 hava hücumundan müdafiə qurğularının Türkiyəyə göndərilməsinin ikinci mərhələsi başlayıb. Qeyd edək ki, S-400-lərin birinci batareyası iyulun 12-dən Türkiyəyə göndərilməyə başlayıb. Bu həftə isə ikinci batareyanın hissələri göndərilib.**

S-400-lər prezident Ərdoğanın Moskvaya səfəri ilə eyni gündə göndərilməyə başlayıb. İlk təyyarələr Ankara yaxınlığında yerləşən "Mürtəd" hərbi hava bazasına eniş edib. Türkiyə Milli Müdafiə Nazirliyinin yaydığı açıqlamada qeyd olunur ki, S-400 uzun mənzilli bölgə hava və raketdən müdafiə sisteminin ikinci batareyasının detalları Mürtəd hava meydanına gətirilməsi bu gün başlayıb. Daşınma təxminən bir ay davam edəcək.

Gözlənildiyi kimi, S-400-lərin ikinci partiyasının göndərilməsinə Vaşinqtondan reaksiya gecikməyib. ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komissiyası prezident Trampı Türkiyəyə sanksiya tətbiq etməyə çağırıb. Məktubda qeyd olunur ki, Türkiyənin maraqlarına xidmət edən əməkdaşlıq Kremllə deyil, ABŞ-la əməkdaşlıqdır. Mediaya verilən açıqlamada prezidentə bu cür xitab olunur.

***Sitat*: "Prezident Tramp, Türkiyəyə S-400 hava hücumundan müdafiə sistemi almasına görə ABŞ qanunlarının tələb etdiyi formada sanksiyalar tətbiq etməlisən".**

Ancaq məsələ ondadır ki, Tramp S-400-lərə görə Türkiyə ilə münasibətləri pozmağa tələsmir. Yaponiyada keçirilən G-20 zirvəsində Ərdoğanla görüşən Tramp S-400 məsələsində Türkiyənin arqumentlərini qəbul etmiş kimi görünürdü. Çünki bu görüşdən sonra Tramp bildirmişdi ki, S-400 almasına görə Türkiyəni ittiham etmir. ABŞ prezidenti bütün günahları sələfi Obmanın hakimiyyətində gördüyünü bildirmişdi.



Hələ iyul ayında S-400-lərin birinci partiyası Türkiyəyə veriləndə Tramp respublikaçı senatorları Ağ Evə dəvət edərək Türkiyə ilə münasibətlər mövzusunda müzakirələr aparıb. Ancaq Trampın Ağ Evdə respublikaçı senatorlarla görüşündə qalmaqal yaşanıb. NBC telekanalının məlumatına görə, Ağ Evdə keçirilən qapalı toplantıda senatorlar Trampdan Türkiyəyə sanksiyalar tətbiq etməsini istəyib. Respublikaçı senator Kevin Kramer 90 dəqiqə davam edən toplantıdan sonra deyib ki, Tramp problemi həll etmək üçün daha geniş imkanlar istəyir. Senatorlar deyib ki, ABŞ prezidenti Türkiyəyə qarşı sanksiya tətbiq etməkdənsə, Türkiyə prezidenti ilə anlaşmaq üçün vaxt verilməsini istəyib. O da məlum olub ki, prezident və senatorlar Türkiyə mövzusunda anlaşa bilməyiblər. CNN-in məlumatında qeyd olunur ki, 45 senatorun iştirak etdiyi qapalı toplantı zamanı Trampın Türkiyə ilə müzakirə tərəfdarı olması Senatın xarici əlaqələr komitəsinin sədri Ceyms E.Rişlə mübahisəyə səbəb olub.

Həmin vaxt mediada yayılmış məlumatlarda Türkiyə prezidenti Ərdoğanın Osakada keçirilən G-20 sammiti zamanı ABŞ prezidentini yumşaq şəkildə əks həmlələrlə təhdid etdiyi bildirilirdi. Bu təhdidlər arasında Türkiyənin NATO-dan çıxması, "İncirlik" hərbi hava bazasının amerikalılara bağlanması da olub.

Tramp isə hələ də Türkiyə ilə yaranmış S-400 böhranına görə eks-prezident Obamanı ittiham edir. Trampın fikrincə, Obama administrasiyası Türkiyəyə "Patriot" sistemlərini satsa, bu anlaşmazlıq ortaya çıxmayacaqdı.

Belə anlaşılır ki, Türkiyə prezidentinin məhz Osakadan qayıtdıqdan sonra S-400-lərin daşınmağa başlanması Ərdoğanın bir şəkildə Trampı inandıra bilməsi ilə əlaqədardır. Ankara Vaşinqtonun daha sərt addımları qarşısında küncə sıxılacağı və məcbur qalaraq daha sərt cavablara əl atacağı ilə bağlı Ağ Ev rəhbərliyini inandıra bilib. Trampın isə Yaxın Şərq planlarında Türkiyə ilə daha dərin münaqişəyə girmək yoxdur. Çünki bu əks effekt verə və ABŞ-ın bölgədəki fəaliyyətinə ağır zərbə vura bilər.

Xatırladaq ki, 2017-ci ildə Türkiyə və Rusiya hökumətləri arasında əldə olunmuş anlaşmaya əsasən, Rusiya Türkiyəyə 2 HHM donanması, yəni 4 S-400 batareyası verəcək. 4 batareyada 8 atəş qurğusu və 128 ədəd mərmi-raket olacaq. Anlaşmanın dəyəri 2,5 milyard dollardır. 2007-ci ildən Rusiya ordusunun inventarına daxil edilən S-400 HHM sistemləri 600 km ümumi izləmə məsafəsi, 400 km aktiv izləmə və hədəfə alma imkanına malik olan, 250-400 km məsafədə təyyarələri, 40-60 km məsafədə isə ballistik raketləri 27 km hündürlüyə qədər vurmaq imkanına malik modern silah hesab olunur.

Belə anlaşılır ki, indi Senatdakı həm respublikaçı, həm də demokratlar cinahında Türkiyəyə sanksiya tətbiq olunmasını istəyən siyasətçilər var. Onların əsas arqumenti Ankaranın ABŞ-ın "orbitindən" çıxaraq Rusiya ilə yaxınlaşmasıdır. Tramp isə indi Türkiyə ilə münasibətləri daha da pisləşdirmək istəmir. Hətta bunun üçün senatorları da kabinetinə çağıran prezidentin əsas arqumenti Türkiyəni danışıqlarla razı salmaqdır.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 179 (7349) 30 avqust 2019

# İŞİD-in yeni lideri türkmən Abdullah Qardaş kimdir?

## ABŞ hökuməti onun ələ keçirilməsi üçün lazımi informasiyanı verəcək şəxsə 5 milyon dollar mükafat təyin edib

**İŞİD lideri Əbubəkr əl-Bağdadi öz yerinə xələfini təyin edib. Bəzi məlumatlara görə, Bağdadi 2018-ci ildə Suriyanın Deyr əz-Zor vilayətində hərbi əməliyyatlar zamanı ağır yaralanıb, bədəninin bir hissəsi iflic olub. Bu səbəbdən də İŞİD lideri öz xələfini müəyyən edib. Bu, İraq türkmənlərindən olan Abdullah Qardaşdır.**


Əbubəkr əl-Bağdadi    Abdullah Qardaş

Bağdadinin fərmanına əsasən, İŞİD lideri ölərsə, o zaman Abdullah Qardaş avtomatik olaraq İŞİD-in yeni lideri olacaq. Mənbələrin bildirdiyinə görə, Qardaş "Əl-Qaidə"nin liderlərindən olub, həmçinin İraqda Buka həbsxanasında zindan həyatı yaşayıb.

Türkmən əsilli Abdullah Qardaş 1976-cı ildə İraqın Mosul vilayətinə bağlı türkmən şəhəri olan Telaferdə dünyaya gəlib. Əsl adı Əmir Məhəmməd Səid əl-Mövladır. Qardaş Mosul Universitetində ilahiyyat təhsili alıb. Din dərsləri deyib. Bu səbəbdən də "ustaz", yəni ərəbcə müəllim kimi ləqəbi alıb. Daha sonra İraqda qurulan "Əl-Qaidə"nin yerli qanadına qoşulub və burada 2000-ci illərin əvvəllərində İŞİD-in gələcək lideri ilə həbsxanada tanış olub. Onun atasının Mosul məscidlərindən birinin imamı olduğu bildirilir.

"Əl Qaidə" terror təşkilatında fəaliyyət göstərmiş Qardaş sonralar İŞİD lideri Bağdadinin müavini Əbu Əlaa əl-Əfrinin adamı olub. İŞİD 2014-cü ildə İraqın Mosul şəhərini ələ keçirəndə Bağdadini təbrik edən ilk şəxs məhz Qardaş olub. 2016-cı ildə əl-Əfri həlak olduqdan sonra Abdulla Qardaş İŞİD liderinin "sağ əli"nə çevrilib.

İraq kəşfiyyatının rəsmiləri Qardaşı amansız terrorçu kimi xarakterizə edirlər. Eyni zamanda o da iddia olunur ki, bəzi İŞİD liderləri Qardaşı qorxaq, döyüş meydanından qaçan adam adlandırır. Ancaq ərəb mətbuatı Qardaşı küçə müharibələrinin əsas komandirlərindən biri adlandırır.

ABŞ hökuməti Abdullah Qardaşın ələ keçirilməsi üçün lazımi informasiyanı verəcək şəxsə 5 milyon dollar mükafat təyin edib. Abdullah Qardaş terrorçu fəaliyyətləri, eləcə də İraqda yezidi kürdlərə qarşı qətliamlara haqq qazandırmaq, İraq və Suriya bir sıra terror aktlarına rəhbərlik etməkdə ittiham edir.

Abdullah Qardaşın Məhəmməd Səid adlı oğlu və hazırda Türkiyədə yaşadığı güman edilən Adil Məhəmməd Səid adlı qardaşı var.

Bir sıra ekspertlərə görə isə Bağdadi Qardaşı özünə dəstək qazanmaq və ona qarşı olacaq tənqidləri azaltmaq üçün varis elan edib. Çünki 4 ildən çoxdur ardıcıl olaraq məğlubiyyət yaşayan İŞİD liderinin nüfuzu sürətlə azalır. Lakin Bağdadinin xələfinin səlahiyyətləri xeyli dərəcədə məhduddur. Belə ki, Bağdadi Qardaşa yalnız İraqdahansı ki, İŞİD hazırda orada yalnız kiçik qruplarla itirilmiş ərazilərini geri almaq adına müqavimət göstərir - silahlı mübarizə, təhsil, kənd təsərrüfatı kimi sahələri tapşırıb. Digər tərəfdən, Qardaş yerli iraqlı olduğu üçün onun gəlmələrlə münasibətlərində ciddi soyuqluq var. Onun əsas dəstəkçiləri yerli iraqlılardır. Bəlkə də Bağdadi məhz ağır məğlubiyyət daşıyan iraqlı terrorçuları öz yanında saxlamaq üçün türkmən əsilli Abdullah Qardaşa "stavka" edib.

Xatırladaq ki, bu il aprelin 29-da İŞİD lideri Əbu Bəkr əl-Bağdadinin 5 illik fasilədən sonra videosu yayılıb. Bundan əvvəl Bağdadi sonuncu dəfə 2014-cü ilin iyulunda görünüb. 2014-cü il iyunun 29-da Mosulda qədim məsciddə xütbə oxuyaraq xilafət elan edən İŞİD lideri sonrakı illərdə görünməmişdi. Ötən müddətdə isə Bağdadinin 5 dəfə "öldü" xəbəri yayılıb.

İŞİD liderinin "Teleqram" şəbəkəsində yayılan 18 dəqiqəlik video çoxlu sayda mesajlar və əlbəttə ki, qruplaşma üzvləri və tərəfdarlarında ruh yüksəkliyi yaratmaq üçün xüsusi hazırlanıb. Eyni zamanda bu video bir sıra mesajları ilə yadda qalıb.

Ancaq bundan sonra internetdə Bağdadinin əllərini tərpətdiyi, sənədləri çeşidlədiyi, tək əlinin göstərdiyi barmağı ilə tövhid əlaməti təsvir etdiyi videolar ortaya çıxdı. Ancaq sonuncu videoda diqqət çəkən məqam İŞİD liderinin əvvəlki kimi hərəkət etməməsi, davamçıları qarşısında dayanmadığı, yerdə oturması idi. Analitiklər terrorçunun dəri rəngindəki bir dəyişikliyi də qeyd edirlər - onun çox qırmızı üzü var, lakin qeyri-adi ağ əlləri var. Buna görə də bir sıra terror ekspertləri Bağdadinin ağır yaralı olduğu, hətta ayaq üstə gəzmək imkanında olmadığını bildirirlər.

İraq kəşfiyyatının məlumatına görə, Bağdadi hazırda Suriyadadır. Hazırda İŞİD liderini ona sadiq qalan üzvləri qoruyurlar. Ekstremistlərin liderinin əsas vəzifəsi təşkilat sıralarında parçalanmanın qarşısını almaq, həmçinin casuslarla mübarizədir.

Xatırladaq ki, 2014-cü ildə İraqın ikinci böyük şəhəri Mosulu işğal etdikdən sonra İŞİD lideri Mosulun min ildən çox yaşı olan qədim məscidində xütbə oxuyaraq "İslam Dövləti", xilafət elan edib. Bundan sonra isə o görünməyib. Ötən müddətdə 5 dəfə "öldü" xəbəri yayılan Bağdadi sağ qalmağı bacarıb. Bundan əvvəl isə onun öz yerinə iki dəfə "təyinat" olub.

Birinci dəfə 2014-cü ilin noyabrında İŞİD liderinin ölüm xəbərinin yayılmasından sonra Qərb mətbuatında Səddam Camal adlı İŞİD üzvünün qruplaşmanın yeni lideri seçilməsi haqqında xəbər yayılıb. Hətta mətbuatda Səddamın keçmiş narkotik alverçisi olduğu xəbərləri də yayılıb. Ancaq bu məlumat təsdiqini tapmayıb.

2015-ci ilin yayında isə növbəti dəfə İŞİD-in yeni liderinin seçilməsi xəbəri yayılıb. Həmin vaxt Əbu Ala əl-Afri ləqəbli, əsl adı isə Əbdürrəhman Mustafa əş-Şeyxlar olan şəxsin İŞİD-in yeni lideri elan olunduğu bildirilirdi.

Daha sonra məlum oldu ki, əl-Afri ləqəbli şəxsin əsl adı Mustafa Kaddodur. Mustafa Kaddo və ya əl-Afri Telafer şəhərində orta məktəbdə ilahiyyat dərsi deyib, eyni zamanda Telafer bazar meydanında məsciddə moizələr edib. Daha sonra "Əl-Qaidə"yə qoşulan əl-Afri sonradan İŞİD liderinin ən yaxın adamına çevrilmişdi. Ancaq əl-Afrinin İŞİD lideri seçilməsi xəbəri də təsdiqlənmədi, o, Bağdadinin əsas yardımçılarından biri kimi fəaliyyət göstərdi.

Bu mənada İŞİD liderinin yeni varisinin də diqqət yayındırmaq və təşkilat daxilində dəstək qazanmaq üçün seçildiyini demək olar.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**



## Trampın Rusiyada işləmiş ortağının kəşfiyyatla əməkdaşlığı üzə çıxdı

**ABŞ prezidenti Donald Trampın keçmiş biznes ortağı Feliks Seter Rusiyada işləyəndə Amerikanın xüsusi xidmət orqanları ilə əməkdaşlıq edib və onlara Rusiyanın raketdən müdafiə sistemi haqqında məlumatları ötürüb.**

Virtualaz.org Rusiya mətbuatına istinadən bildirir ki, bu barədə RBC Nyu-York dairə məhkəməsinə "Morgan Lewis» vəkil kontorunun hüquqşünasları tərəfindən göndərilən məktuba istinadən məlumat yayıb.

Həmin məktubda bildirilir ki, 1990-cı illərin sonlarında F. Seter Rusiyada "AT&T" telekommunikasiya şirkətində işləyib. İş adamı fırıldaqçılıq şübhəsi ilə axtarıldığını biləndə, Mərkəzi Kəşfiyyat İdarəsi və FTB ilə əməkdaşlıq etməyə başlayıb. Xüsusilə qeyd edilir ki, Seter ABŞ hakimiyyətinə Rusiyanın raketdən müdafiə sistemi barədə məlumatları əldə etməkdə kömək edib.

"Feliks Rusiya ilə əlaqələrindən istifadə edərək Rusiyada raketdən müdafiə sisteminin yerləşdiyi qapalı hərbi obyektlərdən birinə girib. Topladığı məlumatı ABŞ kəşfiyyatı zabitinə ötürüb", - deyə məktubda qeyd olunub.

Saterin hərbi bazaya necə daxil olmasının təfərrüatları, eləcə də bazanın adı məxfi saxlanılıb.

Rusiyadan ABŞ-a antiballistik raket sistemlərinin birbaşa tədarükü barədə rəsmi məlumat yoxdur. Ancaq Vaşinqtonun Rusiya S-300 sistemlərini Belarus (1990-cı illərdə) və Ukraynadan (2000-ci illərdə) aldığı bəllidir. Pentaqon vasitəçi şirkətlər vasitəsilə bu əməliyyatları həyata keçirib. ABŞ hakimiyyətinin bu zenit-raket komplekslərini almaqda məqsədi özünün raket sistemlərini təkmilləşdirmək üçün Rusiya texnologiyalarından istifadə etmək idi.

Feliks Seter (doğum adı - Feliks Şeferovski) 1966-cı ildə Moskvada anadan olub. Sonradan ailəsi ABŞ-a köçüb. O, Nyu-Yorkda "Street Broker" firmasını təsis edib. 1998-ci ildə Saterə qarşı fırıldaqçılıq maddəsi ilə cinayət işi qaldırılıb. 11 il sonra istintaqla əməkdaşlıq edən iş adamı 25 min dollar cərimə olunmaqla yüngül cəzalandırılıb. Sonra isə sahibkarlıq fəaliyyəti və daşınmaz əmlak sahəsi ilə məşğul olub. Seterin Donald Trampla ortaq layihələri haqqında məlumatların olması da diqqətdən yayınmayıb.

2018-ci ilin dekabr ayında CNN Trampın seçki kampaniyası dövründə Rusiya ilə əlaqələri olan ortaqlarının siyahısını dərc edib. Siyahıdakı 16 nəfərdən biri də Felek Seter idi...

# Xaricdən gətirilən mallar ölkədə bahalıq yaradır-ekspert

## İdxalın əvəzlənməsi proqramının əks effekti: İdxalın həcmi niyə ilbəil artır?

**Azərbaycan hökumətinin iqtisadi fəaliyyətinin prioritet istiqamətlərindən biri də idxaldan asılılığın azaldılması, ərzaq təhlükəsizliyinin təmin olunması və idxalın yerli istehsalla əvəzlənməsidir. Lakin son 1 ilin statistikasında biz idxal rəqəmlərinin artmasının şahidi oluruq. Yerli istehsalın, hətta ixracın artması ilə paralel olaraq idxal da artır. Bu artımı bəzi ekspertlər gömrük sistemində şəffaflığın təmin olunması və ölkəyə gətirilən bütün məhsulların dövlət qeydiyyatından keçməsi ilə əlaqələndirirlər. Lakin təbii ki, digər səbəblər də az deyil.**

Mövzunu "Yeni Müsavat" üçün şərh edən **iqtisadçı ekspert Vüsalə Əhmədova** bildirdi ki, idxalın əmtəə strukturuna nəzər salsaq, statistik göstəricilər üzrə bütün növ mallarda artımın müşahidə olunduğunu görərik: "Diri heyvan, ət və ət məhsulları, balıq və balıq məhsulları, süd məhsulları, quş yumurtası, təbii bal və heyvan mənşəli digər ərzaq məhsullarının idxalında davamlı artım müşahidə olunur. 2015-ci ildə 19 mln. 858 min ABŞ dolları məbləğində ət və əlavə ət qida məhsulları idxal olunmuşdusa, 2018-ci ildə bu rəqəm 70 mln. 75 min dollara yüksəlib. İribuynuzlu heyvan əti 2016-cı ildə 5 mln. 257,9 min ton (13 mln. 782,6 min ABŞ dolları) idxal edilmişdisə, 2017-ci ildə 9255,4 ton (26 mln. 472,6 min ABŞ dolları) idxal edilib. O cümlədən, quş əti, təzə və dondurulmuş balıq ətinin idxalında artım var. Ət və balıq konservlərinin idxalı 4607 tondan (2016-cı il) 5925 tona (2017-ci il) yüksəlib. 2016-cı ildə 5463 ton (8 mln. 34 min ABŞ dolları) süd və qaymaq idxal edilmişdisə, 2017-ci ildə bu rəqəm 8 mln. 872 tona (14 mln. 344 min ABŞ dolları) çatıb. Bütün bunlardan əlavə təzə meyvə və tərəvəz, qoz-fındıq, sitrus bitkiləri, toxum, taxıl, un və un məmulatları, süd məhsulları, qənnadı məmulatları, kakao, spirtli və spirtsiz içkilər, sirkə, duz və s. ərzaq məhsullarının idxalında artım olub".




**İqtisadçı ekspertin sözlərinə görə, Azərbaycanın kifayət qədər təbii imkanlarının olmasına baxmayaraq, kənd təsərrüfatı məhsullarının idxalının ildən-ilə artması təəssüf doğurur:** "Ət və ət məhsulları hər keçən gün bahalaşmaqda davam edir. Milyonlarla pullar xərclənərək Hollandiya, Afrika, Fransadan yeni cins iri və xırda buynuzlu heyvanlar gətirildi. Ancaq heç bir faydası olmadı. Digər tərəfdən də, milyonlarla manat sərf olunaraq ölkəyə aqrotexnika vasitələrinin gətirildiyi deyilir, ancaq yenə də fermerlər ən çox texnika çatışmazlığından əziyyət çəkirlər. Beləcə dövlət büdcəsinin vəsaiti havaya sovrulur. Azərbaycanın ümumi torpaq fondu 8,6 milyon hektar təşkil edir ki, bunun cəmi 50 faizi əkinə yararlı torpaq sahələridir. Torpaqların 40 faizi eroziyaya uğrayıb. Dövlət Statistika Komitəsinin hesabatında bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 2017-ci ildə cəmi 1665,7 milyon hektar təşkil edib. Respublika ərazisinin 3,240 milyon hektarı və ya 37,4 faizi istifadə olunmayan şoranlaşmış ərazilərdir. Kənd təsərrüfatında bütün işlər innovativ texnologiyaya əsaslanmalıdır ki, bu cür yararsız torpaqlar istifadə olunan vəziyyətə gətirilsin".

**V. Əhmədova ölkəyə buğda idxalının artmasından da danışaraq bunun yerli istehsalla əvəz edilməsinin vacibliyini vurğuladı:** "Dövlət Gömrük Komitəsinin məlumatlarında bu ilin birinci rübündə ölkəyə 518 min 704,31 ton buğda gətirilib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 27,5 faiz çoxdur. Kənd Təsərrüfatı Nazirliyi hər il taxıla olan tələbatın yerli istehsal hesabına ödəniləcəyini vəd etsə də, reallıq tam əksini göstərir. Taxıl idxalımız ildən-ilə artır. Azərbaycan əhalisinin illik ərzaq buğdasına olan tələbatı təxminən 1,7 milyon tondur ki, biz bu miqdarı tam olaraq yerli istehsal hesabına ödəyə bilmirik".

**İqtisadçı onu da vurğuladı ki, bazarda idxal məhsullarının həcminin artması bahalaşmanı şərtləndirən əsas faktorlardan biridir:** "Rəsmi statistikaya əsasən, 2019-cu ilin yanvar-iyun ayları üzrə ərzaq məhsullarında 2,7 faiz bahalaşma qeydə alınıb. Bir sıra ərzaq məhsullarında isə bahalaşma daha yüksəkdir. Məsələn, keçən ilin analoji dövrü ilə müqayisədə düyünün qiymətində 38%, kartofun qiymətində 133%, soğanın qiymətində isə 83% artım baş verib. O cümlədən meyvə və tərəvəzlərin qiymətlərində kifayət qədər yüksəlmə qeydə alındı. Bu cür bahalaşmanı aqrar məhsulların istehsal xərcinin olduqca yüksək olması, daşınma xərclərinin çox olması, süni qiymət artımı ilə əsaslandırmaq olar. Hazırda ölkəmizin kənd təsərrüfatı sektoru suvarma suyunun çatışmazlığı, saxlayıcı anbarların azlığı, tədarük məntəqələrinin olmaması, məhsul satış bazarında yaradılan inhisar, fermerlərin istehsal və satış sahəsində qarşılaşdıqları süni maneələr, münbit torpaq sahələrinin azlığı, texnika çatışmazlığı, xaricdən alınan aşağı keyfiyyətli gübrələr və sair kimi problemlərlə qarşı qarşıyadır".

**Vüsalə Əhmədovanın sözlərinə görə, ölkəmizdə insanların qida rasionunda ət və ət məhsullarının xüsusi yeri var, bu səbəbdən də ilk öncə ölkənin heyvandarlıq sahəsi üzrə problemləri həll olunmalıdır:** "Bu sektora xüsusi makro yanaşma, uzunmüddətli rasional inkişaf strategiyası formalaşdırmaq tələb olunur. Heyvandarlıq sektorunun əsas problemi, yemdir hansı ki, xərclərin 70 faizə yaxın hissəsini təşkil edir. Yem üçün otlaq və yem bitkiləri sahələri yaradılmalıdır. Danılmaz faktdır ki, Avropa ölkələrindən fərqli olaraq ölkəmizin əksər bölgələrində quraqlıq hökm sürür, bunun üçün də otlaqların təkmilləşdirilməsi və idarəetmə təcrübəsi öyrənilməlidir. Yonca və s. yem bitkilərinin otlaq sahələri genişləndirilməli, yem xərclərinin maliyyələşdirilməsi tələb olunur. Kiçik ölçülü heyvandarlıq müəssisələri qurulmalı, bu sahədə fəaliyyətə başlayacaq gənclərə və ailə müəssisələrinə qrantlar ayrılmalı, avadanlıqlardan ortaq istifadə təmin olunmalıdır. Sovet dönəmindəki kimi qoyunçuluq və maldarlıq bölgələri fərqləndirilməməli, əksinə, qarışıq heyvandarlıq təşviq edilməlidir. Çobanlıq və heyvan baxıcılığı ilə məşğul olan peşəkar müəssisələrin qurulması məqsədəuyğundur".

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**

# İlin 8 ayının iqtisadi və siyasi yekunu

## Neftin qiyməti, yüksək kredit faizləri, siyasətdə süstlük...

**2019-cu ilin 8 ayı geridə qalmaq üzrədir. Bu il Azərbaycanda sosial islahatlarla başladı, əmək haqqı və pensiyalarda artımlarla bağlı qərar verildi. Bu artımların davamlı olacağı da anons edildi. Daha sonra minimum əmək haqqı 250 manata çatdırıldı. Digər tərəfdən, ötən 8 ayda problemli kreditlərlə bağlı kompensasiyalar ödənildi, qalan kreditlərin restruktruzasiya prosesi davam edir.**



Bütün bunlarla yanaşı, ölkə iqtisadiyyatında bir çox problemlər qalmaqdadır, neftdən asılılıq kəskin şəkildə davam edir. Kənd təsərrüfatı məhsullarının qiymətinin baha olması bu il əhalini narahat edən əsas problemlər sırasında oldu. Manatın məzənnəsi sabit qalsa da, maliyyə sektorunun problemləri həllini tapmadı. Xüsusən də istehlak kreditlərinin faiz dərəcələrinin yüksək olması, biznes kreditlərinin ümumi kredit portfelində çox kiçik yer tutması, real sektorun biznes kreditlərindən yararlanma imkanlarının məhdudluğu da ənənəvi olaraq davam edir.

İqtisadçı ekspertlər də ötən 8 ayda əhalinin maddi rifahının gücləndirilməsi istiqamətində atılan addımları vurğulamaqla yanaşı, iqtisadiyyatın fundamental problemlərinin həlli ilə bağlı görülən işlərin yetərli olmadığını və islahatların davan etməsinin zəruriliyini vurğuladılar.

**İqtisadçı ekspert Natiq Cəfərlinin sözlərinə görə, dünyada baş verən ticarət və valyuta müharibələri, o cümlədən buna bənzər gərginliklər neft qiymətləri ilə özünü göstərir:** "Avqust ayı məhz ötən aylarla, ilin əvvəli ilə müqayisədə yüksək olan neft qiymətlərinin 60-62 dollara enməsi ilə əlamətdar oldu. İlin əvvəlində bu qiymət 70 dollar ətrafında idi. Neftin 60 dollarlıq qiyməti hələ ki təhlükə deyil. Çünki dövlət büdcəsində də neftin qiyməti 60 dollardan hesablanıb".

**İqtisadçının sözlərinə görə, daxildə baş verən hadisələrdən əsasən Mərkəzi Bankın uçot dərəcəsini azaltması yadda qaldı, ancaq təəssüf ki, bunun iqtisadiyyata ciddi təsir mexanizmi yoxdur:** "Dünyanın hər bir ölkəsində Mərkəzi Bank uçot dərəcəsini aşağı salan kimi iqtisadiyyatda dinamik hadisələr baş verir. Ancaq Azərbaycan iqtisadiyyatı institutlaşmadığı üçün Mərkəzi Bakın bu addımının iqtisadiyyata güclü təsirinin olduğunu söyləmək mümkün deyil. İlin əvvəlində kredit faizləri necə yüksək idisə, hələ də o cür yüksək olaraq qalır. Bu da iqtisadiyyatı zəiflədən amillərdən biridir".

**Cari ilin geridə qoyduğumuz dövründə baş verən siyasi hadisələri dəyərləndirən politoloq, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə bildirdi ki, bu il də Dağlıq Qarabağ münaqişəsinin həllində də heç bir irəliləyiş olmadı:** "Dünyanın bir çox nöqtəsində siyasi və hərbi münaqişələr davam edir. Avrasiya bölgəsindəki müharibələr, Suriyada, Yəməndə, İsrail-Fələstin müharibəsində də irəliləyiş olmadı. Ötən ildə başlayan gərginliklər davam edir. Bizim bölgədə, o cümlədən Dağlıq Qarabağ münaqişəsində heç bir irəliləyiş olmadı. Əksinə, biz görürük ki, Ermənistanın baş nazirinin mövqeyi getdikcə sərtləşir. Halbuki Paşinyana ilk vaxtlar müəyyən ümidlər var idi, bəlkə o, Sərkisyandan bir qədər fərqlənər, bu işğalın Ermənistana baha başa gəldiyini anlayaraq hansısa uzlaşmaya gələr. Ancaq görürük ki, yox, belə deyil, əks şüarlar səsləndirirlər ki, Qarabağı Ermənistana birləşdirmək lazımdır. O baxımdan mən hesab edirəm ki, münaqişəni sülh yolu ilə həll edə bilməyəcəyik. Yeganə həll yolu düşmənə təzyiqi artırmaqdır. Bu il Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gözləntim yoxdur. Diplomatik danışıqlarda təzyiqi artırmalıyıq".

**Politoloqun sözlərinə görə, ilin sonunaa seçki gözlənilsə də, elə bir aktivlik müşahidə olunmur:** "Bu ilin sonunda ölkədə bələdiyyə seçkiləri olacaq, ancaq elə bir seçki canlanması müşahidə olunmur. Gələn il parlament seçkiləridir, ola bilər ki, biz bu seçkilərdə bir qədər siyasi canlanmanın şahidi olaq. İqtisadi proseslərə gəldikdə isə bu il devalvasiya olmadı, manat dəyərini qoruyub saxladı, ancaq qiymət artımı əhalini narahat edir".

❑ **Nərgiz LİFTİYEVA**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 179 (7349) 30 avqust 2019

# Milyonluq xəzinə və dəfinələr tapan alimdən şok açıqlamalar

## Tarix elmləri doktoru Qafar Cəbiyev: "Rəsmi şəxslər də qızıl axtarışına çıxır"

**Vaxtaşırı tez-tez bölgələrimizdə qızıl, yaxud digər qiymətli əşyalarla dolu dəfinə tapıldığı haqda xəbərlər eşidirik. Heç də gizlin deyil, istənilən şəxs qarşısına nə vaxtsa xəzinə, dəfinə çıxmasını arzulayır. Hansı ki, bu xəzinələr qədim zamanlarda kimlər tərəfindənsə torpağa, qəbirlərin ətrafında basdırılıb, evlərin divarlarına hörülüb. Bu səbəbdən tez-tez şayiələrə uyub ərazilərdə Çingiz xanın, Teymurləngin, Makedoniyalı İskəndərin xəzinəsinin axtarışına çıxanlar var. Bəs xəzinələr harada gizlədilə bilər?**

*Həqiqətən Azərbaycan torpaqlarında adları qeyd olunan hökmdarların xəzinəsi gizlədilə bilərmi? Xəzinə və dəfinələri hansı şəraitdə, hansı əlamətlərlə aşkar etmək olar? Bu və ya digər məsələlərlə bağlı Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqu tarixçi alim, tarix elmləri doktoru Qafar Cəbiyev "Yeni Müsavat"a danışıb. Qeyd edək ki, Q.Cəbiyev Azərbaycanda indiyə qədər ən böyük qızıl dəfinəsini tapan və dövlətə təhvil verən ilk arxeoloqdur:*

***- Qafar müəllim, xəzinələr əsasən hansı bölgələrdə aşkar edilir?***

- Xəzinə axtarışı mövzusu hər kəsin maraq dairəsində olan məsələdir. Ümumiyyətlə, Azərbaycan ərazisində xəzinə axtarışı 19-cu əsrin sonlarından başlayaraq geniş vüsət alıb. O illərdə Qarabağda, Daşkəsəndə, Naxçıvanda, Gədəbəy və Lənkəranda qızılaxtaranlar xüsusi fəallıq göstərib. Onların demək olar ki, hamısı xarici ölkə vətəndaşları olub. Bu illərdə qalalardakı kurqanlar, daş heykəllər çox ciddi dağıntılara məruz qalıb. Əldə olan tapıntılar isə təbii ki, xarici ölkələrə, o cümlədən ABŞ, Fransa, İsveç, Hollandiyaya aparılıb. Ən təəssüf doğuran hal odur ki, daşınan xəzinələrin çox hissəsi Azərbaycan xalqının mədəni irsi kimi deyil, əcnəbi, yad ölkələrin, xalqların adına rəsmiləşdirilib. Bu gün də əcnəbi muzeylərdə həmin nümunələr Azərbaycanın tarixi-mədəni yadigarları kimi təqdim olunmur. 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində qızılaxtaranlar xüsusən də Şirvan bölgəsinə daha çox maraq göstəriblər. Şamaxı ərazisində intensiv axtarışlar olub. O zaman guya Şamaxı ətrafında Makedoniyalı İskəndərin xəzinəsinin saxlanıldığı barədə şayiələr yayılırdı. Sadə məntiqlə yanaşanda Makendoniyalı İskəndərin ayaq basmadığı yerdə onun xəzinəsini axtarmaq təbii ki, cəfəngiyyat idi. Təəssüf ki, bu adla həmin zaman nə qədər tarixi abidələrimiz məhv edilib, dağıdılıb. Sonralar araşdıranda məlum olub ki, bu məsələlərdə daha çox ermənilərin "barmağı" olub. Məqsəd təkcə qızıl, əntiq əşyalar tapmaq deyil, Azərbaycanın tarixi abidələrinin sıradan çıxarılması, məhv edilməsi olub.

Belə bir hadisə ötən əsrin 80-ci illərində Qəbələdə baş verdi. Belə ki, şayiə yayılmışdı ki, guya rayonun Vəndam kəndinin yaxınlığında, Girvə deyilən ərazidə Teymurləngin 25 dəvə yükündə xəzinəsi gizlədilib. Bu şayiəni ilkin yayan adam Sabir Əhmədov adında polis əməkdaşı olub. Psixi pozğunluğu olduğu üçün onu işdən azad etmişdilər. Görünür, Girvədə kimsə 1-2 qızıl sikkə tapıb, düşünüb ki, böyük xəzinə var.

İnsanlar zaman-zaman qızılların, dəyərli əşyalarını güman gəlməyən yerlərdə gizlədib. Gizlədilmiş xəzinə də kiminsə əlinə düşəndə sanır ki, həmin ərazidə daha böyük xəzinə var. Beləliklə də Sabir Əhmədov Vəndam kəndinin bütün cavanlarını səfərbər edib, uzun müddət ərazini ələk-vələk edib, qızıl axtarıb. Guya 18 metr dərinlikdə xəzinə var. O zamanlar bu haqda mənə yazmışdılar və akademiyanın rəhbərliyi məni həmin əraziyə səfərbər etdi. Getdim, vəziyyətlə tanış oldum, araşdırmalar apardım, mətbuatda da çıxış etdim ki, bu yalnız şayiədir. Bundan sonra həmin məsələ bağlandı. Lakin illər sonra AXC dövründə bu məsələ yenidən gündəmə gəldi və müəyyən dairələr, hətta o zaman Milli Təhlükəsizlik Nazirliyinin xətti ilə həmin ərazidə geniş axtarışlar başladıldı, çoxlu sayda texnikalar cəlb edildi, uzun işlər aparıldı. Sonda nəticə də bu oldu ki, 18 metr dərinliyə düşəndən sonra orada yalnız bir bulaq çıxdı. Amma mən illər öncədən qeyd etmişdim ki, həmin ərazidə heç bir dəfinədən söhbət gedə bilməz. Olsa-olsa həmin ərazidə qızıl mədənləri çıxa bilər, amma dəfinə ola bilməz. Sonrakı hadisələr də onu göstərdi ki, bu məsələ kimlərsə tərəfindən ortalığa atılmış cəfəngiyyatdır.

***- Sabir Əhmədovdan söz açdınız, deyilənə görə, həmin şəxs ailə həyatı da qurmayıb və ömrünün son günlərinə qədər yalnız qızıl axtarıb, heç bir sikkə də tapa bilməyib.***

- Onun tərcümeyi-halını o qədər bilməsəm də, məlumat var idi ki, psixi problemləri olduğu üçün polis orqanlarından xaric olunub. O da durduğu yerdə qızıl axtarışına çıxmayıb. Təsadüfən həmin ərazidə nə vaxtsa kiminsə qarşısına qızıl çıxıb, sonra da dəfinə haqqında şayiə yayılıb. Həmin ərazidə yalnız dağlar və daşlardır. Kimsə orada ola bilsin ki, özünə məxsus qızılı şüşə qabda və yaxud kisədə gizlədib, yeri yadından çıxıb, illər sonra insanların və yaxud vəhşi heyvanların təsiri, hərəkəti nəticəsində üzə çıxıb, adamların əlinə keçib. Nə tarix boyu, nə də müasir dövrdə insanlar heç vaxt özlərinə məxsus qiymətli əşyaları diqqət cəlb edən, görünən yerdə gizlətmir.

Qeyd edim ki, bu günə qədər Qəbələ rayonunda çoxlu sayda dəfinələr tapılıb. Qəbələdə arxeoloji ekspedisiya işləyərkən böyük dəfinə tapılmışdı. Həmin dəfinədə 700 ədəddən çox gümüş sikkələr, pullar çıxmışdı. Hansı ki, onlar Makedoniyalı İskəndərin buraxdığı sikkələr idi. Onların arasında M.İskəndərin buraxdığı pullara bənzər yerli Alban pulları da var idi. Halbuki Strabon yazırdı ki, albanlar pul tanımır, insanlar natural mübadilə ilə alış-veriş edirlər. Bu pullar ortalığa çıxanda qənaətə gəlindi ki, xeyr, Strabon bu məsələdə haqlı deyilmiş, Albaniya əhalisi də ticarətdə puldan istifadə edirmiş. Təkcə əcnəbi pullar deyil, özlərinin də istehsal etdikləri puldan dövriyyədə istifadə ediblər.

***- Qafar müəllim, bəs siz özünüz bu günədək nə qədər dəfinə tapmısınız? Onların arasında ən dəyərlisi hansı olub?***

- Ümumiyyətlə, dəfinələrin hamısı dəyərlidir. İlk tapdığım dəfinə 2010-cu ildə olub. Həmin ildə Ağsuda apardığımız tədqiqatlar zamanı çox dəyərli dəfinə aşkar etmişdik. Belə ki, Muradxan kəndi yaxınlığında ekskavator qazıntı işləri apararkən küp çıxmışdı. Bizə məlumat verildi ki, küpün içərisində göyərmiş nümunələr var, lakin onun nə olduğu bilinmir. Bildirdim ki, onu dərhal götürüb, etibarlı yerdə saxlayın. Həmin əraziyə getdim və araşdırma apardım. Bildirim ki, adətən mis pullar korroziyaya uğrayaraq, göyərir. Həmin pulları tərəzidə çəkdik, 5470 qram gəldi. Hiss etdim ki, ekskalatorun yanında olan şəxslər bir neçə xırda sikkələri qopardıblar, üzərinə döyüblər, onun qızıl olub-olmadığını öyrənməyə çalışıblar. Sonradan bir-birinə yapışan sikkələri araşdırdıq, məlum oldu ki, 1133 ədəd sikkə var. Onları təmizləyərkən aydın oldu ki, hamısı gümüş sikkə imiş. Sadəcə, əyyarı bir qədər aşağı olduğundan nəmişlikdən göyərib və mis pul təsiri bağışlayıb. Bu dəfinə tarixə "Muradxan dəfinəsi kimi" düşdü. Həmin dəfinədə olan pulların ən cavanı 1460-61-ci illəri, yəni Şirvanşahlar dövrünü əhatə edir. Çox maraqlıdır ki, onlardan biri Ərdəbildə, ikisi Qəbələdə, 20 ədədi Bakıda, digərləri isə Şamaxı və Dərbənddə zərb olunub.

İkinci dəfinəni də Ağsuda apardığımız tədqiqatlar sayəsində tapdıq. Orada "Sənətkarlar məhəlləsi" deyilən ərazidə mis pullardan ibarət dəfinə aşkarladıq. Həmin ərazidə sonradan qızıl və gümüş pullardan ibarət dəfinə tapdıq. Qızıl pullar 37 ədəd idi və 1781-85-93-96-cı illəri əhatə edirdi. Həmin sikkələr o dövrdə Avropada və dünyada yayılmış ən qiymətli pullar hesab olunurdu. Bütün beynəlxalq ticarət, hərbiçilərin ezamiyyətə göndərilməsi və digər məsələlər bu pulla həyata keçirilirmiş.

***- Necə müəyyən edirsiz ki, filan ərazidə dəfinə ola bilər?***

- Heç kəs dəfinənin harada ola biləcəyini dəqiq müəyyən edə bilməz. Bu çox dəqiq, ciddi söhbətdir. Çünki dəfinələri kimsə gizlədib basdıranda, onu xəritədə qeyd etmir, rəsmi işarə qoymur. Dəfinələr əsasən təsadüflər nəticəsində, məsələn, yer qazarkən, qazıntı işləri apararkən, təbii hadisələr baş verərkən, sel suları xəndəklər açarkən üzə çıxır. Ona görə də Azərbaycanda 1915-ci illərdə arxeoloji ekspedisiyalar fəaliyyət göstərir. Arxeoloji ekspedisiyaların xətti ilə yeganə olaraq mən qızıl tapmışam. Ola bilsin ki, kimlərsə qeyri-rəsmi qaydada haradasa, nəsə tapır. Əvvəllər olduğu kimi, bu gün də qeyri-rəsmi olaraq qızıl axtaranlar var. Əfsuslar olsun ki, müasir cihazlar vasitəsilə şübhəli yerləri axtarır, orada qazıntı işləri aparırlar. Məlumat üçün bildirim ki, monitorinqlər aparılsa məlum olar ki, Azərbaycanın bütün ərazilərində gizlin qızıl axtarışına çıxanlar var. Bu və ya digər axtarışlarda qəbirlər qazılır, kurqanlar dağıdılır. Yaxşı olardı ki, aidiyyəti orqanlar bu məsələnin üzərinə düşsün. Bu işlərlə məşğul olanların əhatə dairəsi o qədər də geniş deyil. Ayrı-ayrı rayonlarda axtarış aparanlar demək olar ki, eyni adamlar olur, onlar demək olar ki, bu işdə peşəkarlaşıblar. Onların dairəsini müəyyən etmək lazımdır.

***- Dəfələrlə eşidirik ki, guya Çingiz xanın məşhur xəzinəsi Azərbaycanda gizlədilib. Bu ehtimallar nə qədər doğru ola bilər?***

- Bu yaxınlarda sosial şəbəkələrdə bu barədə məlumat yayılmışdı. Hətta Goranboyun Tapqaraqoyunlu kəndindən mənə görüntülər göndərmişdilər. Orada qədim Tunc dövrünə aid bir kurqan var. Rəsmi şəxslərin iştirakı ilə texnikadan istifadə edərək həmin kurqan dağıdılıb. Çünki orada qızıl axtarırdılar. O kurqan elmi cəhətdən öyrənilməli idi, amma dağıdıldı.

***- Dəfinə tapan şəxsə dövlət hansı dəyərdə mükafat verir? Məsələn, dünya təcrübəsində dəfinə tapan şəxs həmin dəfinənin dəyərinin 50 faizi qədər pul mükafatı alır. Bizdə bu məsələ necə tənzimlənir?***

- Ayrı-ayrı ölkələrdə bu məsələ başqa cür həll olunur. Lakin Azərbaycanda qanunvericiliyə əsasən tapılan dəfinə dəyərləndirilir və ona əsasən müəyyən faiz qədər şəxsə mükafat verilir. Amma bu təsadüfən dəfinə tapan şəxslərə aiddir. Tutaq ki, mən çöldə arxeoloq kimi tədqiqat işi aparıram, bu zaman xəzinə tapanda onu gətirib dövlətə təhvil verirəm, bunun müqabilində müəyyən mükafat verirlər. Məsələn, qızıl sikkələr tapanda mənə mükafat verilmədi. Sadəcə, Elmlər Akademiyasının 2013-cü ildə bir sərəncamı oldu. Həmin sərəncam dəfinə tapmış arxeoloqlar barəsində idi. Həmin sərəncamda yazılıb: "2012-ci ildə Milli Elmlər Akademiyası (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun Ağsu arxeoloji ekspedisiyası apardığı qazıntı işləri zamanı qədim dəfinə tapılıb. Dəfinədə 18-ci əsrə aid 37 qızıl sikkə var. Böyük tarixi-elmi əhəmiyyəti olan bu tapıntı tarix üzrə elmlər doktoru Qafar Cəbiyevin rəhbərlik etdiyi ekspedisiyanın apardığı araşdırmalar nəticəsində aşkarlanıb. Tapılan nümunələr qanunvericiliyə əsasən qorunmaq məqsədilə Milli Azərbaycan Tarixi Muzeyinin Qızıl Fonduna təhvil verilmişdi. Əsl alim və vətəndaş mövqeyini nümayiş etdirən alimlərimizin əməyinin dəyərləndirilməsi məqsədilə Qafar Cəbiyevəyə onun rəhbərlik etdiyi arxeoloji ekspedisiyanın üzvlərinə Akademiyanın Rəyasət Heyəti adından təşəkkür elan edilsin".

Arxeologiya və Etnoqrafiya İnstitutuna tapşırılsın ki, ekspedisiya rəhbərliyi və üzvlərinin mükafatlandırılması təmin edilsin".

Həmin tapıntıdan şəxsən mənə və ekspedisiya üzvlərinə heç bir şey çatmadı. Belə hallar olur. Amma əsas olan bu deyil, əsas odur ki, tapırsan, gətirib dövlətə təhvil verirsən və bunun mənəvi tərəfi insana bəs edir. Qızıl dəfinəni tapandan bir həftə sonra eşitdim ki, köhnə tanışlardan biri hay-harayla məni axtarır. Dedi ki, belə bir şey eşitmişəm, doğrudurmu? Təsdiqlədim ki, bəli, doğrudur. Dedi ki, "Sənə nə deyim... Sənin tapdığınlara indi qara bazarda 1 milyon dollar təklif edirlər". Dedim ki, o 1 milyon dolları alıb necə yaşayacaqdım? Ömür boyu vahimə, qorxu içərisində yaşayacaqdım. Amma təhvil vermişəm və buna görə çox rahatam...





"Dedilər sən tapdığın qızıllara "qara bazar"da 1 milyon dollar verilir"

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 66 (7236) 20 mart 2019

**Son 2 gündə ölkənin müxtəlif rayonlarında keçirilən toy mərasimlərində 100-ə yaxın vətəndaş zəhərlənib. Toy mərasiminin kütləvi zəhərlənmə mərasiminə çevrilməsi İsmayıllı rayonunun Qəzli qəsəbəsində olub. Bu haqda Baş Prokurorluq və Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi birgə məlumat yayıb.**

# Toylar zəhərlənmə mərasiminə çevrilir - səbəblər

## AQTA: "Hadisə ilə bağlı araşdırmalara başlanılıb, nəticələr barədə ictimaiyyətə məlumat veriləcək"



Məlumatda deyilir ki, Qəzli qəsəbə sakini Müşfiq Hüseynovun yaşadığı evin həyətində oğlu üçün təşkil etdiyi kiçik toy məclisində iştirak edən şəxslərdən 33 nəfəri (13-ü qadın, 10-u yetkinlik yaşına çatmayan) qida zəhərlənməsi diaqnozu ilə müalicə müəssisələrinə müraciət edib. Rayon polis şöbəsi və prokurorluğunun, eləcə də Qida Təhlükəsizliyi Agentliyinin Şamaxı Regional bölməsinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə baxış keçirilib, nümunələr götürülərək laborator müayinəsinə göndərilib.

Fakta bağlı rayon polis şöbəsində Cinayət Məcəlləsinin 200.3-cü (bilə-bilə pis keyfiyyətli məhsulların istehsalı, satışa buraxılması və ya belə məhsulların satışı, onların keyfiyyətsiz olmasının gizlədilməsi ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. İş üzrə insanların zəhərlənmə səbəblərinin və digər halların müəyyənləşdirilməsi məqsədi ilə müvafiq ekspertizalar təyin edilib. İlkin araşdırmalarla müəyyən olunub ki, səhhətləri pisləşmiş şəxslər dərhal rayon mərkəzi xəstəxanasına müraciət etmiş və ilkin tibbi yardım göstərilərək evə buraxılıblar.

Hazırda iş üzrə Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssisləri cəlb edilməklə təqsirkar şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq hərəkətləri davam etdirilir.

Son zamanlar bir neçə toyda kütləvi zəhərlənmə qeydə alınıb. Bunlardan biri Şəki şəhərində baş verib. Toyda iştirak edən qonaqlardan 54-ünün xəstəxanaya müraciəti ilə bağlı cinayət işi başlanıb. Bu barədə avqustun 28-də Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və Baş Prokurorluq birgə məlumat yayıblar.

AQTA toy məclisində verilmiş ayrı-ayrı qida məhsullarından nümunələr götürüldüyünü bildirir. Eləcə də deyilir ki, Cinayət Məcəlləsinin 200.3-cü (bilə-bilə pis keyfiyyətli məhsulların istehsalı, satışa buraxılması və ya onların keyfiyyətsiz olmasının gizlədilməsi - ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına zərər vurulmasına səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Toyların kütləvi zəhərlənmə mərasimlərinə çevrilməsi cəmiyyətdə ciddi narahatlıq doğurub. İnsanların toylardan xəstəxanalara aparılmasının səbəbləri hazırda aparılan istintaqla müəyyən olunacaq.

Mütəxəssislər qida zəhərlənməsini əsasən təamların saxlama qaydalarının pozulması ilə bağlayır. Deyirlər ki, kütləvi şənliklər üçün hazırlanan yeməklər - böyük miqdarda ət, toyuq, balıq, tərəvəz soyuducu kameralardan kənarda saxlanır. Bazarlardan alınan meyvə-tərəvəzin hələ satışa çıxmazdan əvvəl, bağlarda ikən zərərvericilərə qarşı xüsusi dərmanlarla, zəhərli preparatlarla işləndiyinin fərqinə varmırlar və təmiz yuyulmur. Bu da zəhərlənmələrə yol açan amillərdəndir.

**İqtisadçı Həsən Məmmədli deyir ki, yay mövsümündə yeməklərin tez xarab olması çox vaxt nəzərə alınmır, bu da son nəticədə xoşagəlməz vəziyyət yaradır:** "Toy mərasimi üçün hazırlanan yeməklər qaydalara riayət edilmədən, gigiyenik şərtlərə məhəl qoyulmadan saxlanılır. Müvafiq qablaşdırma olmadan servis edilir. Bu da son nəticədə zəhərlənməyə gətirib çıxarır. Alüminium materialdan olan qablarda, qazanlarda yeməklərin uzun müddət saxlanılması zəhərlənmə riskini artırır. Çünki alüminium tez bir zamanda bişirilən qida ilə reaksiyaya girir və zəhərlənmə üçün münbit şərait yaranır. Buna görə də Qida Təhlükəsizliyi Agentliyi vaxtaşırı ictimai-iaşə obyektlərindən nümunələr götürərək yeməklərin tərkibini, keyfiyyətini yoxlamalıdır.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qabaqlar adətən bu cür kütləvi zəhərlənmələrin ictimailəşdirilməməsinə cəhd göstərildiyini söyləyir. Bunu da vaxtilə Səhiyyə Nazirliyinin məhsula sertifikat verməsi ilə izah edir:** "Düşünürəm ki, bir-iki ilə yenə zəhərlənmələr gizlədiləcək. Qida zəncirində iştirak edənlər, yəni qidanın istehsalı, daşınması və s.-də iştirak edən qurumlar AQTA-da rüsum ödəməklə qeydiyyatdan keçməlidirlər. Sabah zəhərlənmə olanda restoran sahibi həmin sertifikatı agentlik əməkdaşının qabağına qoyacaq ki, bunu sən vermisən. AQTA həm yoxlama aparır, həm də sertifikat verir, iki funksiyanın bir əldə cəmləşməsi ciddi problemdir, maraqların toqquşmasına gətirib çıxarır".

E.Hüseynov bunu da xatırladır ki, bir neçə il qabaq rəsmi qurumlar şadlıq evləri, restoranlarla bağlı standart hazırlasa da, buna əməl edən azdır. O, bunun səbəbini dövlətin istehlakçı siyasətinin yarımtazlığı ilə əlaqələndirir. Üstəlik də, bazarın təhlükəli mallarla dolduğunu vurğulayır. Məsələn, AİB sədri bugünlərdə tərkibi, istehsalçısı məlum olmayan limonadlarla bağlı AQTA rəhbərliyinə müraciət etdiyini bildirir. Yeri gəlmişkən, E.Hüseynov bu içkilərin şadlıq saraylarında da süfrəyə verildiyini söyləyir.

E.Hüseynov bu duruma görə AQTA rəhbərliyini günahlandırır, işində şəffaflıq olmadığını iddia edir.

**❑ E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# Bayıl yamacı xarabalığa çevrilib: ərazidə siçovullar, küçə itləri dolaşır...

## Sürüşmə zonasında yerləşən evlərin əksəriyyəti sökülüb; kiçik mənzilləri olan sakinlər isə gözləmə mövqeyindədir

**"Yeni Müsavat"ın əməkdaşı Bayılda, "Teleqüllə" ətrafında yerləşən sürüşmə zonasında olub, oradakı vəziyyətlə maraqlanıb. Müşahidə etdik ki, ərazidə demək olar ki, sökülməyən ev qalmayıb. Yalnız bir neçə yarımçıq tikiliyə bənzər ev qalıb ki, onların da qapıları sökülməsi üçün nömrələnib. Bu yarımçıq evlər xarıcində əvvəlki ərazidən yalnız sökülən evlərin daşları, tör-töküntüləri qalıb...**



Əvvəlcə bildirək ki, bu ilin mayında yayılan rəsmi məlumata görə, Azərbaycan Nazirlər Kabineti Bakının Səbayel rayonu, Bayıl sürüşmə zonasında yaşayan sakinlərin köçürülməsi üçün 9 201 533 manat vəsait ayırıb. Qeyd olunub ki, həmin ərazidə 98 ailə məskunlaşıb, onlardan 6-sı 2018-ci ildə köçürülüb, 92 ailədən 27-si məcburi köçkün ailəsidir:

"Maddi yardım hər bir ailəyə 35 min manatdan az olmayaraq ödəniləcək. Vəsait ailələrin bank hesablarına köçürüləcək. Evlərin sökülməsi, abadlıq işlərinin aparılması üçün də 250 min manat vəsait nəzərdə tutulub. Maddi yardım alan məcburi köçkünlərlə bağlı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə məlumat veriləcək ki, nəzərə alınsın. Gələcəkdə ərazidə tikinti işlərinin aparılmasına ciddi nəzarət olunacaq, bu cür hallara yol verilməyəcək", - məlumatda bildirilib.

Sürüşmə zonası kimi tanınan ərazidə sökülən evlərin arası ilə yuxarı qalxdıqda, səni çirkab sular, qırılmış telefon xətləri, sallanan qaz boruları müşayiət edir. Bəzi ərazilərdə isə ağzı açıq qalan borulardan kimsəsiz əraziyə gecə-gündüz su axır. Bu barədə ərazidə yaşamağa davam edən sakinlər də şikayətləndilər.

"Teleqüllə"yə yaxınlığına görə birinci və ikinci cərgədə olan evlər sürüşmə xəttinə düşdüyü üçün hamısı sökülür. Ancaq üçüncü cərgə həmin xəttə aid edilmədiyi üçün onlara köçürülmə ilə bağlı heç bir söz deyilməyib. Bu ərazidə yaşayan sakinlər bildirdilər ki, yuxarıdan axan kanalizasiya suları onları da narahat edir. Onlar bildirir ki, gecə vaxtı ərazidə həşəratların, ağcaqanadların əlindən tərpənmək olmur.

**Hələ ərazidə yaşamağa davam edən sakinlər söylədilər ki, köçürülən ailələrin əksəriyyəti verilən kompensasiyadan razı qaldı. Narazı olanlar isə evlərində yaşamağa davam edirlər. Həmin şəxslər adətən azkvadratlı mənzili olan ailələrdir. Hansı ki, yuxarıda da qeyd etdiyimiz kimi, gecəqondu formasında 2 otaqlı kiçik tikili ucaldıb, orada yaşayırlar. Kompensasiya ilə bağlı "Yeni Müsavat"a danışan sakin Elməddin Muradlı aşağıdakıları söyləyib:**

"Yaşayış yerlərinə 1000 manat hesablanır, zirzəmilərin, köməkçi tikililərin isə qiyməti başqadır. Həyətə isə ümumiyyətlə, pul vermirlər. Bütün bunlara ümumi yanaşanda evin hər kvadratına təxminən 600-700 manat kompensasiya düşür. Kiçik evlərə verilən vəsaitin məbləği aşağı olduğu üçün ailələr narazılıq edir. Yerdə 10-15 faiz müəyyən evlər qalır ki, onların da kommunal xətlərində problemlər var. Ətraf evlər söküldüyü üçün sökülməyən evlərdə yaşamaq çətindir. Ərazidə siçovul, sahibsiz itlər və digər bu kimi heyvan və həşəratlar çoxalıb".

Dövlət Dəniz Administrasiyasının yaxınlığında yerləşən evlər isə sökülməmiş qalıb. Həmin ərazidən də keçib, ümumi vəziyyətlə maraqlandıq. Müşahidə etdik ki, bu ərazidən "Teleqüllə" istiqamətinə getmək üçün dar, uçuq pilləkənlərdən keçməlisən. Ərazidəki evlərin sahəsi çox deyil. Sakinləri isə narahat edən məsələ kompensasiyanın azlığıdır. Onlar iddia edirlər ki, bu ərazilərdə inşa edilən binalardakı mənzillərin hər kvadratı 2500 manata satılır. Burada məskunlaşanların əksəriyyəti 1960-70-ci illərdən köçənlərdir. Evlərinin isə sənədləri qaydasındadır. Bunu əsas gətirən sakinlər yüksək kompensasiya tələb edirlər. Aidiyyəti qurumlar isə bildirirlər ki, nəzərdə tutulandan əlavə ödəniş olunmayacaq.

Onu da qeyd edək ki, rəsmi məlumata görə, Səbayel rayon Mənzil Kommunal Təsərrüfat Birliyi Səbayel rayonu, Bayıl qəsəbəsinin yamacları boyunca baş vermiş torpaq sürüşməsi ilə əlaqədar 92 fərdi yaşayış evinin sökülməsi və söküntü işləri başa çatdırıldıqdan sonra ərazinin abadlaşdırılması üçün "Şa-İnşaat" MTK-ya 250 min manat ödəyəcək.







**❑ Əli RAİS,**
**"Yeni Müsavat",**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 179 (7349) 30 avqust 2019




# Məhərrəmlik dönəminə hazırlıq etüdləri: nəyə fikir verək?

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Məhərrəm-səfər ayyamına sayılı günlər qalıb. Kərbəla məktəbini, bu məktəbin fədakarlıq və şücaət, həqiqi İlahi xidmət dərslərini kamil surətdə öyrənmək üçün, İmam Hüseynin (ə) və pak səhabələrinin hansı amallar yolunda həyatlarını qurban verməlrini bilməkdən əlavə, bu ruhi halətə necə yetişməklərini də təhlil etmək çox mühümdür.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Müəyyən etmək gərəkdir ki, Aşura qəhrəmanlarının bu cür yüksək kamillik zirvəsinə çatmasına məhz hansı keyfiyyətlərin mövcudluğu gətirib çıxarmışdır.

## Əldə oluna bilən kateqoriya

İstər İmam Hüseynin (ə) mübarək şəxsiyyətini, istərsə də Kərbəla meydanında Rəbblərinə xidmət etmək arzusundan qəlbləri şölələnən səhabələrinin əziz şəxsiyyətlərini təhlil etdikdə, görürük ki, onların hər birində ən xeyirli, ən lazımlı, insanın həm dünya, həm axirət həyatı üçün ən dərəcədə mühüm olan keyfiyyətlər mövcuddur.

Burada yenilməzlik, prinsipiallıq, şücaət, fədakarlıq, rəhimlilik, şəfqət, mehribanlıq, riqqət, qəlbi zənginlik və digər insanı insan edən keyfiyyətləri görürük. Lakin bunların əsasında bir keyfiyyət durur ki, onun mövcudiyyəti digər xüsusiyyətlərin tutumunu, mahiyyətini, dərəcəsini müəyyən edir. Bu keyfiyyətin adı - təqvadır.

Məhz bu keyfiyyət Kərbəla vaqiəsinin əziz simalarının artıq 1400 ildir ki, qəhrəmanlıq və fədakarlıq nümunəsi kimi tərənnüm edilməsinə səbəb olmuşdur. Çünki təqva keyfiyyəti insanda ixlası - yalnız Allaha xatir gözəl əməllər yerinə yetirməyi və hər bir riyadan, saxtalıqdan, qeyri-səmimilikdən pak olan bir qəlblə İlahi dərgahda insanlıq missiyasını yerinə yetirməyi müəyyənləşdirir.

Bəs bu gözəl keyfiyyət olan təqva, insanın qəlbində necə yer alır? İslamın bu məsələdə mövqeyi belədir ki, bu, əldə oluna bilən bir kateqoriyadır. Bu, insan iradəsinin məhsuludur - həm əldə etmə mərhələsi, həm də qorunub saxlanılması mərhələsi insanın iradəvi seçiminin nəticəsidir. Hər an insandan diqqət tələb edən, fikrinin özündə, öz durumunda olmasını tələb edən bir kateqoriyadır təqva.

Təqvanı qoruyan, davamlı edən, sistemli bir keyfiyyətə çevirən, onun əldən getməməsinə səbəb olan mühüm amilləri araşdırsaq, görərik ki, 2 mühüm məsələ var ki, onlara riayət etdikdə, insanın qəlbində təqva daimi bir halətə çevrilir. İnsan bunlara sahib çıxdıqda arxayın ola bilər ki, təqvanı itirməyəcəkdir, qoruyacaqdır, inkşaf etdirəcəkdir.

## Birinci qoruyucu keyfiyyət

Bu qoruyucu keyfiyyətlərdən birincisi - günahdan çəkinməkdir. İnsan əgər təqva əldə etmək istəyirsə, bu keyfiyyəti qorumağı və itirməməyi arzulayırsa, ilk olaraq günah etməməyə diqqət yetirmək lazımdır. Təqva istəyi ilə günahdan çəkinməmək bir araya sığmır. Bunlar bir-birini istisna edən hallardır.

Bizim toplum üçün bunun anlamı xüsusilə əhəmiyyətlidir. Yayılmış məsələdir, deyirlər "insanda əsas odur ki, qəlbi təmiz olsun". Doğrudur, qəlbitəmizlik əsas keyfiyyətdir, amma unutmamaq gərəkdir ki, həmin qəlbitəmizlik məhz elə günahdan qorunmaqla əmələ gəlir. Günahdan qorunmaq - heç nə ilə əvəz oluna bilinməyən bir keyfiyyətdir.

Bəzən lənətlik iblis günahı tərk etməyi, günahdan qorunmağı insana çətin göstərə bilir. İnsan deyir ki, bəs filan işimdən necə çəkinim, filan işə artıq vərdiş etmişəm. İblis lənətlik insana təlqin edir ki, onsuz da xeyri yoxdur, guya günahdan pəhriz etmək çox müşkül bir işdir.

Qətiyyən belə deyildir! İslamın yanaşması birmənalıdır: insan iradəvi varlıqdır, ona seçim qabiliyyəti verilib və ən mühümü - düzgün seçim etmək üçün kifayət qədər məlumat verilmişdir. İnsan iradəsini toparlaya bilər və günahı bilmərrə tərk edə bilər.

Burada mühüm yeri təfəkkür prosesi tutur. Məhz təfəkkür edən insan günahın eybəcərliyini, onun reqressiv mahiyyətini dərk edə bilər və əqlən bundan imtina edə bilər. İnsan əvvəl bir müddət günahsız yaşamağı öyrənir, sonra bu müddət uzanır və beləliklə, günahdan çəkinmək onun ana keyfiyyətlərindən birinə çevrilir.

Burada əsas köməkçi vasitə - təfəkkürlə yanaşı, insanın diqqətli olmasıdır. İnsan söyüş söyməməsinə, yalan danışmamasına, böhtan, iftira atmamasına, yaltaqlıq, riyakarlığa etməməsinə, qəddarlığa, xəsisliyə, təkəbbürlüyə yol verməməsinə və digər xəbis xislətlərə yan almamasına nəzarət edirsə, nəticədə bu və digər mənfiliklər ondan uzaqlaşar.

Hər bir işdə belədir. İnsan yeməyə başlamazdan öncə, qarşısındakı qidanın mənbəyi barədə düşünməlidir. Yeməyi kiminsə haqqını basmaq, rüşvət almaq, alçaqlıq etməklə əldə edilib, yoxsa Allahın məqbul qərar verdiyi düzgün yolla? Haladırmı? Öhdəsində olan digər insanlar ac qalmırlarmı? Kiminsə haqqını zay etməyibmi?

Geyimində də, dinlədiyində də, baxdığında da, ünsiyyət etdiyində də, digər gündəlik məsələlərdə də eynilə diqqətli olmaq gərəkdir. İnsan bu məsələlərə diqqət yetirdikdə, bir müddət sonra günahdan çəkinmə artıq onun üçün vərdiş halına gəlir.

Əslində durumuna diqqət yetirmək mövzusu insan üçün yeni deyildir: insanların mütləq əksəriyyəti geyimlərinə xüsusi diqqət yetirirlər - insanlar öz zövqlərinə və həyat tərzlərinə uyğun geyinməyə çalışır, saç düzümlərinə fikir verirlər və s. Və insan necə zahirinə diqqət yetirirsə, eləcə də daxilinə diqqət yetirməli, qəbul etdiyi qidaya, aldığı məlumata, baxdığı görüntüyə, səsləndirdiyinə fikir verməlidir.

## Qoruyucu keyfiyyətlərdən ikincisi

Qoruyucu hesab edilən, təqvanı şərtləndirən ikinci keyfiyyət - itaətdir. Bu mövzunun özəlliyi ondadır ki, itaət insanı behiştə də apara bilər, cəhənnəmə də. Əgər zalıma, zülmə itaət - insanı məzlum duruma gətirib onun özünü də, yaşadığı toplumu da tənəzzülə aparıb, nəticədə mənəvi və bəzən də fiziki məhvə sürükləyirsə, kamala, kamilliyə itaət, Uca Allaha və onun yoluna aparan Peyğəmbər və İmamlara (ə) itaət - insanı ruhi yüksəlişə, intibaha, inkişafa aparır.

Dinimiz kimə itaət etməli və kimə itaət etməməli mövzusuna kifayət qədər geniş yer ayırmış, bu məsələləri çox mühüm hesab etmişdir. Misal üçün, "Ali-İmran" surəsinin 132-ci ayəsində bildirilir: **"Allaha və Onun peyğəmbərinə itaət ediniz ki, rəhm olunasınız".**

Gördüyümüz kimi, mübarək ayədə insanın kimə itaət etməli olduğu göstərilir, itaətin hansı hədəfə doğru apardığı və insanın nə əldə edəcəyi göstərilir. Allaha və Peyğəmbərə (s) itaət etmək - insanın kamala can atması, gözəllikləri sevib çirkinliklərə nifrət etməsi deməkdir. Və bu yolun sonu - İlahi rəhmətə qovuşmaqdır, əbədi səadətdə qərq olunmaqdır. Əksi isə - insanın eybəcərliyə meyil etməsi və həqiqi gözəlliklərə isə ikrahla yanaşmasıdır. Belə yolun isə nəticəsi - tənəzzüldür, özünə və digərlərinə zülm etməkdir, İlahi qəzəbdir.

İnsan hər an, hər dəqiqə əslində belə seçim edir: gözəllik və eybəcərlik arasında, Allaha itaət və Allaha qiyam, asilik arasında. Kimə itaət etmək məsələsi "Nisa" surəsinin 59-cu ayəsində bir qədər də açıqlanır: **"Ey iman gətirənlər! Allaha, Onun peyğəmbərinə və öz əmr sahiblərinizə itaət edin!".**

Bəs "əmr sahibləri" dedikdə, Aləmlərin Rəbbi kimləri nəzərdə tutmuşdur? Ayə nazil olduğu zaman, Həzrət Rəsulullah (s) bu mövzuya dəqiq və birmənalı aydınlıq gətirmişdir. Şərafətli səhabələrdən olan Cabirin "Ya Rəsulullllah! "Əmr sahibləri kimlərdir?" sualının cavabında Rəsuli-Əkrəm (s) Həzrət Əlinin (ə) və digər 11 İmamın (ə) adlarını bircə-bircə sadalamışdır.

Bu insanlara itaət - mahiyyətcə Allaha itaət deməkdir, çünki onlar yalnız Allahın dediyini insanlara təbliğ edir və kamillik yoluna dəvət edirlər.

Beləliklə, o halda nicat və səadət var ki, nə vaxt insanda göstərilən iki mühüm cəhətin cəmləşməsi müşahidə edilir: günahdan çəkinmək və İlahi itaət. Bunlar bir-birini tamamlayan və insanın təqva durumunu kamilləşdirən cəhətlərdir.

## Dürüstlüyün açarı

İtaət - qurbi-İlahiyə, Allaha son dərəcədə yaxın olmağa aparan ən qısa və səmərəli yoldur. Həzrət Peyğəmbərdən (s) nəql edirdər: lAllah yanında olan məqama itaətdən başqa heç bir şeylə çatmaq olmaz».

Gördüyümüz kimi, mübarək hədisdə itaətin fəlsəfəsi açıqlanır. İnsanın Allaha itaət durumunda olması nə deməkdir? Allahın razılığı olduğu işləri etmək və Allahın qəzəbinə səbəb olan işlərdən çəkinmək. Dinimiz bəlli edir ki, məhz bellə yolla ruhi-mənəvi zənginliyə yetişmək, Allah Təala yanında yüksək məqama sahib olmaq mümkündür.

Digər mənbələrdə, itəaətin insan durumunun dürüstlüyünü təmin edən vasitə kimi təqdimatını görürük. Həzrət Əlidən (ə) nəql edirlər: "Allaha itaət - hər düzgünlüyün açarı və hər bir fəsadın islah səbəbidir".

Rəhmət mövzusu ilə itaət mövzusunun həmahəngliyini Həzrət Əlidən (ə) nəql edilən digər mübarək hədisdə də görürük: lAllahın rəhmətinə hamıdan çox layiq olan insan - Ona hamıdan çox itaət edəndir».

Dinimiz itaətin hüdudlarını və hədəfini birmənalı göstərərək, Allahdan sapdıran yola qədəm qoymağı, İlahi dəyərlərə sayğı göstərməyən insanlara itaət etməyi yolverilməz sayır. Həzrət Əlidən (ə) bu mövzuda nəql edirlər: "Məxluqa itaət edib, Yaradana itaətsizlik göstərənin dini yoxdur".

Gördüyümüz kimi, Allaha asi olan şəxsə itaəti, dinimiz dinsizlik, küfr kimi qiymətləndirir. Dini olan şəxs heç zaman elə insana qulaq asmaz ki, bunun nəticəsində İlahi yoldan sapmış olsun.

Digər bir hədisdə İmam Əli (ə) insanları iradəsiz şəxslərə itaət etməyin fəsadları barədə xəbərdar edir: "İradəsi olmayan bir zəifə itaət edən kimsə, haqq-hüququnu zay edər".

Hər bir zaman üçün aktual problemdir. İradəsiz, nəfslərinin öhdəsindən gələ bilməyən şəxsə itaət etmək - insanın öz haqlarını itirməsinə, şəxsiyyət və ləyaqətinin aradan getməsinə səbəb olar.

Rəsuli-Əkrəmdən (s) nəql edilən hədisdə isə mənsəb və vəzifə sahibini razı salmaq xatirinə Allahın yolundan sapanların acı aqibəti barədə xəbərdarlıq edilir: **"Hər kim ki, Allahı narazı edən bir işi görməklə hansısa rəhbəri razı salsa, Allahın dinindən çıxmışdır".**

## Yaradanın əmri və yaranmışların narazılığı

Mövzunun davamında cəmiyyət üçün çox aktual olan digər bir problemə toxunaq. İmam Əliyyən-Nəqidən (ə) çatdırılan hədisdə insanın gördüyü düzgün əməllərin bir çoxlarında narazılıq yaratması məsələsi işıqlandırılır. Bəzən elə olur ki, insanın ədalətsizliyə, korrupsiyaya, rüşvətə qarşı dözümsüzlüyünü, rəzilliklərə, şəxsiyyətsizliklərə qarşı mövqe sərgiləməsini deformasiyaya uğramış ictimai rəy narahatlıqla qarşılayır. Dinimiz belə hallarda insanı geniş düşünməyə, yaranışın fəlsəfəsinə varmağa, insan olaraq öz təklifinə əməl etməyə çağırır. Beləliklə, 10-cu İmam Həzrət Əliyyən-Nəqidən (ə) nəql edilən hədisdə deyilir: **"Yaradanın əmrinə itaət edən insan, yaranmışların qəzəb və narazılığından qorxmaz".**

Beləliklə, Kərbəla səhnəsində yer alan misilsiz qəhrəmanlıq - yüksək əxlaqi-mənəvi dəyərlərin bir təzahürüdür. Təqva kimi həqiqi bəndəyə uyğun olan keyfiyyətin meyvəsidir bu qəhrəmanlıq. Günahı iyrənc bilib, gözəlliyə, kamala can atmağın, yalnız Mütləq Kamilliyə itaətin, tapınmağın məhsuludur bu şücaət. Özü də ani, emosional bir sıçrayış deyildir, həyati prinsiplərin, İlahi dəyərlərin yaşadılması amalına xidmətin məntiqi davamıdır bu fədakarlıq. Dərin etiqadın, yenilməz imanın abidəsidir bu. Allah Təala cəmi insanlara bu nəcib nümunələrdən ibrət götürərək, kamala yetişməyi nəsib etsin!

**Allahım, bizləri dünya və axirətdə Həzrət Peyğəmbər (s) və Əhli-Beytlə (ə) birgə qərar ver!**

**Allahım, ümmətin qarşısında duran problemlərin həllini, xəstələrin şəfa tapmasını, yoxsulluq və ehtiyacın aradan getməsini, işğal altında olan torpaqların, ilk növbədə Qarabağ və Qüdsün azad olunmasını, əsirlərin azad olmasını nəsib et!**

**Allahım, 12-ci İmam Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f) tezliklə zühur etməsini inayət et! Amin!**

YENİ MÜSAVAT
Son səhifə
N 179 (7349) 30 avqust 2019

## Bunları bilirsinizmi?

* Dünyada mövcud olan bütün qarışqaların çəkisi dünyada yaşayan bütün insanların çəkisinə bərabərdir.

* Braziliyada elə bir hörümçək mövcuddur ki, o, kişiləri sancarsa, həmin insanlarda bir neçə saat keçməyən ereksiya yaranır.

* Anatidaefobiya-elə bir qorxudur ki, bu qorxudan əziyyət çəkən insanlar elə zənn edirlər ki, onları hansısa ördək izləyir.

* Ağcaqanadları sizdən uzaqlaşdıran vasitələr (sprey və ya kremlər) əslində ağcaqanadları sizdən uzaqlaşdırmır, onlar sizi ağcaqanadlardan gizlədir. Belə ki, həmin vasitələr ağcaqanadların hissiyyat hüceyrələrini keyləşdirərək onların insanları hiss etmək qabiliyyətini məhv edir. Beləliklə, həmin an siz ağcaqanadlar üçün görünməz olduğunuz üçün o sizlərə yaxınlaşmır.

* Həşərat yeməyənlər üçün xüsusi açıqlama; böcəklər dadına görə alma, eşşəkarısı meşə çərəzi, soxulcanlar isə qızardılmış donuz əti tamına malikdirlər.

* Orta hesablamaya görə qadın orqazmı kişi orqazmından 4 dəfə uzun çəkir.

* Statistikaya görə əgər fəlakət baş verən zaman ilk 90 saniyə ərzində siz panikaya düşməmisinizsə, deməli, siz ya sağ qalacaqsınız, ya da ki, rahat öləcəksiniz.

* Orta hesabla bir ömür ərzində insanın ifraz etdiyi tərlə 25 metrlik hovuzu doldurmaq olar.

* Hər il 30 000 insan özündən yeni seksual poz ixtira etmək arzusunu həyata keçirməyə cəhd edərək şikəst olurlar. Yaxşısı budur heç kəs özündən Amerika kəşf etməsin.

* Asqıran zaman insan ürəyi bir neçə saniyəlik fəaliyyətini dayandırır. Ona görə asqıran zamanı insana "Sağlam ol" deyirlər.

* Statistikaya görə bazar ertəsi özünə qəsd edənlərin həlledici günüdür. Hesaba alınmış özünə, qəsd hadisələrinin 96%-i həftənin birinci günü, yəni bazar ertəsi baş verib.

* Ən maraqlı faktlardan biri odur ki, içdiyimiz suyu bizdən öncə bir neçə insan bir neçə dəfə içib.

* İnsan bədənində bakteriyaların sayı hüceyrələrin sayından 10 dəfə çoxdur.

* Amerikalıların raketin işə salınma kodu 00000000 idi və 17 il ərzində bu dəyişməz olaraq qalmışdır.

* Homoseksuallıq 1500 növ heyvan arasında yayılmışdır. İnsandan sonra yalnız amazon delfinləri eyni cinsləri ilə uzun müddət yaxınlıq edirlər.

* Kokos südü o qədər təmiz və sterildir ki, İkinci Dünya müharibəsi zamanı IV qan qruplu yaralılara plazma əvəzi bu süddən istifadə edirdilər.



## 50 il əvvəl dalaşdığı dostunu öldürdü

**Taylandın Anqxonq şəhərində 69 yaşlı kişi 50 il əvvəl, məktəb zamanı ona lağ edən sinif yoldaşını güllələyib. Bu barədə AsiaOne saytı xəbər yayıb. Txanapat Anakesri 53 il boyunca Sutxata Kosayamatanı bağışlaya bilməyib. Hər ikisinin 16 yaşı olanda birinci bütün sinfi Txanapatın əleyhinə qaldırıb və onu yerə basdırıb. Bu hadisədən sonra Txanapatu məktəbi atmaq məcburiyyətində qalıb. O, desant, Sutxat isə dərzi olub.**

Sinif rəhbərinin təşkil etdiyi məzunların görüşündə Txanapat küsülü olduğu eks sinif yoldaşı ilə danışıb və ona üzr istəməyi təklif edib. Amma sonuncu bildirib ki, heç nə xatırlamır və ona da olanları unutmağı təklif edib. Cavab keçmiş desantı qəzəbləndirib. O, Suxatanın qarnından vurub və hadisə yerindən uzaqlaşıb.

Zərərçəkmişi xəstəxanaya aparsalar da, həkimlər onu xilas edə bilməyib. Yara ölümcül olub. "Txanapat içəndə tez-tez deyirdi ki, zamanında onu Sutxatanın sataşmaları çox hirsləndirirdi. O, heç vaxt bu olayları unutmurdu. Bütün bunlar keçmiş zamanda qaldığı üçün mənim heç ağlıma da gəlmirdi ki, o, qisas almaq üçün götürüb dostunu öldürəcək. Biz baş verənlərlə bağlı şokdayıq".

Txanapat axtarışda olduğunu bilən kimi polisə təslim olub. Onun sözlərinə görə, Sutxatın öldüyünü bilmirmiş.

## Yaşlı ər-arvad evə girən ayını qovdu

**Amerikanın Kolorado ştatından olan cütlük evlərinə girən ayını heç bir yardım almadan qovublar. Bu barədə informasiya saytı olan WTKR məlumat verib. İnsident 26 avqust, bazar ertəsi günündə baş verib. Ac ayılar Con Consonun və onun həyat yoldaşı Corcu Enn Fildin evinə giriblər. Onlar evdə çörək taparaq onu yeyiblər. Bu zaman ər-arvad aşağı mərtəbədə, televizora baxırdı. Onlar şübhəli səslər eşidiblər və bu səsin mənbəyini tapmaq istəyiblər.**



71 yaşlı Conson mətbəxə girib və bu zaman ayı ilə toqquşub. Heyvan kişiyə hücum edərkən sonuncu da ona yumruq vurub. Yardıma kişinin həyat yoldaşı Fild də gəlib və heyvanı beysbol ağacı ilə vurub. Son nəticədə heyvan evdən qovulub.

Consonun bədənində, xüsusən də üzündə, sinəsində və əllərində yara izləri yaranıb. Onun həyat yoldaşına hər hansı xətər dəyməyib.

Polislər itlərlə birlikdə ayı və onun balasının axtarışına çıxıblar. Səhəri gün böyük ayını tapıb, onu yatızdırıblar. İkinci heyvan isə aşkarlanmayıb. Ştat polisinin instruksiyasına görə, insana hücum edən aqressiv heyvan dərhal öldürülməlidir.

## Ərinin xətrinə 84 kilo çəki atdı



**Uels sakini çəkisinin həddən artıq olmasına görə müstəqil şəkildə çimə və geyinə bilmirdi. O, bu səbəbdən 84 kilo çəki atdı. Bu barədə lenta.ru saytı yazıb. 35 yaşlı Karina Danford Britaniyanın Bridcet şəhər sakinidir və 4 il bundan qabaq ərə gedib. O, hər axşam şokolad, çips və sağlam olmayan qidalar qəbul edirdi. "Mən heç nə etmək istəmirdim. Ancaq yeyib-içmək idi arzum" deyən qadının çəkisi, nəhayət, 191 kiloya çatıb. Artıq çəkiyə görə o, evdən çıxa bilmir və daim yardıma ehtiyac duyurdu. "Ərim hər gün məni hamamda çimizdirmək və geyindirmək məcburiyyətində idi. Bu mərhələdə artıq o, mənim ərim yox, dayəm kimi idi. Və onun üçün bu, heç də gözəl bir hadisə sayılmazdı".**

2018-ci ilin yanvarında Karina artıq belə həyatdan bezib və arıqlama proqramına yazılıb. İki həftəlik sərt dieta və fiziki hərəkətlərdən sonra o, 5 kilo çəki itirib. Qadın təslim olmur, öz üzərində işləməyə davam edir və 18 ay ərzində 107 kiloya qədər arıqlayıb. İlin sonuna yaxın o, daha 30 kilo çəki atmağı planlaşdırır.

İyulda xəbər verilmişdi ki, Böyük Britaniya sakini ətrafdakıların tənəsindən qurtulmaq və gözəl bədən quruluşlu anasına bənzəmək üçün 63 kilo atıb. O, bunun üçün fastfoddan imtina edib və idman zalında məşqlərə başlayıb. Düzgün qidalanmaya keçəndən 3 həftə sonra o, nəticə görməyə başlayıb.

## Narkotik tapıb varlı olmaq eşqinə düşdü

**Çimərlikdə tapdığı kokaini satmağı planlaşdıran britaniyalı iki il şərti azadlıqdan məhrum etmə cəzasına məhkum olunub. Bu barədə "Metro" nəşri xəbər verir. 34 yaşlı Culian Anderhill iddia edir ki, fevral ayında Şimal dənizinin sahilində hərəsi 1 kiloqram olmaqla iki ədəd içi narkotiklə dolu gizlədilmiş torba tapıb. Kişi dərhal sevgilisinə mesaj yazaraq bu tapıntısı ilə qürrələnməyə çalışıb. O, bu narkotik dolu torbaları qızıl küpü ilə müqayisə edib və deyib ki, onlardan 20-30 min funt qazana bilər.**



Bu hadisənin üstündən az vaxt keçmədən cinayətkarlığa qarşı mübarizə idarəsi eyni çimərlikdə 360 kiloqram gizlədilmiş kokain torbaları aşkar edib. Bu miqdarda kokainin qiyməti 50 milyon funt məbləğində müəyyənləşdirilib. İstintaqçılar hesab edir ki, kontrabandaçılar çanta dolu narkotik maddəni dənizdə xüsusi üsulla gizlədiblər və sonradan onu götürməyi planlaşdırıblar. Amma dalğalar çantaları sahilə doğru atıb. Anderhillin narkotik tapması ilə bağlı şayiə tezliklə yerli sakinlər arasında yayılıb. Daha öncə isə ona polisdən yaxınlaşıblar. Məhkəmə zamanı Anderhill bildirib ki, müdafiə etdiyi şəxs heç zaman kokain alveri etməyib. O, malı ancaq qəbul etməklə məşğul olub.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 3.050